
Әзизә Ҹәфәрзадә
НАТӘВАН
ҺАГГЫНДА
ҺЕКАЈӘЛӘР

**Əzizə Cəfərzadə**

# NATƏVAN HAQQINDA HEKAYƏLƏR

**Bakı-2017**

**Rəssamı S. Musayeva**

**Kisə tikdim dolmadı,**

**Suya saldım, solmadı.**

**Elçi, dilin qursun,**

**Özüm deyən olmadı.**

# SƏMİŞ

İmarətdə nökər, naib də vardı, dayə də... Xanlıq əski dəbdəbəsini itirsə də, zəmanə dəyişsə də balaca bəyim bunu o qədər hiss etmirdi. Pərqubədən qızlar qulluğunda əl-əl üstündə durmuşdular. Anası da, atası da, Şuşanın ən görkəmli alimi, şairi, mollası da ona dərs verməyə hazır idi. Çərəkəsini əlinə alıb mollabacı Qəməri gözləyəndə, otağa dərin səssizlik çökürdü; axı, balaca bəyim «allahın kalamından» dərs alırdı... Amma bütün bunlara baxmayaraq, onun ilk müəllimi Səmiş olub. Səmişi tanımırsınız? Onda qulaq verin:  Şuşanın ecazkar aləmində o da qəribə bir quş idi. Səhərdən axşamacan səsi, nəğməsi kəsilməzdi. Səmiş suya gedəndə də oxuyardı, buzov hörükləyəndə də, mal-heyvan qaytaranda da, pencər yığmağa gedəndə də, təidir-ocaq üçün yulğun, yovşan qaraqan dalınca cumanda da qəhqəhəsini, mahnısının arası kəsilməzdi. Pencərə, oduna gedən qızlar, kahaları, yarğanları özlərinə sığınaq edib oturanda, Səmişi araya çəkib oxudardılar, əl-ətək eləyib onun üçün də odun, pencər yığar, nəğməyə ara verməsinə razı olmazdılar. Bir qız yığnağı Səmişsiz keçməzdi. Oxumağa başladımı, dünyanı unudardı; güldümu—uğunub gedərdi. Hər şey onun üçün nəğmə idi, şe’r idi. Ara-sıra dayə Həmayilqonça, bəyimi qarşısında oturdub saçlarını daradıqca Səmiş haqqında deyərdi:

— Dərdin mənə, bəyim, sən ona qoşulma, Səmiş çöl quşu, sapand daşıdı.

Çöl quşu. Doğrudan da Səmişin oxuması üçün kiçik bir səbəb, xırdaca bir bəhanə kifayət idi. Əslində heç bəhanə də lazım deyildi. Elə bil nəğmə onun daxilində idi, nəfəsi ilə ciyərlərindən gəlir, firuzəym ənginliklərə sovrulurdu... Siz yuvasını tikmək üçün yosun, su, palçıq daşıyan, amma zəhməti də nəğməsi ilə müşayiət edən quşları—lap elə başımızın üzərindən indicə ötən bu qaranquşun özünü müşahidə etmişsinizmi? Səmiş də qaranquş idi... Sarı çiçəkli bəlküm yarpaqları, bağrı qara al lalələr, ətirli boyana, yaşıl məxmər yonca, tikanlı köynəyindən çırtlayıb tökülən çətənə, boz-gümüşü, tüklücə yarpız, şəkər dadan qanqal zoğu, dodaqlarına, yanaqlarına mixəyi xallar düzən dağ yemliyi, plovlar yaraşığı qırxbuğum, mərcan kimi kolları bəzəyən moruğ... qız bunları toplayanda -elə bil hərəsinə bir mahnı, bir söz qoşurdu.

Ata-anasının yasaq etməsinə, dayənin dilə tutmasına baxmayaraq, bəyim gözdən oğurlanıb Səmişlə oğrun-oğrun görüşər, onun nəğmələrini, yanıltmacları, tapmacaları əzbərlərdi. Qız sinədəftər idi. Sözü, mahnısı qurtarmaq bilmirdi. Hardan yığırdı bunları Səmiş?

Səmiş arabir xırdaca, çəlimsiz qollarını kəpənək qanadları kimi açıb yelləyə-yelləyə namə’lum bəstəkarın, namə’lum bir şairin sözlərinə bəstələdiyi (bəlkə də özünün quraşdırdığı) bir mahnını oxuya-oxuya gah torağayı, gah hacıleyləyi, gah da başqa nəyi isə yamsılayaraq, görəcəyi işin ardınca qoşardı:

**Ay hacıleylək,**

**Yerişi lək-lək,**

**Qurbağa göldə—**

**Çaylardan əl çək!**

Onun nəğmələri həyatın özü qədər namütənahi idi, nə əvvəli vardı, nə sonu... Bunların hərəsinin də öz ahəngi, öz yeri vardı. Qış vaxtı bağa girdimi, parlaq qara gözlərinə kölgə salan, qırov düşmüş sıx kirpik lərini tez-tez qırpar, soyuqdan göyərmiş dodaqları hayqırardı:

**Saç bağım,**

**Saçaq bağım,**

**Güllər açar haçaq, bağım?**

Səmişin anası Həmayilqonça, bəyimi minbir məhəbbətlə əzizlər, minbir dillə dindirərdi. Elə bil dayənin bu məhəbbəti Səmişə də keçmişdi, qız bəyimi uzaqdan gördümü, gülümsəyərək yanına qaçır, atılıb-düşərək oynamağa çağırardı. Öz uşaq məhəbbətini izhar üçün deyərdi:

**Bəyim gəlir uzaqdan,**

**Mən baxıram bayaqdan,**

**Canım sənə sadağa**

**Bir ay mınnan qabaqdan.**

Anası çox vaxt gülərdi:

— Niyə bəs "bir ay mınnan qabaqdan?" bir il olsa necədi?— deyər, məhəbbətlə qızın cod tüklü, toppuz hörüklərini sığallar, əlvan yundan hörülüb, ucuna al qotazlar düzülmüş saçbağısını səliqəyə salardı. Ancaq Həmayilqonçanın əli Səmişin başına dəyən kimi qız sıyrılıb qaçar, hoppanıb aralanar, bəyimlə əl-ələ

verib çəmənlikdə oynamağa. gedərdi. Uşaqların dostluğu bir tərəfdən dayəni sevindirirdisə, digər tərəfdən təşvişə salırdı. Belə hallarda o, ehtiyatla ətrafı gözdən keçirib deyirdi:

— Gözümün işığı, bəyim, xan ya xanım duysa necə olar? Xanzadənin gedə-güdə qızına qoşulmağını görsələr dərimə saman təpərlər, divanımı edərlər, dünyanı dağıdarlar, səni əlimnən alarlar. Canım-ciyərim od tutub alışar, nə naləm yetişər, nə duam...

Amma uşaq qəlbi belə qorxuları nə bilir! Vaxt tapanda onlar illər həsrətlisi kimi görüşər, yonca xalı üstündə oturar, nağıl, tapmaca deyər, ya da ayaqlarını irəli uzadıb düzgü, yanıltmac söylərdilər. Bə’zən Səmiş, balaca, sevimli bəyiminin xahişi ilə Şuşada təzəcə qoşulmuş, yenicə dəb düşmüş bir mahnını öz məlahətli səsi ilə oxuyardı. Arabir Səmiş bəyimi yeməyə çağırardı: «Gedək, nənəm kətə bişirib», ya «gəl bomba payımı yeyək, sonra da pencərə gedərik», «nənəm sənə pərpələk saxlayıb». Bəyim imarətdə heç vaxt görmədiyi bu yeməklərin adına gülər, dadına baxdıqda çox bəyənərdi: «Nə? Bomba? Pərpələk? Nə məzəli adları var? Səmiş, amma çox dadlıdır. Mən heç beləsini yeməmişəm. De görüm, bunu necə bişirirlər, aşpazımıza deyim, mənim üçün bişirsin».

Öz fağır komasında, yoxsul süfrəsində döşlərindən süd əmmiş bu mehriban qızın yemək yeməsi, Həmayilqonçqnı kövrəldərdi. «Xan evində doğulsa da, xanzadalıq iddəasında olmayan» qızın mehriban, xoşxörək olması, var evindən çıxsa da, yox evinə meyl göstərməsi qadının ürəyini titrədərdi. O, yaşarmış gözlərini qızlara dikib: «hər qapımdan girəndə, qorxudan öfkəmi yesəm də, südüm sənə halal olsun, bəyim»—deyə düşünərdi. Bu ara yeməklərin nədən hazırlandığını, necə bişdiyini öz rəfiqəsinə izah edən Səmiş, üyüdüb tökərdi: o, dərələrdən, təpələrdən topladığı pencərlərin adını sayardı:

— Bax, «bombanı» dağkeşnişi. quzuqulağı, əməköməcidən: «kətəni» quşəppəyi, quzuqulağı, qırxbuğum, cincilimdən bişirirlər. Hələ dovğa üçün su axarlarından yarpız da yığırlar. Çoxdur ey... o qədər pencər var ki...

Bəyimin təbiətlə ilk tanışlığı Səmişlə başlayıb. O, müxtəlif otların adını öyrəndikcə, xörəklərin bişirilmə qaydasını, xırdaca yaşıdından eşitdikcə, heyrətini gizlədə bilmirdi. Axı o, imarətdə heç bir iş görmürdü:

— Sən bunları hardan bilirsən?

Səmişin gözləri gülür, ən sadə, hamı üçün aydın olan bir şeydən danışırmış kimi deyirdi:

— Bıy, başıma xeyir, bəyim, bəs nənəm imarətə gedəndə evimizdə işlərimizi kim görür?

Qız bu sözləri deyə-deyə kiçik dəmir parçasından daşa sürtüb düzəltdiyi «bıçağı» ilə yaxındakı qanqalın tikanlı yarpaqlarını kəsib bəyimə uzadır, deyirdi: -

— Al, bəyim, gör nə şirindi? Elə bil baldı! Ala, qəməltimi verim, onuynan soy, yoxsa əlini tikan dağıdar.

Səmişin qəməlti adlandırdığı bu yarıpaslı, ağzı torpağa girməkdən parıldayan dəmir parçası, bu anda bəyim üçün evlərindəki ən qiymətli gümüş bıçaqlardan da əziz idi. Axı, onu Səmiş özü qayırmışdı. Heç kəs də alıb: «əlini kəsərsən» demirdi. Əli kəsiləndə bağayarpağı qoyub sarıyır, ufuldamırdı. Yamanca qızdı Səmiş!..

O öz rəfiqəsinə ecazkar Qarabağın dağlarında bitən ətirli çiçəklərin adını öyrətdi,quşların səsini tanıtdı, bağların ahəngini,. qayalardadan sızan şırnaqların, dərələrdən köpüklənib axan suların, dağlardan enən şəlalələrin səsindəki əbədi musiqidən həzz almaq, duymaq qabiliyyatini təlqii etdi.

Bu qız özü də bilmədən sadə dillə söylədiyi qoşmalar, gəraylılarla bəyimdə şe'rə bir maraq oyatdı. Onun nənəsindən, babasından, kəndə gələn aşıqlardan öyrənib danışdığı nağıllarda da o qədər mahnı dı ki, elə bil bunları qəsdən, Səmişin gözəl səsini nəzərə alıb qoşmuşdular... «Gün-günəş oğlunun nağılı», «Arzu qızın nağılı»... Səmiş onları elə canlı danışırdı ki, hələ əsil aşıq kimi, çömçəni sinəsinə basıb bir nağıl deməsi vardı ki! Ayağa durar, çömçəni saz kimi, başı üstündə tutub oxuduğu gözəlləmənin ahənginə uyğun olaraq rəqs edər, yana, irəli, geri səkərdi. Gahdan çölləmədə çömçə olmayanda «uzun hörüklərindən üç tel ayırıb qar kimi ağ sinəsinə basdı, görək nə dedi» deyə toppuz hörüyünü saz əvəzinə incə köksünə sıxıb nağıla başlardı. Səmiş, aşıqlardan ən çox, Maralyandan gəlmiş Aşıq Pərini sevər, onu təqlid edər, Pəridən yamanca od-alovlu danışardı. Aşıq Pərinin kişilər məclisində xanzadələrə, bəyzadələrə qarşı ağayana-mərdana durduğunu, qorxmadan cavab verməsini, gözəl nağıllar danışıb saz çalmasını, məlahətlə oxumasını elə düzgün yamsılardı ki,.. Pərinin sözləri və adı qızın dilindən düşmürdü. Səmişin öz nağılları da çox maraqlı olurdu... Görüm necə idi? Hə, «Arzu qızın nağılı»nda qız, öz istəklisinə zəhər veriləcəyindən xəbər tutduqda bunu Qəmbərə belə bildirir:

**Əmə,Qəmbərim, əmə.**

**Sirrini heç kimə demə,**

**Qabağında quzuplov**

**Şəkərə dönsə də yemə!..**

Yox, ən yaxşısı «Gün-günəş oğlunun nağılı» idi. Səmiş bu nağılı xüsusi bir bacarıqla danışır, nəğmələrini ayrıca bir həvəslə oxuyurdu. Bu nağılda da qızın qocaqlığından danışılırdı (Səmişin nağıllarının çoxunda qızlar igid, cəngavər və ağıllı olurdu). Yeddi

bacının ən kiçiyi yamanca zaval idi. O,yeddi əmisi oğluna üstün gəlib, Gün-künəş oğlu kimi

cəngavərin bağından narınc-türunc alarır və atasını ölümdən xilas edir. Hələ igidə yanıq da verir:

**Qız gəldim, qız getdim, Gün-günəş oğlu. .**

**Hamıdan tez getdim, Gün-günəş oğlu,**

**Narınc-turuncunu apardım, Gün-günəş oğlu**

**Dalımca gələsən, Gün-günəş oğlu.**

Bir səhər bəyim pəncərədən bağa baxır, imarətin önündəki uca ağacların budağından-budağına qonub ahəngdar nəğmələri ilə bağı dolduran quşların səsinə qulaq asırdı. Birdən tanış bir səs eşitdi. Bu turacın dad çağıran çığırtısını yamsılayan Səmişin səsi idi. Bəyim aşağı baxanda, qızılgül kolluğunun daldasında gizlənmiş Səmişi gördü. O, səbirsizliklə pəncərəyə baxır, nə isə işarə edirdi. Deyəsən gözləməkdən yorulmuşdu. Bəyim, qızın sol əlini yana uzadıb, sağ əlini köksündə oynatmasından anladı ki, hardasa aşıq var, saz çalınır. O, cəld başını «hə» bildirən işarətlə tərpədib pəncərəni örtdü. Heç kəsə bir söz demədən pillələrlə üzüaşağı götürüldü. Artıq doqqaza çıxmış Səmişin dalınca cumdu:

— Səmiş!..—deyə səslədi.

Səmiş ayaq saxladı:

— Qorxma, bəyim, heç sənsiz gedərəm?—deyə gülümsədi. Amma qız çox həyəcanlı idi, tələsirdi. Deyəsən şad xəbər vardı.

— Nə olub, Səmiş?

—-Aşıq Pəri gəlib,—deyə o, tez-tez qalxıb-enən köksünü ötürdü, nəfəsini dərdi.—Köçərri tərəfdən Xan əmin toyxana qurdurub, girri adam var. Deyillər, Xan əmin özü də sonra bilmirəm Zəngilannan hansı bəydisə, o da Aşıq Pəriynən höcətdəşəjək.

— Şe’rləşəcək...

— Deyişəjəklər.

Onlar əl-ələ verib Köçərli məhəlləsinə tərəf qaçdılar. Elə bil şəhərin bütün camaatına car çəkilmiş, «caramana car, kovxaya xəbər» olmuşdu. Məmə yeyəndən, pəpə deyənə kimi hamı o tərəfə tələsirdi. Qızlar toyxana qurulan meydançaya çatanda burada ağac atsaydın yerə düşməzdi. Cəfərqulu xanın (Səmiş onu «Xan əmi» adlandırırdı) adamları camaatın qabağında durmuşdu. Şəhərin mötəbər adamları gələndə,

ikiqat bükülüb baş əyir, toyxanaya ötürür, yer göstərir, döşək qoyur, qəlyan gətirir, çay süzür; camaatı isə bir qədəm də irəli buraxmırdılar. Nökərlərdən biri qızları tanıdı. «Hə, balaca bəyim, sən də buradasan, keç, keç» dedi. Qız rəfiqəsinin də əlindən dartıb ağ keçələrdən, xalı və gəbələrdən düzəldilmiş toyxananın bəri divarına yaxınlaşdı, xalçaların uclarını aralayıb, cığ-çətən arasından Səmişlə başbaşa verib içəri boylandı. Yuxarı başda qalın döşəklər, məxmər mütəkkələr, qu nazbalışlara söykənib şəhərin mütəşəxxis adamları ilə birlikdə oturmuş zərpoqonlu əmisini gördü. Qızın gözü onu axtarırdı. Aşıq Pərini. Birdən Səmiş üsulluca onun əlini sıxdı, qulağına xısıldadı:

— Bəyim, odu ey... orda aşağı başda, çalğıçılırın içində, bir bax!

Baxdı. Pəri, doğrudan da, gözəl idi. Qara-qura geyimli kişi sazandaların içində nur saçırdı. İmarətdəki otaqların divarlarına çəkilmiş şəkillərdəki Şirin, Leyla kimi əlvan idi. Ayağında abı dizlik, əynində al köynək, üstündən ağ, yelpikqol arxalıq, belində

günbəz önlüklü gümüş kəmər, alnında və köynəyinii ətəyində gümuş pullardan duzəldilmiş telbasan və ətəklik vardı. Başına ağ örpək örtmüşdü, lap su sonası kimi... Tə’riflədiklərincə var idi. Qələmi qaşları kaman kimi gərilmiş, iri qara gözləri ciddiyyətlə məclisi süzür, arabir dizinin üstünə qoyduğu üç telli sazı kökləyirdi. Sağında zurnaçı, dəfçi, solunda züyçü, dümbək və qoşadumbul çalan oturmuşdu. Arxasında ayaq üstə duran oğlan, xanəndəsi Fərhad idi. Aha... Aşıq Pəri bu imiş... Qızlar, məclisi, xarici aləmi unutmuş, heç bir şey danışmadan nəfəslərini qısıb onun dillənməsini gözləyirdilər.

**Salam verdim, əleyk aldım,**

**Gəldim mehman, gül, Gülədam.**

**Bu surətdə, bu camalda,**

**Ola bilməz bir gül əndam..**

**Aşığıyam yar aşığı.**

**Canım aldı yaraşığı.**

**Tərlan könlüm, yaraşığı**

**Ol qonağı o gülən dəm.**

— Nə oxuyur, ay allahı sevən!.. Lap tanrı bəxtəvəridi. Tanrı bir vəsilə sala, mən də belə oxuya biləm.

Bu, Səmişin səsi, pıçıltısı, arzusu idi, hərarətli nəfəsi ilə birlikdə bəyimin qulaqlarını yandırırdı...

Qızlar Aşıq Pərinin mərdanəliyinə, gözəlliyinə, ətəkliyindəki gümüş pullar kimi cingildəyən səsinə valeh olmuşdular. Qayıdan baş Səmiş elə hey deyirdi:

— Mən də belə oxuya bilsəydim... Bəyim, mən də aşıq ola bilsəydim...

Bəyim Səmişin yelda gecəsi kimi qara gözlərində parlayan iki ulduzu görəndə, bir uşaq inamı ilə dedi:

— Olacaqsan, Səmiş, elə sən indidən aşıqsan, sinədəftərsən, ay ölməmiş, di bəsdi, dartışdırma məni...

Amma Səmiş aşıq ola bilmədi. Bu hadisədən cəmi beş-altı il sonra, Səmişin gözəlliyi və səsi Şuşa qalasının təbiəti kimi coşub daşanda, onu zorla, isTƏMƏDİYİ adama ərə verdikdə, dözmədi, özünü Qanlı qayadan atdı...



# DƏNİZ... AH, DƏNİZ!..

**Mən aşiq girdə şirin.**

**Yemayə girdə şirin.**

**Sənin kimi dostnan**

**Danışım bir də şirin.**

## Görüş

Xurşidbanu elə sevinirdi ki, bəyaz darayı köynək altında ürəyi quş kimi çırpınırdı. O, bu gün böyük yazıçını görəcək, dünyanın ən məşhur ustad sənətkarlarından biri ilə tanış olacaqdı. Dünəndən bəri Xasay bəy, xüsusilə, əsil müsəlman ailəsində böyümüş anası, bu görüşə razılıq vermir, yad kişiyə görünməyin «günahi-əzim» olduğunu söyləyirdi. Nəhayət, o, qələbə çalmış, Xasay bəyi və hətta anasını da qonağı qəbul etməyə razı sala bilmişdi. İndi bəyim güzgü qarşısında özünə və oğlu Mehdiqulu ilə qızı Xanbikəyə zinət vurduqca əlləri titrəyirdi.

Ən əvvəl Xanbikə geyindi, anası ona ətəyinə mirvaridən putalar düzülmüş kimxa tuman, əyninə qanovuz köynək, yaxasına qızıl düymələr tikilmiş nimtənə geydirdi; boynuna gəlubənd, qollarına zümrüd, yaqut və incidən düzülmüş bilərzik taxdı. Cavahiratla müzəyyənləşdirilmiş araqçını başına qoyub, üstündən örpəyini örtdü və yalnız bundan sonra silsilə boğazaltını çənəsi altından dolandırıb uclarındakı qızıl qarmaqları gicgahları bərabərində örpəyə bənd etdi; tağı üstündən pərvanə şəkilli gülpərək taxdı.

Natəvan Xanbikəni geyindirdikcə, Mehdiqulu dinc durmur, gah bu, gah da başqa bir şeyi dartışdırır, anasına aramsız suallar verirdi:

— Bəs evimizə nə vaxt qayıdacayıq, ana can?

— Çox darıxmısan?

— Bəs yox?.. Burada allahın göy otu da yoxdu. Ürəyim dağlarımızçın darıxır. Nə vaxt qayıdacayıq, ana? Gör bir neçə vaxtdır gəlmişik...

— Bibiheybət yolu çəkilib qurtaran kimi gedəcəyik.

— Yol da ki qurtarmaq bilmir. Dünən atamla baxmağa getmişdik... Zəhrimar elə bil acı bağırsaqdır... hey uzanır, ha.

Balaca Xanbikənnin qara şanı giləsinə bənzəyən parlaq gözləri alacalandı, qorxu dolu titrək bir səslə dedi:

— Elə demə, nənəm deyir ki, bu yolu səninlə mənim üçün nəzir eləyibmiş... Nəzirə elə demə ha, günahdır.

Ana gülümsədi, qızının başını sığalladı:

— Qorxma, qızım. Sən də elə danışma, Mehdi can,— deyə oğluna tərəf döndü.

Mehdiqulunun geyinməsi uzun çəkmədi. Oğlan, atası ilə cüt tikdirdikləri qara çərkəzi çuxasını və ağ papağını geymişdi. Çuxasının sinəsinə və ətəklərinə iki barmaq enində zərli bafta tikilmiş, üst ciblərinə hər tərəfdən dörd ədəd qızıl vəznə qoyulmuşdu. O yeridikcə əlini xəncərinin qızıl dəstəsindəi çəkmirdi.

Növbə Natəvana gəldi. Bu gün bəyim nədənsə çox zərif geyinmək istəyirdi. O, ağ qaymağı xaradan tikilmiş tuman və bəyaz ipək köynək, üstündən yenə ağ xara nimtənə geydi. Nimtənənin yaxasına göyərçin yumurtası boyda qızıl düymələr düzülmüşdü. Köynəyinin ağ sabun köpüyünə bənzəyən qolu dəstələnib nimtənədən çıxmışdı. Bəyim qara məxmərdən tikilmiş araqçınını başına qoydu, cavahir telbasan taxdı və ağ örtüyünü salıb, yaşmaq tutdu. Xurşidbanunun sıx, sürməli kirpikləri, ala gözləri, qara qövsi qaşları, qara birçəklərindən başqa bütün vücudu ağ ipəklərə qərq olmuş, bu zərif məxluqa xəyali bir görkəm vermişdi.

Elə bu zaman polismeysterin on beş yaşlı qızı Nina içəri girib:

— Gəldilər,—dedi və tez çıxıb getdi.

Xanbikə də onun dalınca qaçmaq istərkən gənc ana qızın əlindən tutub saxladı:

— Qız, qanqal olub gözə girmə,—dedi,—bənövşə ol, qoy səni axtarıb tapsınlar.

Qəflətən dilinə gələn bu sözlərin mə’nasını fikirləşib gülümsədi.

Qız isə incikliklə dodağlarını büzdü:

— Bəs Mehdiqulu?—deyə qapıya qaçan qardaşının dalınca gileyləndi.

— O kişidir, gərək kişi qonağı o qarşılasın.

Natəvan ara qapıya yanaşıb anasını səslədi:

— Ana can, buyurun, qonaqlar gəlir.

Xanım otağa daxil oldu, hər ikisi səndəllərdə əyləşib, balaca Xanbikəni yanlarına aldılar.

Qapı açıldı, onlar yad kişi ilə görüşmək həyəcanından toxtamamışdılar ki, qabaqda polismeysterin arvadı, onun ardınca qonaq və axırda xəcalətindən qızarmış Xasay bəy, böyrünə qısılmış balaca Mehdiqulu ilə birlikdə otağa daxil oldular. Bir az onlardan arxada isə polismeyster qolundan tutmuş qızı ilə birlikdə gəlirdi.

Ev sahibəsi Natalya Mixayləovna qonağa müraciətlə fransızca dedi:

— Tanış olun, cənab, yaşlı xanım—Qarabağ xanı Mehdiqulu xanın qadını — Bədircahan xanım, gənc Xurşidbanu isə onun qızı və bizim əziz dostumuz Xasay bəyin zövcəsidir. Bu qara muncuq gözlü gözəl, cənab knyazın qızı Xanbikə, bu igid isə oğlu ikinci Mehdiqulu xandır.

Aleksandr Düma ehtiramla əvvəlcə Bədircahan xanımın, sonra da Xurşidbanu və Xanbikənin balaca əlindən öpüb, göstərilən yerdə—mizin arxasında əyləşdi. Düma yazıçı gözü ilə gənc qadını və millp geyimdə ona teatr səhnasindən baxan kimi görünən uşaqları nəzərdən keçirir, Natəvanın üzünün cizgilərindən qəlbinin həyəcanlarını, arzu və əməllərini dərk etməyə çalışırdı.

Söhbətə Xasay bəy başladı:

— Bağışlayın, bilmirsiniz cənab Mar’mye [1] necədir?

[1] Fransız alimi və səyyahıdır (XIX əsr).

— Siz onu haradan tanıyırsınız?

— Peterburqda görüşmək nəsib oldu. Xahiş edirəm ki, Parisə qayıdanda mənim salamımı və ən yaxşı arzularımı cənablarına çatdırmaq zəhmətini qəbul edəsiniz.

— Məmnuniyyətlə, lakin mən onun indi harada yaşadığını deyə bilmərəm. Səyyah dəstum, allah bilir, Təncərdədirmi, Meksikadadırmı, ya hardadır?

Şübhəsiz ki, xalq maarif nazirliyinin kitabxanasında deyil,— deyə Duma gülümsədi.—Ancaq siz cənabın salamını mütləq öz alim dostuma yetirməyə söz verirəm[1].

Dümanın baxışlarında xoş bir xatirənin ifadəsi olan mehriban təbəssüm sezilirdi. Bir az keçmiş söhbətin istiqaməti dəyişdi. İndi artıq Düma, Mehdiqulunun xəncərinə dair sual verir, gahdan bir böyük xanımdan və ya bəyimdən bir-iki söz soruşurdu. Xanbikə iri şəvə gözlərini qonağa zilləsə də, anasının dizinin dibindən ayrılmırdı; Mehdiqulu isə əlini xəncərə qoyub qürurla nənəsinin yanında dayanmışdı.

Natalya Mixaylovna və qızı Nina növbə ilə mütərçim vəzifəsini görür, qonaqların suallarını bir-birinə yetirir və cavablarını söyləyirdilər. Fransız dilini çox gözəl bilən Xasay bəy isə şərqli adətinə görə qadınının suallarını yad kişiyə tərcümə etməyə utanır, başını aşağı salıb oturur və getdikcə daha da canlanan müsahibəni dinləyirdi.

— Knyagina nə buyurdu?— Düma Ninaya doğru əyilib soruşdu.

---

[1] Duma bu və’dini 1861-ci ildə nəşr etdirilmiş səyahətnaməsinin səhifələrində yerinə yetirdi.

Qız cür’ətlə cavab versə də, əsərlərini maraq və məftunluqla oxuduğu böyük ədiblə müsahibədən həyəcan keçirdiyi səsindən hiss olunurdu.

— Knyagina, Fransada qadın şairlərin olub-olmadığını, soruşur.

Duma Natəvana çox böyuk maraq və təəccüb duyulan nəzərlərlə baxır, yavaş-yavaş danışırdı ki, Nina tərcümədə çətinlik çəkməsin.

— Var, əlbəttə, var,—dedi.—Lap müasir yazıçılarımızın içərisində, hazırkı Fransa ədəbiyyatında böyük mövqe tutan Jorj Sand kimi qadın yazıçılarımız var.

— Jorj Sand?

— Bəli, bu onun təxəllüsüdür.

— Sizlərdə də təxəllüs olur?

— Əlbəttə, xüsusən, ədəbiyyatda çıxış edən qadın üçün bu vacib hesab edilir.

— Sizdə də qadın yazıçı tə’qib edilirmi?

Düma sözün mə'nasını tərcüməçidən eşitmədən əvvəl, səsdəki titrəyişdən, gənc qadının nədənsə bu sualı çox həyəcanla verdiyini hiss etdi. Onun mənasını biləndən sonra:

— Bəli,—deyə üzünü mütərcimə tutub davam etdi. —

Bizdə qadın çadrasız olsa da, siz düşünən qədər də azad deyil. Həmin dediyim Jorj Sandın əsil adı Avrora Düdevandır. Onun yazdığı, qadın azadlığı uğrunda mübarizəyə həsr edilmiş «İndiana», «Valentina», «Leliya» və «Cənab Antuanın gunahı» kimi burjua həyat tərzini və pulgirliyi ifşa edən romanların hər birisi cəmiyyətdə bomba kimi partlamışdır. Bu əsərlər köhnəpərəst ata və ərlərin, burjua mətbuatının və xüsusən,

ruhanilərin amansız tənqidinə mə'ruz qalmışdır. Jorj Sand çox igid qadın və qüdrətli ədibdir. Onun tarixə və Fransa inqilabına həsr edilmiş çoxlu bədii əsəri var ki, bunları həyəcansız oxumaq mümkün deyil. Təkcə «Konsuela» romanı nəyə dəyməz? Mən səyahətə çıxanda onun «Balaca Fadetta» adlı əsəri nəşrə hazırlanırdı.

Xurşidbanu ürək döyüntüsü ilə qonağı dinləyirdi. Düma susanda, o da kirpiklərini dizləri üstünə qoyduğu əllərinə tərəf endirdi. Onun ağ üzünə sanki iki qara qanadlı kəpənək qondu. Düma ixtiyarsız olaraq Şərq gözəlliyi ilə nəcibliyi özündə birləşdirən bu gənc qadını heyranlıqla süzür, onun qəlbində nə tüğyanlar, nə təlatümlər baş qaldırdığını yavaş-yavaş al ləkələr çökməyə başlayan yanaqlarından, titrək nazik dodaqlarından dərk etməyə çalışırdı. Qadının gözləri zillənmiş bir cüt ağ əl dolğun bəyaz görkəmilə ədibi valeh etmişdi.

Nəhayət, bəyim titrək kirpiklərini qaldırdı: ürkək, lakin ahəngdar bir səslə soruşdu:

— Bəs sizdə öz camaatına xeyir vermək istəyən qadınlar nə edir? Bir iş görə bilirmi?

— Xeyriyyə işləri ilə məşğul olurlar. Bizdə bəzi zadəgan xanımların ədəbi salənu var, bunlarda ədəbi gecələr, konsertlər təşkil edirlər. Yığılan məbləğ nə qədər isə xeyriyyə işlərinə sərf olunmaq üçün xüsusi komissiyalara təhvil verilir; məktəb, teatr, kitabxana, yeqamxana, əlillər evi və s. açılması kimd xeyriyyə işlərinə xərclənir.

Ədib danışır, bəyim isə dinləyir və düşünurdu: «Xalqın abırlı gəlin-qızları orada başqalarına əl açıb cəmiyyətin xeyri üçün pul yığır, biz isə özümüzünkünü nəyə, hara xərcləməyi bilmirik...»

Söhbət uzandı; gecədən xeyli keçənəcən qonaq çox şey danışdı.

...Gecə Xurşndbanu uzun müddət yata bilmədi, arxası üstə uzanıb böyük ədibin söz-söhbətini xatırladı. Jorj Sandın xəyalı görkəminin gözü önündə canlandırmağa sə'y etdi, öz-özünə dedi: «O bəxtiyardır, o, cəmiyyətin lə'nətə gəlmiş qüvvələrinə qarşı köks gərir, yazdığını nəşr etdirə bilir. Bizim Məhsəti kimi qorxmazdır. Lakin nə fayda... Məhsəti rübailərini necə nəşr etdirə bilərdi? Mən... yox, heç düşünməsəm yaxşıdır... O isə mubarizdir. Nə qəribə də təxəllüsü var: «Jorj Sand!» Sonra da xəyalında Dumanın geniş alnını, qəribə birçəkli, iri nəvazişkar gözlü mehriban simasını canlandırdı, gülümsədi. «Gərək mütləq Natalya Mixaylovnadan xahiş edəm ki, hər ikisinin rusca nə əsəri varsa, yazdırıb mənim üçün Peterburqdan gətirtsin». O yerində çevrikdi, sağ əlini yanağının altına qoyub gözünu qaranlıq bir nöqtəyə zillədi və yenidən xəyala cumdu. «Xeyriyyə işləri»... «Ədəbi məclislər, məktəblər, yetimxanalar...» Mən əlimdəki pullarımı nəyə xərcləyəcəyimi bilmirəm... Məscidə, vəqfə, zəkata verirəm, «qarnı beş, həmişə biri boş mollalar hara sərf edir, kimə laylayır, bilmirəm...» Birdən onun gözləri önündə ay kimi dəyirmi, gözəl bir sima canlandı, zər-ziba içində cilvələnən bu xanım Gövhər ağa idi... «Bibi... Sən də yetim-yesir əvəzinə, ac qarnı doyurmaq, lüt əyni bitirmək əvəzinə pullarını məscid tikdirməyə sərf etdin... Kaş əvvəldən eşitmiş, bilmiş olaydıq... İndi mən nə edəcəyimi yaxşı bilirəm...»

Son düşüncələr artıq yuxuya dalmaqda olan xəyalla həyat arasında çırpınan bir qəlbdən keçirdi...

Pəncərədən o tayda isə dalğalar inci kimi sarımtıl qumları yalayır, sahilin oyuq-oyuq olmuş qayalarına sanki sehrli bir əfsanə nəql edirdi.

On beş gecəlik ay, dənizə uzun, parlaq bir yol salmışdı. Ay işığı qumsal sahili və sahildən bir az aralı düzülmüş əncir ağaclarının təpəsini nura boyamışdı...

# Bibiheybət

Noyabr ayı idi. Xasay bəy sahildə—böyük Bibiheybət məscidinin qarşısında qonağından üzr istəyib, Bakıdan Bibiheybətə yol çəkməkdə olan fəhlələrin nəzarətçisinə yanaşdı:

— İşlər necədir?

— Yaxşıdır, ağa, allah qoysa, balaca xanın sağlığına bu ayın axırı üçün yol hazır olacaq.—deyə nəzarətçi sahil boyu ilə şəhərə uzanıb gedən cığırda əlləşməkdə olan fəhlələri göstərdi.

Burada kimisi xərəkdə daş daşıyır, kimisi bel və külünglə yeri qazırdı.

— Tələsin, usta Əli, tələsin! Uşaqlar evə qayıtmaq istəyirlər, mən də yolun məəttəliyəm.

— Baş üstə.

Xasay bəy qonağına tərəf döndü. Bibiheybət şeyxləri Dümanı dövrəyə almışdılar. Xasay bəy onlara yaxınlaşdı. Burada hamı Xasay bəyi tanıyırdı. Oğlu, qızı, hərəmi və qayınanası ilə birlikdə Bakı polismeysterinin evində qonaq olduğunu hamı bilirdi. Odur ki, şeyxlər də, əhali də onu xüsusi bir hörmətlə qarşıladılar.

Xasay bəy baş xuddama yanaşdı:

— Qonağım böyük firəng ədibidir, icazə buyursanız pirə baxmaq istəyir.

Sonra razılıq aldığını Dümaya bildirdi. Bibiheybət pirinin sadə tikilisini gəzdikdən sonra Düma və Xasay bəy əfsanəvi Qırxqızlar qayasına gəldilər və daşlardan sızan göz yaşı kimi şəffaf damlalara tamaşa edib, daşa dönmüş Qırxqız haqqındakı əfsanəni dinlədilər.

Xəzri isə dənizin ağyal ləpələrini coşdurub kükrətməyə can atır, sanki öz hökmranlığını bir az da əvvəl ələ keçirmək, hayqıraraq qüdrətini göstərmək istəyirdi. Ləpələr hələ güclü olmasa da qayıqçı, öz qayığını qarşı sahilə tez çatdırmağa tələsirdi. Odur ki:

— Ağa,—deyə o, həyəcan dolu baxışlarını qara çərkəzi geyimdə bir qədər əzəmətli görünən knyaza zillədi,— bir az tələssəniz yaxşıdır. Xəzri başlayır, sonra cənabınızın yanında xəcalətli olluq, ləpə qayığı açıq dənizə aparar.

Knyaz döndü, uzaqlardan, ta üfüqdən şəhərin üstünə doğru sürünməkdə olan qara buludlara baxdı. Çiynindəki başlığı oynadan küləyin hələ qorxunc olmasa da, təşviş dolu səsini dinlədi və nə isə qət edib, qonağa sarı çevrildi. Qonaq hər bir şeydən xəbərsiz kimi durbini ilə gah sahili, gah təpədən uzaqlarda qaralan şəhəri, ara-sıra nəzərə çarpan azman buruqları seyr edirdi. Taxta buruqlar əti tökülmüş, nəhəng qabırğaları üzə çıxmış skelet kimi görünürdü. Düma, əqrəblərdən ehtiyat edərək, quru kollar arasında ucalan böyük ağ bir daşın üstünə çıxıb durmuşdu. Knyaz qonağa yanaşdı, nəzakətlə əlini onun çiyninə qoydu:

— Hörmətli cənab,—dedi—sizi seyrdən ayırdığım üçün üzr istəyirəm, lakin getmək lazımdır, qayıqçı deyir ki, xəzri güclənəcək.

Birdən o, fransız sözləri arasında işlətdiyi «xəzri» gəlməsinə gülümsəyib duruxdu, tez «şimal küləyi» deyə tərcümə etdi. Qonaq:

— Necə dediniz?Xəzri?

— Bəli, xəzri.

— Bu yerli dildə şimal küləyiiin adıdırmı?

— Bəli.

Qayıqçı onlardan bir az aralıda durub, gah dənizə, gah da ağalara baxaraq, təşviş içində qol yoğunluğundakı kəndiri kələfçələyirdi. O tanımadığı bir dildə gedən söhbəti dinlədikcə düşünürdu: «Yox, urus deyil, heç urus dilinə də oxşamır, geyimi bizim ləzgilər kimidi, amma dili yox. Maşallah, bizim ağa onların dilini neçə də bülbül kimi danışır?»

Düma razılaşdı və Xasay bəyin yanınca düşüb dalğaların döyəcləməyə başladığı sahilə gəldi. Bu yerdə sahil qumluq deyildi, qayalıqdı, qırxpilləkənin altında bağlanmış qayıq getdikcə rəngi dəyişməyə başlayan suların üstündə çalxanırdı. Həyəcanla qaqqıldaşan qağayılar gah özlərini köpüklənməyə başlayan dalğalara çırpır, gah da daşa dönmüş Qırx qızın damla-damla göz yaşı sızan qayalara sarı uçurdular.

— Burada qorxulu nə var ki?—deyə Düma dostu ilə birlikdə qayığa miidi.

O, Bakının dəli xəzrisinə bələd olmadığından qayıqçının və Xasay bəyin həyəcanını başa düşmürdü. Xasay bəy ədibin sualından sıxıldı, qorxaqlığı öz dağlı qüruruna sığışdıra bilmədiyə üçün gülümsünərək dedi:

— «Tanımadığın atın arxasına keçmə!»

Düma da gülümsədi, yırğalanan qayıqda yerini rahatladıqdan sonra dəftərçəsində «xəzri» sözünə yazdığı izahatın altından bu məsəli də əlavə etdi.

-Knyaz, bilsəniz bu müddətdə siz mənə nə qədər yeni söz, məsəl, atalar sözü öyrətmişsiniz? Amma inanın ki, Xəzər mənimlə düşmənçilik etməyəcək! Axı, mən Xəzərin simasında yeni və unudulmaz bir dost tapmışam. Mənə daim Xəzərin tufanlarından qasırğalarından bəhs edərdilər. O isə budur, məni təbəssümlə qarşıladığı kimi, şən gülüşlərlə də yola salır...—Sonra o, üzünü sonsuz ənginliklərə, tutqunlaşan üfüqə çevirdi, geniş alnını küləyə

tutub dedi:— Oh!.. İrkani dənizi! Səni çox şairlər görmüşdür... Marlinski səni görən, sənə vurulan ilk şairdir. Sən onun üçün qəlb alışdıran bir alov oldun... O da ayrılıq dəqiqələrində mənim kimi təəssüflənmişdi... Eh Xəzər!.. Sən Atillanın, Teymurun, Böyük Pyotrun, Nadir şahın ordularını görmüsən, danışsana, de görüm, xatirindən nə qalmışdır, nə?..

Qayıqçı öz işini görür, avarını çəkirdi; lakin onun bir gözü qonaqda, qulaqları isə ömründə ilk dəfə eşitdiyi anlaşılmaz sözlərin ahəngində idi. O, sözlərin mə’nasını bilməsə də, qonağın nə isə çox nəcib bir insan olduğunu, sözlərin şe’r kimi ahəngdar söyləndiyini duyurdu. Nəhayət, səbir edə bilmədi, knyaza müraciətlə dilləndi:

— Bağışlayın, ağa, qonağınız lap şairə oxşayır.

— Nədən bildin, kişi?—deyə knyaz təəccüblə soruşdu.

— Sözlərin mə’nasını bilmirəm, amma deməyinin təhərindəp qonşumuz şair Mirzəyə oxşadıram.

— Səhv etmirsən, kişi.

Duma da maraqlandı, qayıqçının nə dediyini knyazdan xəbər aldıqda, Xasay bəy, təəccüb hissini gizlədə bilmədən cavab verdi:

— Bilirsinizmi, o sizin şair olduğunuzu söyləyir, özü də deyir ki, sözlərin ahəngindən başa düşdüm.

Böyük ədib gülümsədi...

# Hədiyyə

Natəvan sahilə açılan pəncərənin qarşısında durüb dənizə tamaşa etməyi sevər, sahilin oyuq-oyuq olmuş qayalarına, xırdaca-xırdaca daşlarına, boz-sarımtıl qumlarına, Xəzərin söylədiyi əfsanələri, nağılları dinləməyi xoşlarlı. Dəniz arabir qəmli bir xatirədən köksü qabarırmış kimi qalxır, dərin nəfəs alır, çalxanır, sonra yenə kəsilmiş söhbəti davam etdirirdi; mavi ipək üzərindəki yungul qırışıqları, qırçınları xatırladan dalğalar, batan günəş altında gah gümüşü, gah qızılı rəng alıb alışırdı.

Bu zaman bəyimin uzun, ağ şirmayıdan yonulmuş kimi görünən barmaqları qələmi daha sür’ətlə işlədir. Bakı buxtasının ayparaya bənzəyən mənzərəsini «Gül dəftəri»nə[1] çəkirdi.

Xasay bəy içəri girdi. Ehtiramla xanımına yanaşdı, Natəvanın çiyni üzərindən alboma baxdı. Sonra gözlərini pəncərədən görünən və getdikcə qürub donuna bürünən Xəzər sahilinə çevirdi.

— Sən getdikcə lap rəssam olursan ha, Xurşid!—deyə gülümsədi.

Bəyim qızardı, cəld albomu büküb, dalğın baxışlarla Xasayı süzdü.

Otuz beş-qırx yaşlarında, gözəl simaya malik olan Xasay bəy təmkin və qürurla danışsa da, gözündə həmişə coşqun bir atəş yanırdı. O, bu gün gürcü zadəganları kimi çərkəzi paltar

---

[1] Natəvanın məşhur rəsm albomu ailə üzvləri və dostları arasında bu adla tanınırdı.

geymiş, başına sivri papaq qoymuşdu. Qara geyməsinii üstündən qızıl kəmər vurmuş, belinə dəstəsi fil sümüyü və qızıldan düzəldilmiş qiymətli xəncər bağlamışdı.

Xasay bəyin əlində tutduğu tapança, batmaqda olan günəşin son şüalarıı soyuq bir parıltıyla əks etdirirdi. Bəyim zövcünün silah həvəskarı olduğunu bilirdi. O, əlini tapançaya sarı uzadıb soruşdu:

— Xasay, bu təzə silahı haradan almısan?

— Xoşuna gəlirmi, Xurşid? Bunu mənə fransız qonağımız hədiyyə köndərib.

— Eləmi?

— Hə, nidi bəs biz ona nə yadigar göndərək? Gəldim görüm, nə məsləhət görürsən?

Natəvanın gözləri yol çəkdi. Sürətlə xəyəlından «Albom, şəkil, yox. bəlkə qəzəllərimi... Yox... yox... Nizami, Füzuli, Vaqif ölkəsindən mənim qəzəlim getsə ayıbdır... Həm də Xasay nə deyər? Gülərlər. Yox...» fikri keçdi.

— Deyirəm təzə tikdirdiyim o bir cüt arxalığı göndərək, hə?.. Qonağımız Şərq geyimlərini çox xoşlayır, necə bilirsən?

Ərinin verdiyi sual onu xəyaldan ayırdı:

— Yaxşı olar, üstünə bu kisəni də qoyarıq.—deyə bəyim yaxındakı səfər sandıqçasından Xasayın nişan verdiyi arxalığı çıxartdı, üstünə öz əli ilə qiymətli tirmə üzərinə güləbətin, ipək sap və incidən tikmə tikdiyi pul kisəsini əlavə etdi.

Xasay bəy, məktub yazmaq üçün mizin arxasına keçdi və təmiz fransız dilində yazdı:

«Hörmətli cənab! Sizin elə yaxşı silahlarınız var ki, onlara bir şey əlavə etməyə cəsarət lazımdır; lakin bu bir kisə və iki arxalığı qəbul etmənizi knyagina sizdən xahiş edir. Kisəni o öz əli ilə tikmişdir».

Məktubu bitirib, zərfi bağladı, zövcəsinin hazırladığı hədiyyələrin üzərindən incə tikməli kisəni aldı, məktubu içərisinə qoya-qoya məzmununu bəyimə söylədi.

Özünə aid sətri dinlədikdə gənc qadın qızardı, kirpiklərini aşağı endirdi, mizin üstündən zəngi götürüb çaldı, xidmətçini çağırdı.

Xidmətçi içəri girdi. Xasay bəy miz üstündəki bağlamaya işarəylə dedi:

— Vəli, bu bağlamanı aparıb şəhər mehmanxanasında olan firəng qonağımıza verərsəi.

— Baş üstə, ağa!

Vəli çıxdı. Natəvanın nəzərləri yenə də pəncərəyə—sinəsində xırdaca ləpələr oynaşan Xəzərə dikildi. Elə bil ki, ləpələr onun böyük arzusunu, yazmaq, yaratmaq həvəsini, qoynuna alıb haraya isə uzaqlara, gələcəyə qara qanunların, keçilməz hasarların olmadığı xoşbəxt bir diyara aparırdı. Lakin hardaydı elə yer?

Qonaq onun xəyalında silinməz iz qoymuşdu. Bu yeganə görüş sanki onu dərin bir yuxudan ayıltmışdı. Qonaq ona qüvvəsini, varını hara, kimə və necə sərf etməyi öyrətmiş, başa salmışdı. İndi o varını vəqfə, məscidlərə deyil öz doğma eli, camaatı üçün sərf edəcəkdi. İndi o, nə kimi işlər görəçəyini bilirdi. Natəvan qarşıda onu çətin bir yol gözlədiyini duyur, nəcib ürəyi həyəcanla döyünürdü.



## DÜNYAYA İNSAN GƏLİR

**Arazı keçən də var,**

**Suyundan içən də var,**

**Çəkmə qərib adımı**

**Ha burdan keçən də var.**

Zirək kəndindən gələn qoca seyid öz ailəsi ilə birlikdə meydanın kənarında çiy kərpicdən hörülmüş evin böyründə oturmuşdu. O, kürəyini artıq suvağı çoxdan qopub töküldüyündən çopur-çopur olmuş divara söykəyib dərin fikrə getmişdi. Gəlib-gedənə baxdıqca qoca seyidin ürəyindən qara qanlar keçirdi: bazarın kasadlığını, mə'kulatın azlığını, dağ havasında yaşamalarına baxmayaraq, rənglərn bomboz bozarmış adamların solğun simasını gördükcə burada da vəziyyətin yaxşı olmadığını başa

düşürdü. Aclıq idi... Tarixə qara bir səhifə kimi yazılmış «Aclıq ili»[1] çağrılmamış qonaq kimi qapını döymədən evlərə girir, özündən sonra acı bir xatirə qoyub gedirdi...

«Bədbəxtçiliyə bax! Bilsəydim həmlidir, heç yola çıxardım?! Ya hamılıqnan xarabamızda ölərdik, ya nə olardı olardı. Qismətdəi artıq yemək olmaz. Mən bu yad yerdə, ev yox, tanış yox, çölün düzündə neynəyəcəm. Birdən vaxtı-və’dəsi çatdı?!.» Dərd qocanı boğurdu. Səhərdən bəri qonşu obalara, kənd ətrafı evlərə, imarətə bir iş tapmaq, ya bir dəlanacaq ümidi ilə gedən oğlu Mir Haşım da hələ gəlib çıxmamışdı. Bayaqdan bəri gözünü oğlu gedən yola zilləmiş Zivər qarı da gah dərindən köksünü ötürür, gah da olan-olmazını yığdığı düyunçədən bir tikə kiflənmiş çörək çıxarıb

getdikçə rəngi daha da boğulan gəlinin əlinə dürtürdü:

— Ye, a baxtı qara, ye, ürəyin üzüldü. Bizim də alnımıza belə yazılıbmış.

Gəlinin halı isə pisləşirdi. Ləkələrdən darçın rəngi almağa başlayan alnında puçur-puçur tər damlaları görünürdü, arabir dişləri ilə gəmirdiyi alt dədağından qan sızır, üst dodağı isə şoran torpaq kimi keşkə salmışdı. Amma o, cınqırını çəkmirdi.

— Dur, ay qara yollu kişi,—deyə qarı qocaya tərəf döndü,—dedim qalaq xarabamızda, el necə, biz də elə! Qulaq asmadın, irtməyini belinə qaldırdın ki, nə var, nə var, mən gərək sizi ağ günə çıxardam. Çıxartdın ağ günə! Dur görüm, nə yayxanmısan? Dur bir dalda tap, qorxduğum başıma gəlib, bədbəxtin və’dəsidi.

— Hara gedim, ay tünbətünün qızı? Belə işin vardı, vaxtında mən ölmüşə deyəydin də...

---

[1] Həmin aclıq ili 1871/72-ci illərə təsadüf edir.

— Heç mən bilirdim ki? Dilsiz-ağızsız balamın ağzını bıçaqnan da açmaq olmur. O, dərd deyəndi? Həyasından söz danışandı?

Bir qədər aralıda yad bir qarı oturmuşdu, əlindəki ala-bəzək yun corablara müştəri axtaran arvad, söhbəti eşitdikdə məsələni başa düşdü. O, Zivər qarıya yanaşıb dedi:

— A bacı, vallah, götürüb evimə aparardım, görürəm dardasınız, amma həm yolum uzaqdır, həm də sizə heç bir rahatlıq düzəldə bilmərəm.—Qarı yaşmaqını çəkib qocaya müraciət etdi: —Qardaş, axşam düşür, sən dur imarətə get, Xan qızını hələ-həlbət gör, de seyidəm, uzaqdan gəlmişəm. Çox səxavətlidir, rəhmlidir, yerdən-yurddan verər, keçinərsiniz. Biz də yavaşyavaş gəlini gətirərik. Sən get, tez ol, ay qardaş!— deyə qarı, gəlinin üzündən vəziyyəti anlayıb qocanı tələsdirdi.

— Mən hara üz tutum, a bacı! Atdı qonaq yerrəşər, itdi qonağa yer olmaz. İtdi qonaqla uşaqlı qonaqdan danışma!

— Kişi, içini məsəl almasın, tələs...

— Qardaş, tez ol, gəlin əl’amandadı. Yoxsa, bazarın qırağında biabır olluq,—deyə corab satan arvad qocanı tələsdirdi.

Yad arvadın səsindəki həyəcandan işin ciddiləşdiyini duyan qoca, yaşına və zəifliyinə yaraşmayan bir cəldliklə bazardan çıxdı.

Natəvan, qoca seyidi külfətinin ardınca gördərib içəri qayıtmaq istədikdə, birdən həyətdəki axşam sükutunu acı bir fəryad pozdu. Onun tükləri biz-biz oldu. Bir an ayaq saxlayıb qulaq verdi. Lakin fəryad təkrar olmadı. Bəyim pillələrin üstünə çıxdı. Gördüyü mənzərə qəlbindəki dəhşət hissini daha da artırdı: pillələrin altında iki qoca qarı və bir də indicə yola saldığı qoca seyidin qolları arasında gənc bir qadın çırpınır, sanki can çəkişirdi. İlk baxışda Xurşidbanu gənc qadının dəli olduğunu zənn etdi. Gəlinin çiyinlərinə tökülmüş saçları, hədəqədən çıxmış gözləri, keşkə

atmış dodaqları şairəni titrətdi. Lakin birdən o, sövqi-təbiilə məsələni başa düşdü:

— Gülzaman, Leyli!—deyə səslədi.—Baba, zəhmət olmasa, nökərlərə de ki, sizin üçün nə tapşırmışamsa hazırlasınlar, özün də oturub dincəl. Burada sənlik iş yoxdu; siz də dağılışın, ayə!

Qoca seyid yarıkönül olsa da, hay-küyə gələn nökərlərə qoşulub getdi. Səsə çıxmış Leyli ilə Gülzaman. Zivər qarının köməyi ilə Gülkəzi qaldırıb alt mərtəbədəki otaqların birinə aparmaq istədikdə, Natəvan qoymadı, köməkləşib gəlini yuxarıya, öz otağına gətirtdi.

— Hə, bura, bura! Gülzaman sən də döşək sal, tez ol, təmiz mələfə gətir, Leyli, qaç gədəni Gülsüm nənənin ardınca göndər. Yolüstü Mirzə Sadıq həkimə də xəbər eləsin, birdən lazım olar.

Qızlar əmri yerinə yetirməyə dağılışdılar.

Birdən qapı açıldı, başdan-ayağa zər-ziba içində incə, mütənasib bir qız içəri girdi; onsuz da qaymaq kimi zərif və ağ üzü bir az da ağarmışdı:

— Nə olub, ana can?

Bu, şairənin sevimli qızı Xanbikə idi. Natəvan qızına sarı döndü; onun nəvazişkar baxışlarında həzin bir ələm vardı.

— Heç bir şey olmayıb, qızım, sən get, narahat olma, dünyaya insan gəlir!—dedi.

Onun səsindəki kədər, gözlərindəki acı iztirab Xanbikəyə nələr demədi... O, başa düşdü ki, böyük bir qəlbə malik olan anası bu insanın küçədə, pillələr altında dunyaya gəlməsindən nə qədər iztirab çəkir: «Axı o, bu bədbəxtlərdən bu axşam yalnız birini xilas etmişdir, bəs başqaları?!». Anası ona dönə-dönə deyirdi: «Xanbikə, bu yoxsulluğu, bu aclığı, bu ağır həyatı görəndə

boğazıma çörək getmir, nə qədər sədəqə versəm, nə qədər əl tutsam, mənə heç görünür. Ah, görəsən yer üzündən dilənçiliyin, yoxsulluğun kökü kəsildiyi bir gün olacaqmı?» Belə vaxtlarda Xanbikə həmişə başını anasının sinəsinə söykəyib durar, şairəni üzən həyəcanların öz qəlbinə də süzüldüyünü hiss edərdi. İndi də Natəvanın baxışları çox narahat görünürdü. Sanki bu gözlərdə dünyanın bütün dərdi-səri toplanmışdı.

Qız vəziyyətin getdikcə kərkinləşdiyini görüb otaqdan çıxdı. Qapıda o, imarətin mamaçası Gülsüm nənəyə rast gəldi. Gülsüm nənə əlini qızın yumru çənəsinə sürtüb, dişsiz ağzı ilə gülümsədi:

— Necəsən, dərdin nənənə?

— Sağ olun, yaxşıyam, nənə can. Siz necəsiniz?

— Necə olacam, dərdin alım, doğulduğun günü görmüşəm, toyunda da oynasam daha rahat ölləm.

Qız qızarıb:

— Eh, nənə—deyib qaçdı.

Qapıya çıxan Gülzaman məzəmmətlə səsləndi:

— Boy başıma xeyir, nə durmusan, ay nənə? Sənin də vaxtlı-vaxtsız içjiyəzini hənək alır.

— Gəlirəm, bala, gəlirəm.

Otaqda hamı sevinc içində idi. Zivər qarı ilə Leyli yenicə dünyaya gəlmiş oğlanı çimdirir, Gülzaman yağlı-ədvəli quymaqdan çay qaşığı ilə Gülgəzə yedirtməyə çalışırdı. Gülsüm nənə ucuna soğan keçirilmiş şişlə otaqda hərlənib «cinləri qovur», gəlin və uşağın alnına şəhadət barmağı ilə sac qarası yaxırdı. Natəvan isə qucağında dörd aylıq Mir Cabbarı tutub ovundurur və gəlinin arıq, saralmış simasına baxdıqca gözləri yaşla dolurdu.

Nəhayət, Leyli uşağı bələyib qucağına aldı və bəyimin yanına gətirdi, diz çöküb şairəyə təqdim etdi. Xurşidbanu Mir Cabbarı dayəyə verib qundağı aldı; göz yaşları içində gülümsəyərək dedi:

— Dünyaya gəlişini təbrik edirəm. Qədəmin mübarək!

Sonra çağanı qaldırıb üzünə yaxınlaşdırdı, təzə

bir həyatın ətrini alar kimi qoxuladı, balaca bürüşük alnından öpdü və qəti bir səslə dedi:

— Nənə, bəri dur!

Gülsüm nənə və Zivər qarı hörmətlə Xan qızına yaxınlaşdılar.

— Nənə, icazə versən mən bu uşağı oğulluğa götürərəm.

Qarının və bu sözləri eşidən zahının gözlərində fərəh işığı yandı.

— Qurbandı sənə, xanım.

— Elə demə, nənə, allaha xoş getməz. Hərənin bir canı var. —O, Gülzamanın köməkliyi ilə qundağı yaxasından keçirdi.—İidi sən mənim oğlumsan, bunun babasının adı nədir?

— Seyid Yəhya:

— Adını Mir. Yəhya qoyaq, yaşını allah versin. Qoy o mənim Mir Cabbarımla süd qardaşı olsun,—deyə ana yaxasının qızıl düymələrini açdı.

— Çox mübarək, əlində-ovcunda qalsın.

— Tez babaya muştuluğa qaçın!

O yanda isə dayə Leyli Mir Cabbarı atıb-tutur, şirin dillə oxşayırdı: «Ay allah, mınnan üş dənə ver, göydə gedən quşdara ver, çaladakı gomuşdara ver, dərdindən ölmüşdərə ver, tamarzı qalmışdara ver».

Zahının zə’fəran çəkilmiş kimi sarı üzündə xəfif təbəssüm sezilirdi.

Aydın bir bahar axşamı idi. Xurşidbanu Natəvan və Fatma xanım Kəminə bağarası cığırla gölçəyə döğru enirdilər. «Məclisi-üns»ün növbəti yığıncaqlarından -biri indicə qurtarmışdı. Natəvanın:

«Olmuşam dəhri-bəla içrə bu gün divanə mən.

Varmadım meyxanəyə, sındırmadım peymanə mən».

beytilə başlayan qəzəli bu gün birinci dəfə oxunmuş və məclisin üzvü olan şairlər bədahətən ona nəzirələr deməyə sə’y etmiş, sonra da yazacaqları nəzirəni gələcək növbəti yığıncaqda oxumağı qərarlaşdırmışdılar. Bu gün Natəvan öz qonaqlarını üzərində darçınla hər qonağın özünə məxsus müxtəlif beytlər yazılmış firniyə qonaq etmişdi.

Kəştazlı Haşım ilə Hacı Hüsü məşhur tarzən Sadığın çaldığı e'cazkar şur təranələri altında Natəvanın yazdığı son qəzəli oxumuş, bülbülləri gəlb etmək üçün bəhsə girmişdilər. Deyirlər ki, buna yalnız Hacı Hüsü nail olmuş, o qədər yanıqlı oxumuşdu ki, bağda ötən boz bülbüllər məclisin cəm olduğu fındıqlıq deyilən yerdəki ağaclara toplaşmış, xanəndənin gözəl səsi, tarın incə nəvaları ilə həmahəng oxuşmuşdular.

Fatma xanım Kəminə bu gün «Məclisi-üns»ə qonaq gəlmiş və Natəvanın «Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı» mətlə’li qəzəlinə yazdığı nəzirəsini oxumuşdu:

«Nə Çin olaydı, nə xaqan, nə Rumü Qeysər olaydı Tamam yer üzü bir qəmzənə müsəxxər olaydı».

«Məclisi-üns»ün üzvləri Kəminənin nəzirəsini böyük rəğbət hissi ilə qarşılamış, hər iki şairəni alqışlamışdı. Bundan sonra bütün şairlər özlərinin eyni rədifli nəzirələrini oxumuşdular.

İidi də Natəvan və Kəminə gölçəyə tərəf endikcə bu səslər və nəvalar onların qulağından getmir, Qarabağın bu iki incə şairəsinin qəlbində səslənirdi.

Onlar erkən çıxan ayın parlaq şüaları altında balıq pulu təkin bərq vuran suya dinməzcə baxırdılar.

Gölçənin kənarında, qayığın yanında durmuş oğlan hər iki şairəni gülər üzlə salamladı:

— Qayıq hazırdır,—dedi.

Oğlanın hələ lap uşaq üzü kimi mə’sum və sevimli üzü, çərkəzi paltarı, hündür papağı vardı. Belinə qəmə bağlamışdı. Natəvan onun uca boyuna baxdıqca qəlbi fərəhlə dolurdu: «Elə belə bir bahar axşamı idi. Qoca seyid imarətə pənah gətirdi. Elə bil dünəndi. İndi isə Mir Yəhya boyum bərabəri cavan olub»,—deyə düşyndü və heç kəsi görməyirmiş kimi baxışlarını bir nöqtəyə zilləyib durdu; nazik dodaqları pıçıldadı:

**Əzizim, sən cavan ol, mən qocaldım,**

**Yıxıldı qəm yükü, altında qaldım,**

**Va leykin şö’ləndim, tez qaraldım...**

Şairə duruxdu, rübainin son misrasını Kəminə tamamladı:

— Qocalsın qoy zəmanə, sən qocalma...

Natəvan güldü:— Gəl, gəl Mirzə[1]—dedi.—Gəl gəncliyin sürdüyü qayığa minək.

---

[1] Şuşada Fatma xanım Kəminəni çox vaxt hörmətlə «Mirzə Fatma xanım» adlandırırdılar ki, bu da onun bilikli və savadlı olduğunu göstərirdi.



## CEHİZSİZ QIZ

**Qarabağdan bağ olmaz,**

**Qara salxım ağ olmaz,**

**Qonşuda qız sevənin**

**Ürəyində yağ olmaz.**

## Aylı gecədə

Şairə bağa çıxanda gecə süd kimi aydın idi. Bədirlənmiş ay, gecənin qara örtüyünü yırtaraq gölçənin ayna sinəsinə düşmüş əksini məftunluqla seyredirdi. Natəvan gecənin sükutunu ürkütməkdən, bağçanın nəğməkarı quşları yuxudan oyatmaqdan qorxurmuş kimi ayağını torpağa yavaş-yavaş qoyurdu. Onu gölçənin kənarına çatanda dayanmağa məcbur edən də elə bu gözəllik idi.

Çalxanan su elə bil ona kainatın hələ yatmadığını, oyaq olduğunu xəbər verir, şairənin də dodaqları tərpənir, şe’r deyirdi. Onun yeganə həmdəmi olan ay indi artıq gölçənin güzgü parçası kimi parlaq səthin də cilvələnirdi.

Axşamdan bəri o, təzə başladığı qəzəlin son beytini, məqtəini bitirə bilmir, dönə-dönə yaradırdısa da, düzdüyündən narazı qalırdı. Bu natamam qəzəl Natəvanı gecənin mübhəm gözəlliyini seyrə çəkmişdi. Nə qədər ki, qəzəl bişəmişdi, o, yata bilməyəcəkdi. Birdən bəyim nə isə bir səs eşidib diksindi. Sanki quru budağ çatırdadı, başını qaldırıb zənn ilə baxdı, sıx ağacların arasında iki kölgə göründü. Bəyim gizlənməyə çalışan o iki gənci tanıdı. Qəlbində şəfqət hissi ilə qarışıq nakam bir məhəbbətin qaysaqlanmış yarası sızıldadı.

— Ah, bahar... bahar...—deyə pıçıldadı.

Gənclər qeyb oldular. Natəvan onların ardınca baxıb ana şəfqəti ilə pıçıldadı:

— Xoşbəxt olun.

Bəyimin gözləri yol çəkdi, dodaqları isə pıÇILdadı:

Deyirlər dərdi-eşqin adəm öldürməz, dürüstdur bu Və lakin əmr elər, mən kimi zari-Natəvan eylər.

Qəzəlin məqtəi bitdi, bəyim sükut içində nə isə qət edib evə qayıtdı.

## Məhəbbət

Səhərin gözü yenicə açılmışdı. Bağbank oğlu Rəşid ağacların dibini belləyirdi. Təzə-təzə oyanmağa başlayan torpağın ılıq

buxarla qalxan nəfəsi, quru budaqlardakı incə, bozumtul tumurcuqların zərif rayihəsinə qarışıb onun burnunu qıçıqlandırırdı. Lap uşaqlıq illərindən duyduğu bu rayihəni o, ciyərinə çəkir, sinə dolusu nəfəs alır, ürəyi həyəcanla döyünürdü.

Rəşid düşünürdü, onun xəyalları da baharın özü kimi təzə və gözəl bir qız haqqında idi.

Həmayilqonçanın nəvəsi Dilara çox gözəl qızdır. Qocalar, nənənin yaşıdları onu görəndə deyirdilər ki, lap elə bil Həmayilin cavanlığıdır.

Qızın ox kimi düz qamətini daha da uzun göstərən qarğı saçları, yumru çənəsi, al yanaqları, yorğun maral gözlərini xatırladan süzgün badamı gözləri çoxdan idi ki, Rəşidin könlünü ovlamışdı. Rəşid həsrət-həsrət qızın dalınca baxır. mis güyümü çiyninə salıb sol böyründən arxaya itələyərək, azacıq sağa meyl edib yeriyən Dilaraya qovuşmaq həsrətini çəkirdi. Rəşid bu sevdiyi qıza elçi də göndərə bilmirdi. Aradabərədə söz gəzirdi ki, Həmayilqonça gələn elçiləri boş qaytarır, «Qızın başı bağlıdır»—deyirdi. Amma bilənlər danışırdılar ki, qarı nəvəsinin ixtiyarını Xan qızına verib. Axı, Xan qızı onun xətrini çox istəyir, vaxtilə dayəsi—süd anası olan bu qarını unutmur, vaxtaşırı kimsəsiz qalmış qarıya kömək edir, onu hörmətlə «nənə» deyə səsləyir. Rəşid indi bağı bellədikcə bunu düşünürdü. Məgər o, Natəvana ağız aça bilər, məgər o, Xan qızından qız istəyə bilərdi? Yaxşı deyiblər: «Dəvəçiynən dost olanın darvazası gen gərək», Dilaranı alan Xan qızıyla qohum olur. Rəşiddə elə güc hardaydı ki, xan qapısına gedə, Xan qızından qız istəyə. Qəm buludları ürəyinə kölgə salır, Kirs dağını bürüyən duman kimi üstünü alır, ona baharın gözəlliyini də unutdururdu.

— Allah qüvvət versin, oğul!

— Xoş gəldin!—deyə Rəşid başını hörmətlə əydi. Sonra gözlərini qaldırmadan Natəvanın maraqla onun işi tamaşa etdiyini duydu.

— Nə fikirlisən, oğul?

— Heç, bəyim.

— Yox, görürəm Rəşid, məndən gizlətmə, sən ki mənim qoca bağbanımın yadigarısan. Rəhmətlik atan son nəfəsində də səni mənə tapşırıb.

Rəşid qəlbinin çırpıntısı eşidilməsin deyə, belin ağzını yerə sancıb sapını sinəsinə dayadı; gözlərini yerə dikdi, uzun kirpikləri qarayanız yanaqları üzərində yelpazə kimi açıldı. Natəvanın nəzərləri gəncin mə’yus üzünə zillənmişdi. O, gəncin qəlbindən keçənləri başa düşürdü. Dünən kölgəli ağacların arasında səssiz bir xəyal kimi qeyb olan Rəşidlə Dilaranı bəyim tanımışdı.

Natəvan azad, ülvi bir eşqin əsiri olan şair qəlbi ilə gənclərin pak məhəbbətini duyurdu. Özünə, taleyinə nəsib olmayan məhəbbət! Şairənin dodaqları ixtiyarsız olaraq yeni qəzəl pıçıldayırdı:

Naqənin varmı şüuru bula aşiq kuyin?

Onu Məcnuna tərəf cəzbeyi-Leyla gətirir.

— Dilara gözəl qızdır, Rəşid, eşqin sənə halal olsun.

O, böyük ana—şair qəlbi ilə gəncin ürəyindən keçənləri üzündən oxuyurdu. Dağ laləsi kimi üzü alışıb yanan Rəşidin başı köksünə düşdü. Bəyim isə deyirdi:

— Heç bilirsənmi Dilarə nə deməkdir? Ona bu adı mən qoymuşam. Dil-ara ürək bəzəyi deməkdir. Qız adına, ad da qıza layiqdir. Bəs nə üçün elçi göndərmirsən? Utanma, de!

Rəşid dinə bilmədi.

— De, de utanma, mən hər ikinizə ana yerindəyəm.

Rəşidin səsi güclə eşidildi:

— Deyirlər bütün elçiləri əliboş qaytarırlar.

Bəyim gülümsədi. Xəfif təbəssüm onun məhzun çöh-

rəsinə sevimli bir ifadə verdi. O, mehriban gözləri ilə utancaq gənci süzərək dedi:

— Eybi yoxdur, sənin elçin mən özüm olaram.

Rəşid özünü elə itirdi ki, təşəkkür etməyi də unutdu.

Natəvan isə təşəkkür gözləmədən ağacların arası ilə uzanan dar cığırla gedirdi. Qara paltarında bir az da nazik, bir az da bəstəboy, bir az da xəyal kimi...

## Elçi

Həmayilqonçaya «Səni bəyim çağırır» dedikdə nəsə duymuşdu. Qarı tərtəmiz yuyunub-bəzənmiş, köhnədən qalma yaxası zərli kimxa kürdüsünü geymiş. qara kəlağayısını cutqunun üstündən boynuna sarımış və ucunu gətirib çənəsinin altında bənd etmişdi. Kasıb olmasına baxmayaraq Həmayilqonça olduqca təmizkardı. Köhnəni təzə əvəzinə geyməyi bacarırdı. Elə bu təmizkarlığına görə də vaxtilə xan qızını əmizdirməyi ona tapşırmışdılar. Həmayilqonça Natəvanın süd anası—dayəsi idi. Uşaq süddən ayrılandan sonra da, süd anasını körpələrə məxsus bir məhəbbətlə sevmişdi. İndi qarı, xanlığa doğru irəlilədikcə düşünür, ürəyinə min fikir gəlirdi.

Səmişin bədbəxtliyindən sonra Həmayilqonça meylini sonbeşiyi Seymura salmışdı. Seymur ərsəyə gələn kimi arvad onu evləndirmiş, elə evləndirdiyinin birinci ilində oğlan təzə gəlini evdə hamilə qoyub Qarabağ atlılarıyla birlikdə Osmanlı davasına getmiş və qayıtmamışdı. Gözünün ağı-qarası bircə oğlu öldükdən, gəlini də dədəsi evinə çıxıb getdikdən sonra o, körpə nəvəsi ilə qalmışdı. Oğlu sağ ikən dul Həmayilin əli bir parça minnətsiz çörəyə çatmışdı. Oğlu onu zəhmətdən qurtarmışdı. Gözünün ilk oxu, nəvəsi dünyaya gələndə də bəyim onlara gözaydınlığı verməyə gəlmiş, uşağın bələyinə bir qızıl beşlik sancmış «Adını Dilara qoydum, nənə, yaşını allah versin» demişdi. Sonralar... Eh, daha nə sonralar... İndi qızın ərlik vaxtıdır. Qapıdan elçi əskik olmur. «Bir gedir, biri gəlir. Kimə verim? Necə verim? Evdən blr dəst yorğan-döşək düzəltməyə də gücüm çatmayacaq. Varlı evinə versəm, cehizsizliyini başına çaxacaqlar. Kasıba versəm, günü-ruzigarı özüm kimi dar keçəcək. Neyləyim, ay allah? Çölə çıxanda gül kimi tərtəmiz çıxır, köhnə paltarını da elə təmiz yuyub səliqəynən hamarlayır ki, elə bil indi dərzidən gəlib. Daha bilən yoxdur ki, şapalaqnan üz qızardırıq».

Həmayilqonçanın uzun fikir və qayğıları imarətin pilləkənindən çıxanda da qurtarmamışdı. Qarı eyvana çıxanda Natəvan döşəkcə üstündə oturub, mütəkkəyə dirsəklənmiş halda nə isə yazırdı. Dayə, Xurşidbanunun xasiyyətinə bələd olduğundan səsini də çıxartmadı, onun rəvan təbini pozmaq, yazmaqda olduğu şe’ri yarımçıq kəsmək istəmədi. Səssizcə qapı yanında sərilmiş döşəkcələrdən birinin üstündə oturdu.

Natəvan əlindəki qəzəlin son beytini bitirib, xırdaca mizin üstünə qoydu, başını qaldırıb dilləidi:

— Nənə?! Boy, orada nə üçün əyləşmisən? Yaxına gəl, xoş gəlib, səfa gətirmisən.

— Sağ ol, xoş günün olsun, bala.

— Bağışla, nənə, gərək özüm yanına gələ idim, bu sabah özümü ayaza vermişəm, bir az kefim yoxdur.

— Allah əsirgəsin, bala, ədva çayı iç, gözümün işıqı, qızışdırsın səni, dərdin-bəlan rəf olub gedər.

— Baş üstə. Nənə, sənə bir işim düşüb, axı...

— Buyur, bəyim.

— Nənə, mən bilmək istəyirəm ki, sən nə əcəb Dilaranı vermirsən? Eşidirəm ki, istəyəni də çoxdur...

— Görünür qismət deyil,—deyə qarı ağır-ağır dilləndi. Ürəyindən isə başqa bir fikir keçdi: «Axı, necə deyim ki, cehizi yoxdu? Birdən ürəyinə gələr ki, ondan cehiz istəyirəm. Onsuz da mənə çox əl tutub».—Bir də

ki, onun ixtiyarı səndədir, bəyim, kimi bəyənirsən, ona da ver.

Xurşidbanu anasından nə isə istəyən uşaq ərki ilə dedi:

— Nənə, gəl belə razılaşaq: Dilaranın cehizi məndən, amma toya razılıq vermək səndən, çünki mən indi sənə elçiyəm.

Həmayilqonçanın ağ üzü qızardı, ürəyi döyündü.

— Sən bilən məsləhətdi, bəyim,—dedi.

— Yox, bu olmadı, nənə. Dilaranı bağban oğlu Rəşid üçün istəyirəm, nə deyirsən?

Qarı Qarabağda söz arasında «Mənim elçim Xan qızı olub» deyə fəxr edən gəlinlər içərisində Dilaranın da həyadan qızarmış üzünü görər kimi oldu.

Rəşidin adını eşidincə düşündü: «Lap ürəyimdən oldu, həm tay-tuşumuzdu, həm ağıllı, zəhmətsevən oğlandı, özü də deyəsən bir-birində gözləri var».

Sükut uzun sürmədi. Həmayilqonça başın qaldırıb, iki sevən gənci bir-birinə qovuşdurmaq arzusu ilə intizar içində cavab gözləyən şairənin mehriban üzünə baxdı:

— Nə deyirəm ki, allah xeyir versin,—dedi.

Şairənin üzü güldü. İncə cizgilərə malik olan gö-

zəl siması canlandı, sevinclə dedi:

— Sağ ol, nənə, savab iş gördün.—O elə sevinirdi ki, sanki öz bəxtiyarlığına qovuşmuş, öz səadəti üçün razılıq almışdı.

Toy da oldu, kasıbyana keçməsinə baxmayaraq, bütün toylar kimi sevinc içində, şadlıq içində keçdi. Xan qızı söz verdiyi kimi, Dilaraya yaxşı cehiz düzəltmişdi, toya da yaxından köməklik etmişdi. Hamı Xan qızı Xurşidbanunun Dilaraya cehiz verdiyi yorğan-deşəyin bahalı üz-astarına, qiymətli qabların zərifliyinə baxıb heyrətlənir, «yetimin əlinin aşa çatmasına» sevinənlər olduğu kimi, dodaq büzüb: «Bir boyun taxtın oluncan, bir balaca baxtın olsun» deyənlər də tapılırdı.

Lakin Dilara ilə Rəşid üçün bu qiymətli hədiyyələrin təkcə bircəciyi—üstü zər işləməli daraqqabı hər şeydən əziz, hər şeydən qiymətli idi; çünki al məxmər üzərinə güləbətin sapla çəkilmiş bu butaları böyük şairə öz əli ilə tikmiş, Dilaranın gözəl saçları üçün içinə bir daraq da qoyub demişdi:

**Səba zülfün nəsimin kər aparsa vadiyn-Çinə,**

**Xütən Səhrasını mişkin edib, ənbərfəşan eylər.**



## VERGİ

**Bu dağlar ərən dağlar,**

**Gülü yox dərəm dağlar,**

**Belə dərdlər əlindən**

**Ürəyim vərəm bağlar.**

Natəvan, ailə üzvləri arasında «Gül dəftəri» adı verilmiş albomunu qarşısına qoyub bir az bundan əvvəl seyr etdiyi şairənə mənzərələrin rəsmini canlandırmağa çalışırdı. Mənzərə doğrudan da cazibədar idi. Günəşin sanki çox az in’ikas etdiyi bu hicra güşədə qayalar sərt bir şəkildə kəsilmiş, sıldırımlarında qaranlıq yarğanlar əmələ gəlmişdi. Qayalardan birinin üstündə kiminsə, nə zamansa əkdiyi salxım söyüdün saçaqları sıldırım qaya altından axan arxa sallanmışdı. Şairə bu tənha söyüdə, onun salxım-salxım uzanan saçaqlarıia baxdıqca vaxtilə dayəsi

Həmayilqonçanın nağıl etdiyi bir əfsanəni xatırladı: «Salxım söyüd yetim bir qız imiş, ögey anası onu çox incidərmiş. Qızcığaz hər səhər öz dərdini arxın durğun sularına danışıb ağlar və analığından şikayət edərmiş. Bir gün də zalım analıq, onun dalınca çığıra-çığıra arxa sarı gəlir. Qız qorxusundan quruyub ağaca dönür, qolları şax-budağlara çevrilir, saçları isə salxım-salxım suyun üzünə tökülür».

Həmayilqonçanın nağılı şair və rəssam olan Natəvanın xatirəsində canlandıqca əlindəki sivri uclu yumşaq qara karandaş incə cizkilər cızırdı.

Albomun cildini bəyim öz əli ilə tikmiş, üzərinə də salxım söyüd rəsmi salmış, böyründən al-əlvan saplarla 1886 rəqəmini yazmışdı.

Birdən bayırda hay-küy qopdu, Natəvan albomu mütəkkənin üstünə qoyub ayağa durdu. Xan qızı saçaqlı örtüyünü başına salıb, pəncərəni açdı:

— Əli,—deyə darvazadan içəri girən nökəri səslədi,—nə hay-küydür?!

— Heç, ay bəyim, piristo deyəsən Avanes kirvəni döydürür.

— Niyə-ə?

— Bilmirəm, başına dönüm.

Meydana xeyli adam toplaşmışdı. Natəvan diqqətlə o tərəfə baxdı, gördüyü səhnə həssas ürəyini titrətdi; meydanın ortasında pristav Nəzərəli kimi isə şallaqla döydürürdü. Döyülən adam üzüqoylu yerə yıxıldığından bəyim onun kim olduğunu ayırd edə bilmədi. Döyülən adam fəryad edib deyirdi:

— Pristav ağa, döymə, vallah-billah, məzhəb haqqı pulum yoxdu. Özün gördün ki... vay... evdə də bir şey yoxdur ki, satım

verim... Döymə, yoxumdu, vallah, balalarım acından ölür, mən pulu haradan tapım?

Natəvan məsələni anladı, pəncərədən ayrılıb, qovşu otağa açılan qapıya sarı getdi. Burada oğlu gənc şair Mehdiqulu xan Vəfa dəyirmi miz arxasında oturmuş, özü kimi hərbi geyimdə olan bir gənclə şahmat oynayırdı. Natəvan içəri girəndə Vəfa vaxtilə məşhur fransız yazıçısı Aleksandr Dümanın knyaz Xasay bəy Usmiyevə bağışladığı fil sümüyündən düzəldilmiş şahmat fiqurlarından birini əlinə alıb fikirləşirdi.

— Mehdi can!

Gənc Vəfa anasının səsində nə isə xəfif bir titrəyiş duyub sarışın başını qaldırdı və gözlərini anasının üzünə zillədi, sanki bu baxışlar: «Nəcib ürəyini ağrıdan nədir, ana can?»—deyə soruşdu.

— Mehdi can, dur bir çölə çıx, gör pristav, Avanes kirvəni nə üçün döydürür? Ciddi bir şeydirsə, hər ikisini yanıma gətirt.

— Baş üstə, ana can!—deyə gənc əlindəki fiqiru taxtanın üstündəki damalardan biriiə qoydu və qeyriiradi səsləndi:

— Mat!..

Natəvan həyətə endikdə Mehdiqulu artıq pristavı, yasavulları və Avanes kirvəni həyətə gətirtmişdi.

Avanes kirvə yasavulların qolundan tutmuşdu, güclə ayaq üstündə dururdu. Onun üz-gözü toza bulaşmışdı, dodaqlarından qan sızırdı. Yamaqlı köhnə çuxası bir neçə yerdən cırılmışdı. Başına bağladığı bozarmış qara yaylığının altından çal saçları görünürdü. Avakes kirvənin, çuxura düşmüş gözlərinin üstündəki qalın qaşlarına da dən düşmüşdü.

Həyətə doluşmuş adamlar Xan qızının hökumət pristavına nə deyəcəyini, Avanes kirvəyə nə ilə kömək edəcəyini gözləyirdilər.

Bu arada xırdaca bir qız darvazadan içəri soxuldu, gen donunun balağı ayağına dolaşa-dolaşa yüyürüb adamlara yaxınlaşdı. Pristavın aralı qoyduğu uzunboğaz çəkməli ayaqlarının arasından keçib, özünü Avanes kirvənin üstünə atdı:

— Baba!..—deyə onun zəiflikdən titrəyən qıçlarına sarıldı.

Natəvan yaxındaşdıqca camaat sükut içində aralanır, odlu bir qəzəb, həzin bir kədər heykəli kimi irəliləyən bu mehriban insana, həssas şairəyə yol verirdi. Bəyim canlı hasar içərisindən keçdikcə sanki vuran ürəklərin döyüntüsünü eşidirdi. Avanes kirvə Xan qızını çoxdan tanıyırdı; həmişə nökər-naibi üçün çarıq, çust tikdiyi Natəvanı görüncə sel kimi axmağa başlayan göz yaşını saxlaya bilmədi, bir əli ilə nəvəsini kənara itələyib diz üstə çökdü:

— Sənə qurban olum, bəyim...

Natəvan elə bil ki, sıxılan qəlbinin fəryadını eşitməsinlər deyə, dodaqlarını bərk sıxmışdı. Qaşları çatılmış halda cür’ətlə irəliləyirdi. Qocaya yaxınlaşıb əyildi, əlini uzadıb kişinin qollarından tutdu, qaldırdı:

— Qalx, qalx, Avanes kirvə, pristav səni nə üçün döydürürdü?

Qocanın qəlbində ümid çırağı yansa da hıçqırıqlarını saxlaya bilmirdi. Hər şeydən çox camaatın və balaca nəvəsinin qarşısında ağladığından utanırdı. Nəhayət, güclə özünü ələ alıb dedi:

—Başına dönüm, bəyim, vergim var, verə bilmirəm. Ağa pristava nə qədər and içib yalvarıram, inanmır, məni döyur. Sənə qurban olum, məni bunun əlindən qurtar. Məzhəb haqqı pulum yoxdur. Pristav ağa özü də evimi, güzəranımı görüb bilir. Balalarım acından qırılır, vallah, pulum yoxdur, mənə rənm elə, bəyim, Mehdiqulu ağanın başına çevir, deginən möhlət versin... verərə....

Natəvan qəmli gözlərinn pristava tərəf çevirdikdə ondan azacıq aralıda duran Mehdiqulu diksindi, şairənin üzündə, şimşək çaxan baxışlarında elə bir ifadə var idi ki, Mehdiqulu onun indicə pristavı vuracağını zənn etdi, cəld anasına yaxınlaşıb çiyni bərabərində durdu. Acığından nəfəsi tutulan Xan qızı dedi:

— Ə pristav, bu kişini burax getsin!

Pristav Nəzərəli isə qara şeşə bığlarının onsuz da sivri uclarını yuxarı burmaqla məşğul idi. Xan qızının ona müraciət etdiyini görüncə cəld baş əydi:

— Bağışla, bəyim, bunu eləyə bilməyəcəyəm,—dsdi.

— Niyə?

— Hökumətə borcu var, versin!

— Verə bilmir, axı!

— Canı çıxsın, onda yasavulxanada yatacaq, erməni dığasıdı, heç nə olmaz ona. Ay bəyim, vallah, səni nahaq narahat eləyiblar,—deyə yersiz hırıldadı.

Qan Xurşidbanunun başına vurdu; bir anlıq nə deyəcəyini unudub durdu. Onun sükutunu razılıq əlaməti hesab edən pristav Nəzərəli, Avanes kirvəni aparmaq üçün yasavullara işarə etmək istəyirdi ki, canına lərzə salan qorxunc bir səs eşitdi:

— Dayan, biqeyrət kişi! Bu balaca uşağın yanında bir insanın mənliyini qırmaq sənə baha oturacaq. Nəvənin yanında necə də ürəyin gəldi babanı döydürüb alçaltdın? Dayan, bihəya!

— Bəyim, bu sözlər yaxşı deyil, mən əmr quluyam...

...Lakin artıq gec idi Xan qızının işarəsi ilə

nökərlər və yığılan camaat pristavla yasavulları yerə yıxıb döyürdü.

Eyvanda isə qəzəbi soyumuş Natəvan əyləşmişdi, Gülzamanın təmiz paltar geyindirdiyi ballaca qızı qucağında oturtmuşdu. Qızcığaz bəyimdən aldığı şirinləri yeyir, qara gözləri ilə altdan-yuxarı bu mehriban xalaya baxırdı; o, hətta cici paltarına sevinməyi belə unutmuşdu.

— Qızım, adın nədi?

— Hayqanuş.

— Sən kimin qızısan?

— Babamın.

Aralıda diz çökmüş Avanes kirvə minnətdarlıqla deyirdi:

— Qurbanın olum, bəyim, bu mənim bədbəxt Anuşumun yadigarıdır. Bəlkə eşidərsən, üç il bundan əvvəl havalanıb özünu qayadan atmışdı.

— Eşitmişəm, kirvə, sən fikir eləmə, sabah naçalniki çağırtdırıb borcunu özüm verrəm.—Sonra da Gülzamanın gətirib onun qarşısına qoyduğu boğçaya işarə ilə sözünə davam etdi:

— Bu isə sənin balaların üçündür. Blr az yavanlıq, bir az da xərclik. Sonra yenə nə lazım olsa, gəlib deyərsən.

— Baş üstə, bəyim, allah bağışlasın, allah səni bizə çox görməsin, əməyin yelə, diləyin selə getməsin, izin ver, mürəxxəs olaq.

— Gedii, allah amanında.

Natəvan qızı öpüb yola saldı və otağına qayıtdı. Taxtın üstündə açıq qalmış alboma nəzər saldı, çəkdiyi tənha söyüd rəsminə baxdı.. baxdı... Öz-özünə məzəmmətlə: «Qəribədir, bütün bir xalq zülm altında inləyirkən, mən də zalım ögey ana əlində məhv olan bir qızı düşünürəm» dedi.



## AĞDAM YOLUNDA

**Ay doğdu qəlbiləndi,**

**Gün doğdu qəlbiləndi,**

**Quran gəti, əl basım,**

**Bu qəlb o qəlbləndi.**

Payızın ortaları idi. Başı dumanlı dağların zirvəsi getdikcə daha çox ağarır, əsən payız yeli sərinləşir, sərtləşirdi.

Xırmanlarda taxıl döyən kəndlilər tələsir, tayalar kiçilir, dərzlər tökülüb açılır, sarı sünbüllər vəl altında xırpıltıyla əzilir, pardaqlanmış taxta şanalarla sovruq atılır, xırman ortasında qızıl buğdadan ənbiz vurulurdu. Bağlardan da meyvələr yığılıb qurtarmaqda idi. Amansız külək ağacların saçını yolub tökdükcə, arxların kənarı qızılı xəzəllə dolurdu.

Quru şaxələrini civə kimi tutqun-boz göylərə uzadıb, «aman» deyən ağaclara baxanda, şairənin qəlbində sonsuz bir təəssüf hissi baş qaldırırdı. Natəvan addımladıqca xəzəl ayaqları altında xışıldayır, corabına, tumanının ətəklərinə ilişirdi. O hərdən ayaq saxlayır, küləyin şıltaq oyunu ilə üzünə dəyən bir xəzəli tutur, yarpağı küləyin səmtinə buraxırdı.

Həmişə belə idi, payızda çox qəmlənər, baharda dirçələrdi. Yaz aşiqi idi, bahara məftundu, təbiətin oyanma mövsümünü daima xüsusi bir həsrət, sonsuz bir intizarla gözlərdi. Payız və qış ayları şairənin iztirab, hicran ayları idi. Bunu əqrəbası da, dostları da bilirdi. Qışı aranda keçirən çobanlar, ilk bahar günlərində çomaqlarının başı ilə eşib, ilk novruzgülünü tapmaq istər, böyük şairəyə, sevimli bəyimə bahar müjdəsini birinci gətirməyə çalışardılar.

İndi isə payız idi. Payız...

**Gəzirdim 6ağü səhranı, pərişan halilə gördüm;**

**Dəyib badi-xəzan sərvə qurumuş, bağiban ağlar.**

Bayaqdan bəri qəlbində qəmli bir nəqərat kimi səslənən bu beyt, Natəvanı yeni qəzəl yazmağa çağırır, ilhamı da qəlbi kimi solan bahara, gələn payıza ağlayırdı.

Şairə bağdan evə qayıtdı. Pillələrlə yuxarı çıxıb otağına keçdi. Yumşaq xalılar, sumaxlar döşənmiş geniş otağın yuxarı başındakı taxta yanaşdı; pərqu döşəklərin üstündə əyləşdi, tirmə mütəkkəyə dirsəkləndi, başı üçündakı miznin üzərindən kağız, qələmdandan qələm aldı, yazdı, yazdı...

Qəzəl bitdikdə şairə başını qaldırıb xidmətçisi Gülazmanı gördü. Gənc qızın yaraşıqlı siması, gülümsər dodaqları, soyulmuş badam içini xatırladan dişləri, gülərkən yanaqlarında əmələ gələn çuxur şairənin üzünə sanki, qəlbindəki payız sızıltılarını ovudan əfsun çilədi. Bəyim qeyri-ixtiyari gülümsədi:

— Nə var, Gülzaman?

— Fayton hazırdı, bəyim.

— Hansı fayton?

— Boy, başıma xeyir, genə yadından çıxıb, ay bəyim? Səhər gədəyə demədin ki, faytonu qoş, Ağdama gedəjəm?

— Hə...

— Hər şeyi sərbirah eləmişəm, dərdin alım.

Xurşidbanu qalxdı, Gülzamanın ona təqdim etdiyi

yaxası xəzli, tirmə kürdünü əyniiə geydi. Uzun saçaqlı, qara yun şalını başına örtüb, həyətə çıxdı...

Fayton dolanbac dağ yolları ilə üzüaşağı gedirdi. Ağdama endikcə payızın soyuq nəfəsi daha çox duyulurdu. Ətraf kəndlərdə artıq məhsul çoxdan yığılıb qurtarmış, toylar başlamışdı.

Fayton kəndlərin yanından keçdikcə çalğı səsi, mahnı səsi artırdı. Natəvan «payızı gözəlləşdirən də bircə budur»—deyə düşündü.

Birdən acı bir fəryad şairəni xəyaldan ayırdı. O, tez faytonu saxlatdırdı...

Qızlar gülüşə-gülüşə bulaqdan qayıdırdılar. Çoxu nişanlı qız idi, aralarında payızı həsrətlə gözləyənlər də vardı. Axı, payız ən qədim zamanlardan bəri toy ayı hesab olunur. Məhz bu aylarda məhsul yığılıb qurtardığından, çuvalında az-çox un, kisəsində bir qədər pul görən ailə başçıları oğul-uşağa yalavaclıq almağa,

gənclərin gözünü bayırdan yığışdırmağa, necə deyərlər «baş-göz eləməyə» çalışırlar.

İndi bulaq başından qayıdan qızların arasında istəmədikləri halda zorla ərə verilənlər olduğu kimi, Sərvnaz təki bəxtəvərlər də vardı. Sərvnaz kəndin dəmirçisi Məmməd kişinin təkcə qızı idi; Seyidlidə hamı ona «bircə qız» deyərdi. Ata-ananın yeməyə bar parça çörəyi vardı, evladdan isə kəm idilər. Qocalmasına baxmayaraq çəkiclə sindandan ayrılmayan Məmməd kişi bütün məhəbbətini bircə balasına salamışdı. Qız böyüdükcə gözəlləşir, ata-ana da ona baxdıqca fərəhlənirdi. Sərvnaz qızlar bulağından su içən kimi elçi karvanının başı açıldı. Seyidlidə, hətta qonşu kəndlərdə hampa kişilərin çoxunun oğlu qıza meyl göstərdi. Ancaq Məmməd kişi qızını heç kimə vermədi: «Bəylə aş yeyincə tay-tuşumla daş yeyərəm»—deyə qızı kəndin çobanı—yetim Əzizə nişanladı. Bütün dost-aşna onu danladısa da qulaq asmadı: «Kasıb olanda nə olar, yaxşı oğlandı, mənim də oğlum yoxdu, döşümə çəkərəm, bir övladım iki olar» dedi, hətta qızın bazarlığını da özü elədi.

İndi kənddə iki xoşbəxt adam vardısa, onlardan biri Sərvnaz, o birisi də Əziz idi. Əzizin gözəl Sərznazın eşqilə çaldığı tütəyin yanıqlı səsi, çağırdığı Qarabağ şikəstəsi mahalda məşhurdu. Elə indi də çoban Əziz, qoyunları bulaqdan bkr az aralı olan döşə yığıb gəraylı oxuyurdu; gəraylının sözləri gəncin böyük məhəbbətini, Sərvnaza olan sonsuz sədatətini: tərənnüm edirdi. Bu nəğmə deyildi, coşğun çay seli idi, şəlalə idi; sanki o, mahnısının bəstəsini incə bir şırıltıyla axan İsa bulağının səsindən, xəfif bahar yelinin sədalarından, dağ çaylarının qıjıltısından, quşların cəh-cəhindən almışdı:

**Qəbrimi qazarlar dərii.**

**Suyumu verərlər sərin,**

**Ay qız, sənin gül əllərin**

**Soluncan dönmərəm səndən.**

**Qəbrimi qazarlar qatı.**

**Üstünə bəzərlər atı,**

**Ta ki məhşər qiyamatı,**

**Olüncan dönmərəm səndən,**

**Qəbrimi qazarlar dayaz,**

**Sənlə danışmadım bir az,**

**Ala gözlüm, şux Sarvnaz,**

**Ölüncən dönmərəm səndən.**

Söz buraya gələnda qızlar bərkdən gülüşdülər, kim isə yaşıl tumanı, al köynəyi və kəlağayısı ilə qızılgülə bənzəyən Sərvnazın çiyninə vurub dedi:

— Ay bəxtəvər, adına gör nə qoşub ey...

— Mən sənin yerində olsaydım, bilirsən neynərdim...

— Neynərdin?— deyə başqa bir qız dilləidi.

— Eh— heç özüm də bilmirəm, ürəyim sevindiyindən partlardı.

— Ha-ha-ha... Elə bilirsən, onunku partlamır?..

Çobanın səsini diiləyən qızlardan biri dedi:

— Yavaş, qızlar, qoyun qulaq asaq...

Hamı kiridi, çoban isə cəh-cəh vurmaqda idi:

**Qəbrimi qazarlar naşı,**

**Əzizin könül sirdaşı,**

**Başım üsta qəbir daşı**

**Durunca dönmərəm səndən.**

Hamı heyrət içinda sükuta dalmış, böyük bir məhəbbətin tərcümanı olan bu sözləri qibtə ilə dinləyirdi.

Sərvnaz yaşmağı burnunun üstünə qaldırmış, al kəlağayısını qaşlarının üstünə çəkmiş, həyadan qızaran üzünü dostlarından gizlətmişdi, amma sevincdən qəlbi quş ürəyi kimi çırpınırdı.

Birdən qızların ətrafını bir dəstə atlı aldı. Onlar hamısı yaraqlı idi. Atlıların içərisindən biri, nisbətən orta yaşlı bir kişi sıyrılıb yəhərdən endi, canavar görmüş körpə quzu kimi bir-birinə qısılan qızları nəzərdən keçirdi, sonra əlini Sərvnazın çiyninə qoyub dedi:

— Malım, sən gedəcəksən!

Qızlar üstünə ley cummuş cur balaları kimi dağılışdılar, onlar hay-haray salmağa maçal tapmamış, orta yaşlı kişi çapalayıb müqavimət göstərməkdə olan Sarvnazın qollarını gənclərdən bir neçəsinin köməyi ilə sarıdı. Dəstə təzədən atlandı. Qolu bağlı qızı kişinii tərkinə qoydular. Sərvnaz özünü yəhərdən atır» çırpınırdı. Nəhayət, gənclər onu örkənlə kişinin tərkinə sarıdılar.

Atlılar aralanan kimi kəndə haray düşdü, əli silah tutan hadisə yerinə cumdu. Ən qabaqda gedənlər Əzizlə Məmməd kişi idi, lakin qız qaçıranlar çoxdan çapıb getmişdilər.

...Sərvnaz atın tərkində çapalamaqda davam edirdi. «Mənə rəhm eləyin, məni bədbəxt eləməyin, siz həzrət Abbas dədəmin adını batırmayın» deyib yalvarırdı. Onu yəhərdə aparan adam, təngə gəlib çımxırdı:

— Sus, küçük. Dədən gorbagor öz xoşuynan verəydi, biabır olmayaydı. Hacı Aslanın elçisini boş qaytarana bu da azdı!..

Sərvnaz isə hey çırpınır, arabir başını döndərib arxaya, doğma kəndlərinə baxır, nicat gözləyirdi.

Birdən qarşıdan çaparaq gələn bir fayton göründü. Sərvnaz döngədən çıxan faytonu dərhal tanıdı. Xan qızının faytonu idi. Atlılar Xan qızının faytounu görən kimi yoldan çıxıb tez yayınmağa tələsdilər. Bunu duyan Sərvnaz yanıqlı bir fəryad qopardı:

— Kömək eləyin!..

Natəvanın qəflətən eşidib diksindiyi səs Sərvnaznı çığırtısı idi. Şair faytonun yanınca gedən nökəri səslədi:

— Heydərəli, bu nə səsdi?

— Bəyim, qabaqda bir dostə yaraqlı atlı görünür, qız qaçırana oxşayırlar,—deyə Heydərəli əliii gözünün üstünə hayil edib cavab verdi.

— Hə...

İmdad çağıran səs bir də eşidilib qırıldı, sanki bağıranın boğazından tutdular. Xurşidbanunun qələmi qaşları çatıldı, üzü tutuldu, dedi:

— Heydərəli, çapi, atlıları saxla!

— Baş üstə, bəyim...

Heydərəli atını mahmızladı...

Fayton atlılara çatanda dəstə artıq piyadalanmış, ədəblə qollarını sinələrində çarpazlamış, başlarını aşağı dikib durmuşdular. Natəvan nisbətən yaşlı görünən kişiyə müraciətlə soruşdu:

— Ayə, sən şıxbabalı Hacı Aslanın oğlu deyilsən?

— Bəli, bəyim,—deyə kişn cavab verdi.

Xan qızı faytondan endi, yerdə qolu bağlı uzanan, saçları dağılmış, köynəyinin qolu üzülmüş Sərvnaza baxdı. Əyilib qızın dağınıq saçlarını alnından çəkdi, ürək ağrısı ilə Gülazmana dedi:

— Bunun qollarını aç!

Natəvanla birlikdə faytondan enən Gülzaman cəld qıza yanaşdı, qollarını açdı. O, hey deyinirdi:

— Boy, başıma xeyir, yazıq qızı nejə də qayım bağlayıblar..

Sərvnaz qalxdı, ağrıyan qolunu ovuşdurub cəld çarğatıkı örtdü, yaşmağını düzəltdi. Şairə, gözlərini qızın ağlamaqdan qızarmış üzünə dikib dedi:

— Yaxına gəl, qızım, hansı soydansan?

Qız hıçqıra-hıçqıra irəli gəldi, cəld bir hərəkətlə xanımın əlini tutub öpdü, göz yaşları içində dilləndi:

— Seyidlidənəm, başına dönüm, Dəmirçi Məmməd kişinin qızıyam.

— Bunlara haradan urcah olmusan, bala? Könlün varmı?

Sərvnaz «həyadan ölsəm də hamısını deyəçəyəm, allah Xan qızını mənə göydən yetirib, bəlkə rəhmi gəldi, məni bu zalımların əlindən qurtardı»—deyə qət etdi və ağlaya-ağlaya sözə başladı:

— Başına dəlanım, bəyim, məni bu zalımların əlindən qurtar. Dədəm məni öz soyumuzdan bir yetim oğlana nişanlayıb, başımda çarğatını, barmağımda üzüyünü gəzdirirəm, üç gündən sonra toyumuzdu. Bu gün qızlarnan bulağa su gətirməyə getmişdim, bu atlılar qəfildən üstümüzü alıb, məni zorla atın tərkinə bağladılar. Nə qədər yalvardım-yaxardım, and-aman elədim, qulaq vermədilər. Dədəmin-nənəmin adı biabır oldu. Ay bəyim, sən həzrət Abbas, məni bunların əlindən qurtar...

Hıçqırıq onu boğur, daha danışa bilmirdi. Natəvan sona qədər dinlədi, dinlədikcə də rəngi boğuldu, qaraldı. Uzun bir sükutdan sonra qəzəbdən yanan gözlərini Hacı Aslan oğlunun bozarmış üzünə zillədi, titrək dodaqları qımıldandı:

— Hacı Aslan oğlu, heç utanmırsan, heç qızarmırsan?! Nişanlı qızı zorla qaçırdan başına papaq qoyar? Bu heç sənin dədənin adına yayaşar? Çıxın gedin, bu qızdan da əl götürün! Mən özüm onu dədəsi evinə apararam, sizin cəzanızı isə özüm verərəm.

Sərvnaz ilan ağzından qurtarmış kimi sevinirdi.

Hacı Aslanın oğlanları könülsüz də olsa, içlərini amansız bir qəzəb gəmirsə də etiraz edə bilmədilər. Axı, qarşılarındakı hamının tanıdığı, hamının sevdiyi Xurşidbanu Natəvan idi. Onlar bilirdilər ki, Xan qızı çox zabitəli adamdır, zarafat xoşlamır. Odur ki, yekəpər kişi işi zarafata salmaq istədi:

— Bəyim, canın sağ olsun; məsəl var deyəllər: «Ağ dolağım sağ olsun, tapılmayan qız olsun». Bizə ağır gələn ayrı şey idi. Qurban olsun sənə. Biz də qardaşımıza tay taparıq...

Bəyim sözü uzatmadı, bircə bunu dedi:

— Allah xeyir versin!

Kişi bir də dilləndi:

— Mərd basdığın kəsməz. Keç günahımızdan, bəyim, bağışla bizi.

— Yaxşı, sağ olun. Gəlin atlandı, görən kimin qismətidi... Uğur olsun!

Bəyim sevincdən sifəti gül kimi açılmış Sərvnazı da faytona mindirtdi. Qız, Gülzamanın yanında yox, bəyimlə üzbəüz oturdu.

Faytonçu atları Seyidli yoluna döndərdi.

Hacı Aslanın oğlanları faytonun dalınca baxa-baxa qaldılar.

Seyidlidə toylar başlanmışdı. Bir gecə gün idi ki, evdən-evə keçən aşıq, bu gün də sevincdan ayağı yerə dəyməyən Dəmirçi Məmməd kişinin həyətində qurulmuş toyxanada çalıb-çağırırdı. Gəlin otağında xüsusi bir canlanma vardı. Buraya yığılan gəlinlər və qızlar yuxarı başda məxmər döşək üstündə arxasını nazbalışa söykəyib oturmuş Xan qızının dövrəsini almışdılar. Şairə bu gün öz əli ilə azad edib ataanasına, nişanlısına qaytardığı Sərvnazın toyunda iştirak edirdi. Onun toya gəlməsi istər Dəmirçi Məmmədi, istərsə də Əzizlə Sərvnazı həddən artıq sevindirmiş, ürəklərini minnətdarlıq hissi ilə doldurmuşdur.

Bu alda bahar bağçası kimi bəzədilmiş Sərvnazı içəri, şairənin qarşısına gətirdilər. Yengə dedi:

— Sən el anasısan, ona da nnjat verib istədiyinə qovuşdurmusan. Xeyir-dua ver, bəyim, ağrın alım...

«İstəyinə qovuşmaq» bu sözlər şairəni titrətdi: «axı, bu hamıya qismət olmur»,—deyə düşündü. O, qədim adətlə sağ əlini təzə gəlinin başına qoydu, sol əli ilə yengənin təqdim etdiyi nəlbəkidəki noğul-nabatı Sərvnazın başına səpələdi, daha sonra

cibindən çıxartdığı xırda pulları sovurdu. Kiçik qızlar gülüşərək pul və şirni yığmağa cumarkən, şairənin təmkinli və nəvazişkar səsi eşidildi:

— Get, bala hamımızın əvəzində xoşbəxt ol!



# XAN QIZI BULAĞI

**Su gəlir lülə-lülə.**

**Yar gəlir gülə-gülə.**

**Əlində ipək dəsmal**

**Qan-tərin silə-silə.**

## Su dərdi

Natəvan qıvrıla-qıvrıla dərəyə enən cığırız başında dayanıb bayaqdan bəri görünən qaraltıya bir də baxdı. Gələn suçu Arutyun idi. O, uzunqulağı qabağına qatıb yoxuşu üzüyuxarı qalxırdı. Arabir ulağın ayağı sürüşdükdə, suçu, Çomağı və çiyni ilə dayaq verir, ona kömək edirdi. Ulağın üstündən aşırılmış iri xurcunun hər gözündən bir cüt mis güyümün boğazı görünürdü. Güyümlərin paxırı çıxmış boğazının sarımtıl parıltısı göz

qamaşdırırdı. Güyümün ağzına bərkidilmiş tıxaclar islanmışdı, su loqquldayıb təkan vurduqca qapazlıqlar bir qədər də boşalır, su xurcundan sızıb ulağın böyürlərini isladır, arıq, nazik qıçlarından aşağı süzülürdü. Qoca suçunun yırtıq, boz patava üstündən geydiyi çarıqlar islanmışdı; Əynində dəvəyunu rəngində yamaqlı çuxa vardı, başına iri bir motal papaq qoymuşdu. Natəvana yaxınlaşdıqda qoca, ulağını saxladı. Ac heyvan fürsəti əldən verməyib ağzını yolun kənarlarına sürtə-sürtə otlamağa başladı. Qoca isə papağını çıxarıb bir tərəfi ilə alnının tərini sildi; qırxıq başına bağladığı çit yaylıq tərdən tamam islanmışdı.

— Salam əleyk, ay bəyim.

— Salam, Artun lələ! Necəsən?

Qoca qollarını yana açdı, çiyninn çəkib, çomağı yerə dayadı; sonra da hər iki əli ilə çomağı tutub durdu, çənəsini də əllərinə söykədi ki, bəlkə belinin ağrısı bir az toxdasın:

— Görürsən də, başığa dönüm, günümüz göy əsgiyə düyümlənib. Bircə bu su dərdindəl qurtarsaq, bir yeyib, beş sadağa verrik... Allah ömrünü uzun eləsin, balanı saxlasın, o gün un göndərmişdin. Uşaqların dar günündə dadına çatdı, quru qurtarıb, yaş yetişmeyib, sənə canım sadağa...

— Eybi yoxdur, lələ, nə lazım olsa de, uşaqlar gəlib aparsın,—deyə Natəvan qocanın sözünü kəsdi. O, minnətdarlıq şükranlarını dinləməyi xoşlamazdı.

— Eh... başığa dönüm, ay bəyim, bircə aşağı bax! Gör qız-gəlin nə kökdədi?

— Görürəm, Artun lələ, nə çarə edək?

— Düzdür, elnən gələn yas toy-bayramdı deyərlər. Amma belə toy-bayramı allah düşmana qismat eləsin. Nə olaydı, bu camahatı su dərdindən qurtaraydın, bəyim...

Natəvanın gözü cığıraşağı dərəyə zilləndp.

— Elə mən də onu fikirləşirəm, Artun lələ.

Qocanın bulanıq gözləri işıqlandı, bişmiş alma

kimi bürüşük sifəti açıldı:

— Allah balalarığa ömür versin, sən ki xalxın dərdinə qalırsan, görüm üzün ağ olsun, ay bəyim.

Qoca suçu dua edə-edə ondan ayrıldı. Yolun qırağına çıxıb otlayan uzunqulağa tərəf addımladı, ulağı yola qaytarıb bizlədi və şəhərə doğru yollandı.

Natəvan tək qaldı. Onun gözü dərədə idi. Ağaran ensiz cığırla dərədən üzüyuxarı qalxan qız-gəlini uzaqdan yaşıl köynək üstündən taxılmış rəngbərəng muncuqlar kimi elə bil sapa düzmüşdün. Əsasən kasıb ailədən olan gənc qızların çutqu üstündən başlarına bağladıqları al-yaşıl, ucuz kəlağayılar onları sonalara bənzədirdi. Gəlinlərin əksəri mis güyüm götürmüşdü; yaşca kiçik qızlar sarı, narıncı və qırmızımtıl sovça və səhənglərini çiyinləri üstünə almış, sağ qollarını alınları üstündən hayil edərək dəstənin önündə və arxada iki-bir, üç-bir gedirdilər. Cığır boz bir koramal kimi qıvrıla-qıvrıla bəyimin durduğu təpəyə qalxırdı. Gəlinlər və qızlar Xan qızını uzaqdan görüb tanıdılar. Kimisi hörmətlə yaşmağını burnuna qaldırdı, kimisi «al-yaşıl» çərtməsini alnına çəkdi, ahıl bar arvad xəbərsiz xısınlaşan bir dəstə qıza yanaşıb dedi:

— Yavaş, -qızlar, bəyim yol üstədi, ayıbdı.

Kəklik kimi səkə-səkə öndə gedən xırdaca bir qız, hamıdan əvvəl cumbulu sovçasını təpəyə çıxartdı, bəyimə birinci çatmağa tələsdiyindən tövşüyüdü. Natəvana iki addım qalmış qız durdu, sovçanı yerə qoyub. sadəlövh bir iftixarla dedi:

— Su iç, bəyim!

Natəvan qızcığazın yamaqlı tumanına, ayaqlarına, qızarıb çuğundura dönmuş dabanlarına, yırtıq çəpgəninə baxdı, göz yaşlarını udub dedi:

— Çox sağ ol, qızım, susuz deyiləm.—Lakin uşağın üzündən keçən kədər buludunu görüncə, sovçanı aldı, başını dala əyib, bir qurtum—tək bircə qurtum içdi. Çox içməyə qıymadı.

— Sucan ömrün olsun, mənim balam, adın nədi?

— Şəhla!

— Sənə ad qoyan nə usta adam imiş.—deyə Natəvan qızçığazın şəhla gözlərinə baxıb gülümsədi,—kimin

qızısan?

— Fağır Qonçanın.

Qızın öz anasını ləqəbi ilə adlandırması Natəvanın dodaqlarında zəif bir təbəssüm oyatdı. Şairə əlini yetimin başına çəkib dedi:

— Anana de, sabahnan bizə gəlsin, ona sözüm var.

— Baş üstə.

Bəyimin ətrafını bürümüş qızlar çığır boyu uzaqlaşdı. Onu arxada buraxıb şəhərə doğru getdilər.

«Bu bir qurtum su... boğazımı yandıran bu bir qurtum su... Onu nə qədər uzaqlardan, necə bir məşəqqətlə gətirirlər. Güyümlər incə belləri, səhənglər marmər çiyinləri yağır eləyib, kəsəklərdən dabanlar cadar-cadar olub, şaxta; yaqut dodaqlarda islahat qoymayıb, ilahi! Nə böyük dərddir susuzluq! Mən daha bu dərdə dözə bilmirəm!..»

# Atlı kimsən?

Neçə ay idi ki, o bu sualı eşidirdi. Neçə ay idi ki, nənələr demişkən ayağına dəmir çarıq geymiş, əlinə dəmir əsa götürmüşdü, su gəzirdi, su axtarırdı.

Azərbaycanın səfalı bucağı olan Qarabağda, Şuşa ətrafında bulaqmı, şəlaləmi azdı, dərələrdən qıjıltı ilə axan çaylarmı qurumuşdu! Yox, belə deyildi. Yaşının qırxını ötürsə də hələ də gənclik təravətini, qadınlıq incəliyinn bütünlüklə mühafizə edən Natəvanı at minməyə, ayaq üzəngidə, diz qabırğada, dərə-təpə gəzməyə vadar edən bu deyildi. Qarabağın dərələrindən qıjıltıyla axan dağ çayları qurumamışdı; bullur bulaqlarından, çeşmələrindən diş qıran su kəsilməmişdi; sıldırım qayalardan gur şəlalələrin səsi əskilməmişdi. Bu özgə dərddi, ayrı həsrət idi! O öz xalqını, öz həmşəhərlilərini susuzluqdan qurtarmaq üçun şəhərə su kəməri çəkdirmək istəyirdi. Elə buna görə də dağı-daşı gəzir, Murovdağın ətəklərindən tutmuş Qaybalı, Malıbəyi, Keşişkənd, Kirs daqının ətəklərindəl belə Gorus altına qədər Şuşanın ətraf kəndlərini dairə vurub keçmiş, axtarmışdı. Bu ətrafda çay qalmamışdı ki, suyundan dadmasın; çeşmə qalmamışdı ki, gözün arıtmasın; bulaq qalmamışdı ki, yoxlamasın; şəlalə qalmamışdı ki, şaqraq nəğməsini diiləməsin.

O gah tək, gah da Usta Muradla gəzirdi. Bə’zən axşama düşdükdə, qaş qaralanda, bə’zən də ertə çıxdığından sübhün ala-toranında çobanlara, naxırçıya, sığırçıya rast gəlir, ilk əvvəl, kişi paltarında olan bu nəcib insanı tanımayanlar, elə həmin sualı verirdilər:

— Atlı, kimsən?

Tanıdıqda isə bütün sadə adamlar ona hörmətlə baş əyir, hamı onun bircə işarəsini gözləyir, tək bircə əmrini yerinə yetirməyə can atırdı. Axı, Natəvan su gəzirdi. Bunu hamı bilirdi. Yağın girvəakəsi bir qəpik olduğu halda, bir yük suya on beş-iyirmi qəpik verməyə gücü olmayanlar, çiynini güyüm, ovuclarını səhəng qabar edənlər sevinir, şad xəbəri bir-birinə söyləyir, gözaydınlığı verirdi. Kimin nəyə gücü çatırdısa nəzir eləyir, əhd-peyman bağlayır, sədəqə verirdi.

«Gül tikansız olmaz, ev sözsüz, kor əzabsız» deyiblər. Arada söz-sov da olurdu. Ömründə xalqa bir qəpik xeyri dəyməyənlər, su məşəqqətinin acısını dadmayanlar, susuzluq duymayanlar, «yekəpərlər», ağa-ə’yanlar, bəy-xanlar məclisində, ruhani qulluğunda pıçapıç danışanlar, qeybət qıranlar tapılırdı. Bütün Qarabağın qabaqcıl ziyalılarını, açıq fikirli adamlarını sevindirən, düşmənə belə «əhsən» dedirtdirən bu təşəbbüsü uca səslə, hündürdən pisləyə bilməsələr də, xısınlaşır, xanımın «bəd əməllərini», at üstündə el-oba gəzməyini, açıqlığını, cür’ətini müzakirəyə qoyur, adını dilə-ağıza salırdılar. Gözü götürməyən, dodaqbüzən, bu arzunun yerinə yetirilməsinə inanmayanlar olurdu. Bunlar o adamlar idi ki, xeyir iş görmək əllərindən gəlmirdi. Bunlar: İran taxt-tacından əli üzülsə də böyüklük iddəasından əl çəkməyən, Xan qızı ilə qohum olmaq yolu ilə Qarabağ xanlığını ələ keçirmək arzusu baş tutmayan Bəhmən Mirzə Qacar; hamının «Yekəpər» adlandırdığı Cəfərqulu xan, Talıb bəy, Abdulla bəy və başqaları idi.

İndi də Natəvan səhərin ala-toranında ocaq başına yığışanlara yetişəndə yenə bu sualı eşitdi:

— Atlı, kimsən?

Oturanlardan biri əlini gözünün üstə qoyub yavaşca dedi:

— Ə, Xan qızıdı, görmürsən?

Atlı irəli gəldi və ocaq başında oturanları tanıdı. Bunlardan biri Kərəm baba, birisi onun nəvəsi Surxay çoban, üçüncüsü isə onların yanındakı bala çoban idi. Kərəm babanın bircə oğlu Əli on beş-iyirmi il əvvəl boranlı-çovğunlu qış gecəsində canavar yığnağına düşüb həlak olmuşdu. Baba oğlunun təkcə balasını elə o vaxtdan yanına alıb, dağlara aparmış, ona hər güldən bir gül tanıtmış, hər bulaqdan bir içim su dadızdırmışdı. İndi oğlan böyüyüb igid olmuş, babasından ayrılmır, çobanlıq edirdi.

Gənclər bəyimin yaxınlaşdığını görüncə, cəld özlərini irəli atdılar. Surxay üzəngidən, bala çoban çiləvdan yapışdı. Natəvan çevikliklə atdan endi, ocaq başında çubuğunu doldurmaqla məşğul olan Kərəm babaya yanaşdı. Surxay cəld yapınçısını qatlayıb ocaq başındakı iri daş üzərinə sərdp, bəyim də yapınçınii üstə oturdu. Baba ilə təmənləşdi, əlnndəki qamçının ucu ilə uzunboğaz çəkmələrinə və çuxasının ətəklərinə sıçramış palçığı sıyırıb yerə tökə-tökə qocanın suallarına cavab verdi:

— Hələ də axtarırsan, bəyim?

— Axtarıram, baba.

— Bir şey tapmamısan?

— Su çox, yer çox... Mən istəyirəm ki, şəhərə gələn su saf olsun, sərin olsun, bol və xeyirli olsun, baba.

Qoca fikrə getdi, sönməkdə olan çubuğunu ocaq daşına vura-vura dedi:

—Sarıbaba bulağını necə, görmüsən?

— Yox, haradadır?

— Xəlfəlidən bir az aralı olar.

— Suyu necədi?

— Kefni istəyən kimi.

— Gedək, zəhmət çək, atlan, baba,—deyə Natəvan səbirsizliklə dilləndi.

— Tələsmə, bəyim, bu saat uşaqlar qoyunları bura əmişə gətirəcəklər. Sən də bir piyalə süd içərsən, sonra gedərik.

## İki arzu

Üç il keçdi. Bu üç ildə Şuşanın qərbində, Xəlfəli kəndindən on kilometrə qədər aralı olan Sarıbaba, bulağından şəhərə su kəməri çəkildi. Üç il... Bu üç ildə Natəvan dönə-dönə, hər həftədə iki-üç dəfə atlanıb iş üstünə çıxdı, fəhlələri mükafatla, mehriban sözlərlə ruhlandırdı. Su yolunda çalışanlar üçün dağlarda alaçıqlar qurdurdu, hər gün onlar üçün qoyunlar kəsdirdi. Fağır Qonçaya və Sədra xalaya xörəkçörək bişirməyi həvalə etdi.

Su yolunda çalışan muzdlu fəhlələrdən başqa köməyə gələnlər də çox idi. Avanes kirvə, çölqalalı Zeynal kişi, mərdinli Nəcəf, ləzgi uşaqları Usta Məhərrəm və Məhəmməd, hətta qoca dərzi Nikolay və başqaları suyun şəhərə tez çatması üçün əllərindən gələni edirdilər. Sarıbaba bulağından Şuşanın Köçərli və erməni məhəllələrində tikilən daş bulaqlara qədər iyirmi beş-otuz kilometrlik su arxları qazılır, içərisinə saxsı novlar qoyulur, üstü örtülürdü. Su çəkilişində bu üç il ərzində çox hadisələr baş vermişdi. Bunlardan biri bəyimin yadından çıxmır. Bir gün arabalarla fəhlələrə yemək ehtiyatı aparan aşpaz Əliqara qayıdıb bəyimə xəbər gətirdi ki, su kəməri çəkilən yol gəlib bərk bir qayaya dirənib. Qayanı yarmaq, nə də arxı onun çox yüksək olan üstündən keçirmək mümkün deyil. Yol yalnız dərə boyu həmin qayanın belindən keçən ensiz cığırdan çəkilə bilər. Yer bərk və

qorxuludur. Təkca Usta Murad, Surxay könüllülərdən iş çıxmaz. Tutma fəhlələr isə işləməkdən boyun qaçırırlar. Usta Murad bəyimə ismarış göndərmişdi ki, «əlimdən bir şey gəlmir, vaxtı olsa bir özü zəhmət çəkib iş yerinə buyursun».

Xan qızı xəbəri alan kimi atlanıb arx çəkilən yerə yollanmışdı.

Bəyim atdan düşəndə fəhlələr cəld cilovdan yapışdı. Doğrudan da hər şey onun eşitdiyi kimi idi. heç kəs işləmirdi. Qoca Muradın ona izah etdiyi kimi suyu bu yerdə qayanın üstünə qaldırmaq olmazdı. Arx, mütləq qayanın altı ilə uçurumun üstündəki ensiz çığırla keçməli idi. Sərt yarğanlardan su sızırdı. Üstdən baxanda göz qaralır, dərənin dibi görünmürdü. Bəyim azacıq diqqətlə baxdı və qəti bir səslə əmr etdi.

— Kəndir verin!

Kəndirin nəyə lazım olduğunu başa düşməyən fəhlələr cəld əmri yerinə yetirdilər. Bəyim kəndiri belinə bağlayanda Usta Murad məsələni anladı; bir addım irəli gəldi.

— Bəlkə mən enəm, bəyim,—deyə yavaşca pıçıldadı.

Bəyim eyni səslə cavab verdi:

— Yox, usta, belə lazımdır.

Aralıda duran fəhlələr, xüsusilə Surxayın e'tiraz səsləri xəfif bir uğultu kimi eşidildi və yavaş-yavaş ucaldı. Usta arxasına dönüb Surxaya göz ağartdı.

— Biz ola... ola... nə düşüb... Olan döyü...

— Sənnik iş yoxdu.

Usta, bəyimin nə edəcəyini bilməsə də haqlı olduğunu dərk edirdi. Bəyim qayanın kənarına çatanda usta pıçıldadı:

— Bəyim, üzü qayaya tərəf sürüş, dərəyə nəbadə-nəbadə baxasan...

— Yaxşı, arxayın ol, usta...

Usta Murad, Surxayı və qüvvətli cavanlardan ikisini irəli çağırdı, kəndiri onlara verdi:

— Ehtiyatla, yavaş-yavaş ipi boşdayın, birdən boşaltmayın.

Qəzəbli və narazı gənclər xəcalətdən qızarmış üzlərini harda gizlədəcələrini bilmədikləri halda ipi əllərinə dolayıb ehtiyatla bəyimi aşağı buraxmağa başladılar. Bayimə yalnız Usta Murad baxırdı, qalanları isə çəkilib xəcalətlə aralıda durmuşdu...

...Nəhayət, bəyimin ayağı yerə toxundu. O, kəndirdən yalışıb yavaş-yavaş sərt qayanın beli boyu uzanan ensiz çığırla irəlilədi. Onun hərəkəti ilə həmahəng olaraq ipi tutmuş gənclər də yuxarıda irəliləyirdilər. Arxın yarımçıq kəsildiyi və cığırın nisbətən enli olduğu yerə çatanda bəyim durdu, burda bel-külüng tökülmüşdü. Fəhlələr bundan o yana işi davam etdirməkdən çəkinmişdilər.

Bir an gözü mamır, yosun basmış yarğanlara, ondan aşağı boz duman qalxan qaranlıq dərəyə baxdı. Üşəndi, başı gicəllandi. Əlləri titrək bir hərəkətlə ipdən daha bərk yapışdı. Lakin bu bircə an oldu. O, cəld gözlərini firuzəyi səmaya çevirdi, qəlbində pıçıldadı: «Yox, yox, ixtiyarım yoxdur, mənə yüz göz baxır, bütün arzularım məhv olar...» O özünü ələ alıb irəlilədi.

Usta Murad Xurşidbanunun hər bir hərəkətini izləyirdi. Burada bəyim əlini şalvarının cibinə bir kisə çıxardı. Kisədən bir pul götürüb durduğu yerə qoydu, sonra iri bir addım atıb yenə əyildi və bir pul qoydu, yenə də bir iri addım atıb bir pul qoydu... beləliklə, bəyim düz yüz beş dəfə əyilib qalxdı və hər dəfə də yerə bir pul qoyub qalxdı. Nəhayət, sərt cığır qurtardı, bu yerdən bəyim nisbətən asanlıqla yuxarı qalxdı. Yalnız indi onun

məqsədini dərk edən Usta Murad öz yoldaşlarının əvəzinə utandığı halda başını aşağı dikib durmuşdu. Bəyim yuxarı qalxan kimi əllərini bir-birinə çırpdı, tozunu təmizlədi, mehribanlıqla gülümsəyib dilləndi:

— Sənə ağır gəlməsin, usta. O yuz beş qızıl bulağın mehridi. Yol orda doğrudan da çox çətindi. Kim o yerdən keçdi, hər addımını qazdıqca mehrin bir qızılı ona düşür.

Sonra fəhlələrə döndü, bir qədər ərkyana ucadan dedi:

— Siz bəs necə kişisiz, mən zənən xaylağı endim, siz enməyə qorxursunuz...

Fəhlələri doğrudan-doğruya xəcalət təri basmışdı: bəyimin cür’ətinə, səxavətinə heyran qalmışdılar. Onlar atı yaxına çəkdilər. Bəyim quş kimi ata qalxdı. Uzun müddət arxasınca «Sağ olsun, bəyim» sözlərini eşidirdi.

İndi işlər qurtarmaq üzrə idi.

Bu gün də Natəvan öz yaxın rəfiqəsi Fatma xanım Kəminə və xidmətçisi Gülzamanla birlikdə şəhərin qərb tərəfinə seyrə çıxmış, yolüstü iş yerinə də dəymişdi.

Onlar buraya gələndə məzəli bir əhvalatın şahidi oldular. Uzunqulağının üstündəki güyümlərdən yol fəhlələri üçün qoyulmuş qazanlara su boşaldan suçu Arutyun zarafatla deyirdi:

— İçin, için, qadanız qara günlüyə, su arxını kib qurtaranda borcumu verərsiniz.

— Ərtun kirvə, məhəllənizə bulaq çəkiləndən sonra suyu neynəyəcəksən?

— Su aşı bişirəcəm, dərdin alım. . . Hamı gülüşdü, Natəvan Kəminəyə dedi:

— Mirzə, görəsən, bu kişini qazancından əl çəkib fəhlələrə su daşımağa vadar edən nədir? Mən ki ona əmr etməmişəm. Güzəranı da bir bu uzunqulağa, bir də o güyümlərə bağlıdır.

Fatma xanım gözlərini rəfiqəsinin nur saçan ilhamlı çöhrəsinə zillədi:

— Bəs səni nə məcbur etdi? Hər kəs varına görə, bacarığına görə, iş tutur. Əzizim, sən minlərlə pul qoyub su yolu çəkdirəndə, kasıb Ərtunun gücü də bir uzunqulaq yükü suya çatar, Fağır Qonçanın da qüvvəsi çörək bişirməyə yetər. Elə deyilmi, mənim Xurşidim? Bu savab işdə kim işləməz?

— Mane olan da az deyil, Mirzə, özün ki bilirsən,— deyə o, dərindən köksünü ötürdü.

— Sən heç kəsə qulaq vermə, Xurşidim, heç kəsə! Qoy xalq özü sənin zəhmətinə qiymət versin, o da ki verir. Öz gözünlə görürsən.

Kəminə xəz haşiyəli göy məxmər kürdüsünü sahmanladı. Abı haşiyəli qara kəlağayısının ucunu boynuna dolayıb çənəsinin altında bərkitdi. Əllərini yanlardan gen tumanının büzmələri arasında gizləyib, üşənirmiş kimi rəfiqəsinə qısıldı. İki iri üzüm giləsinə oxşayan dəyirmi gözlərini Natəvanın baxdığı üfüqə zillədi. Bu gözlərin hər birində bir günəş, parıldasa da, onlardan qadınlığın ağır, acı dərdi, kədəri süzülürdü. Şairə Mirzə Fatma, rəfiqəsinin dalınca deyilən qeybətləri çox yaxşı bilirdi. Dedi:

**Dönübdür qanə könlüm Şişə içrə çox zəif haləm,**

**Buna şahid rüxi-zərdü do çeşmi-əşkbarımdır.**

Natəvan rəfiqəsinə yanakı baxdı. Beytdə təsvir olunan yaş dolu qara gözləri gördü, dərdinə şərik, həmdəminin əlini usulca sıxdı:

— Sağ ol, Mirzə,—dedi. Sonra onun məğrur baxışları uzaqdan duman içindən güclə seçilən Murovdağa dikildi. Onun da sıx sürməli kirpikləri nəmləndi, nazik dodaqları pıçıldadı:

— Dünyada iki böyük arzum vardı, Mirzə. Birinə budur - çatdım,—deyə o, əlinin xəfif hərəkəti ilə su yolunu göstərib susdu...

Fatma xanım Kəminə Natəvanın əlindən tutdu:

Bəs o birisi?— deyə soruşdu.

Natəvan dikəldi, sanki bu hərəkəti ilə ağır düşüncələri xəyalından silib atmaq istədi.

— O birini də çatanda deyərəm...—deyə gülümsədi.

Onlar irədilədikcə yol boyu, arx üstü basdıran fəhlələrlə qarşılaşır, salamlaşıb ötürdülər. Yol ayrıcında sıldırım qaya altından keçən dar keçiddə

Usta Muradla, əlində külüng olan Surxaya rast gəldilər. Gəncin görkəmi xeyli dəyişmişdi. Çoban Surxay üç ilə yaxın idi ki, otardığı sürüdən-ayrılıb, Usta Murada şagird gəlmişdi.

—Salam, usta!

— Əleykəssalam, bəyim!

— İşlər necədir?

— Gün xoşla, ay bəyim, bu gün-sabah suyu şəhərə çatdırarıq.

— Şagirdindən necə, razısanmı, usta?—deyə Natəvan əvvəl Surxaya sonra da öz şirindillisi Gülzamana baxdı.

Bu üç ildə o hər zaman Gülzamanla birlikdə iş üstünə çıxanda hər iki cavanın bir-birinə meyl göstərdiyini gözlərinin parıltısından, üzlərnin qızarmasından duymuşdu; iş üstünə Gülzamansız gələndə evdən çıxarkən qızın bura çatanda Surxayın nəzərində oxumuşdu. Küskün intizar, sonsuz həsrət şairənin gözlərindən yayınmamışdı.

— Yaxşıdır, bəyim, üzə tə’rif olmasın, Fərhad kimi dağ çapır, külüngünün ağzından od-alov çıxır.

— Çox yaxşı dedin, usta, elə siz hamınız bu dağlarni Fərhadısınız... Qayıdan baş o, gülə-gülə Kəminəyə dedi:

— Mirzə toya hazırlaş, sənə yaxşı bir toy şənliyi vəd edirəm.

— Nə toy, Xurşid? Kimin toyu?

— Gülzamanım qanad çalıb uçacaq, Mirzə,o da mənitək qoyacaq!

— Yox a? Ha... ha... ha...

— Boy, başıma xeyir, sözciyəzinmi yoxdu, ay bəyim?— deyə Gülzaman kirpiklərini yerə endirib pıçıldadı. — Yaxşı bəs toy haçandı?

— Su şəhərə çatan günü. Birinci saqimiz Gülzaman olacaq. Cavan fəhlələrdən birinci kimə su versə, qızcığazımı, ona verəcəyəm.

Hər ikisi güldü, utandığından arxada qalmış Gülzaman isə son sözə qulaq kəsildi.

Dayan, dərviş, bayramdır

Tam üç il bellər, külünglər, kürəklər işlədi, yerin bağrını sökdü; xərəklərdə torpaq, daş və palçıq daşındı; onlarla Surxaylar çıxıb

Fərhad kimi dağlara sinə gərdi, adlı igid oldu, qayalarla güləşdi. Sarıbabadan gələn su yolu qıvrıla-qıvrıla dağ aşdı, dərə keçdi, sıldırım adladı. Nəhayət, o əziz gün gə lib çatdı. Bu gün şəhər bayramsayağı bəzənmişdi;

hamı ən yaxşı, paltarını geymiş, nəyə gümanı gəlirdisə götürüb el bayramına gəlmişdi. Köçərlidə daş atsaydın yerə düşməzdi. Meydana yığılan camaat uşaqlı-böyüklü hamı sükut və həyəcan içində gözünü bir nöqtəyə—daş bulaqdan çıxan nova zilləyib dururdu.

Birdən su novda səsləndi, əvvəlcə xırıltılı, boğuq bir səslə novdakı havanı çölə püskürdü, sonra fışıltı-gurultuyla axdı. Su həsrətində olanlar sevincdənmi, həyəcandanmı susurdular. Səssizliyi yalnız suyun şaqraq səsi pozdurdu.

İnsanlar qurumuş səhrada ilkin su görmüş yolçular kimi heyran-heyran, məftun-məftun baxırdılar; onlar sanki qorxurdular. Elə bil səs çıxarsaydılar suyun səraba çevrilib yox olacağından çəkinirdilər.

Lakin gördükləri həqiqət idi, ürəklərə axan həyat qüvvəsi idi. Bu qüvvə dinməzcə duranları hərakətə gətirdi. Su həsrəti ilə yanıb qovrulan sinələr həyəcanla qalxıb endi, cadar-cadar olmuş titrək dodaqlar dil ləndi:

— Natəvan!.. Bəyim!..

Xan qızı!

— Sağ olsun!

— Var olsun!

— Yaşasın!..

Bağırtılar ucaldı, ucaldı... Bu ara Usta Murad və Avanes kirvə Natəvana yanaşdılar. Usta əlindəki bürünc, naxışlı qırxaçar camı şairəyə uzadıb:

—Al, bəyim,—dedibirinci camı sən doldur.

Şairə həyəcanla ətrafında durmuş əyanlara, ruhanilərə, başda Nəvvab və Piran olmatla dayanmış şairlərə. camaata baxdı, əlini uzadıb camı aldı; onun uzun, ağ barmaqları da kirpikləri kimi titrəyir di, bəyaz simasına xəfif bir qızartı çökmüşdü; coşqun bir ilham zərif sinəsinə dolub köksünü qabardırdı, söz və hissin çoxluğundan nazik dodaqları arala nır, ancaq danışa bilmirdi. Nəhayət özünü ələ aldı; intizarla boş cama baxan Usta Murad və Avanes kirvəyə sarı dönüb:

— İcazə verin, birinci camı Gülzaman doldursun, ona söz vermişəm,—dedi.

Natəvan ətrafına göz gəzdirdi. Bayramsayağı bə zənmiş gəlin və qızlar içərisindən ən əvvəl gözünə çarpan Xanbikə oldu, ondan azacıq arxada isə Gülza man dayanmışdı. O, başı ilə işarə edərkən gənc qız quş kimi səkə-səkə xanımının yanına gəldi. Utancaqlığını güclə yenib, bürünc camı aldı, baxdı, camın içərisində, kənarında Gülzamanın oxuya bilmədiyi müxtəlif yazılar və naxışlar vardı. Gülzaman bula ğa tərəf döndü, ayaqları sözünə baxmır, dizləri əsir di. O, səkiyə çıxdı, camı suyun altına tutub doldurdu və xanımına tərəf qayıtdı:

— Birinci cam sənindi, başına dönüm, nuş olsun!

Natəvan camı alıb içdi, yalnız bundan sonra naxışlı bürünc cam əldən-ələ keçməyə başladı. Gülzaman bulaqdan camı doldurub verdikcə susayan da içirdi, susamayan da.

Növbə gənc fəhlələrlə birlikdə gələn Surxaya çatanda, Gülzaman daha da qızardı, üzünü yana tutub camı gəncə uzatdı. Onun bu

sadəlöhv hərəkəti Natəvan və Kəminənin gözündən yayınmadı, onlar bir-birinə baxıb səməmiyyətla gülümsədilər.

Elə bu zaman saz səsi eşidildi. Xalq aralandı, ortalıqda geniş bir meydan yarandi, aşıq dəstəsi ortaya girdi. Birinci oxuyan yaşlı Sar aşıq idi:

**Bulaq üstə duran gözəl,**

**Qara birçək buran gözəl,**

**Əlin belə vuran gözəl,**

**Bir cam su ver əllərindən.**

**İçib o badədən qannam.**

**Alışıb oduna yannam,**

**Hər nə desən bil inannam,**

**Tuti şirin dillərindən.**

Avanes kirvə şairəyə yanaşdı. O, örpəyini düzəltməyə çalışan bir erməni qızının əlindən tutub Natəvanın qarşısına çəkməyə sə’y edirdi:

— Gəl, utanma! Bəyim, başına dönüm. bu qızım yaxşı oxuyur, söz də qoşur, izin versən... axı, bir də bu gün bayramdı... lap çoxdan arzulayıb... deyib oxuyajam...

— Buyursun, kirvə, izindi.

— Başla, Susanna, utaima...

— Oxu, qızım...

Susanna balaca üçtelli sazını qabarıq köksünə basıb, üzünü indicə oxuyan aşığa çevirdi, onun da təhrik etdiyini, icazə verdiyini görüncə məlahətli bir səslə oxumağa başladı. O hər bir misranı dedikcə bir addım bulağa yanaşır, gülə-gülə onun üçün bir cam su tutub gözləyirmiş kimi duran Gülzamana baxır, sanki nəğməsinin sözlərini məhz ona, parlaqgözlü qıza söyləyirdi:

**Xəbər verin ellərimə,**

**Bilsin qoy cahan. ay gəlin!**

**Su içməyə bulağımdan.**

**Gəlsin har insan, ay gəlin!**

**Ocağa qoymuşam sacı,**

**Günüm bir-birindən acı,**

**Sən ol mənə əziz bacı,**

**Gülsün hayastan, ay gəlin.**

**Susannanın can sirdaşı,**

**Dostluğumun təməl daşı,**

**Kim görub bacı-qardaşı,**

**Belə mehriban, ay gəlin!**

O yanda isə artıq mə’rəkə qızışmışdı, suya qurbanlıq qoyunlar kəsilir, manqallar, tə’cili düzəldilmiş ocaqlar tüstüləyir, şişlərə kabab çəkilirdi. Meydançanın aşağı başında bayramsayağı düzəldilmiş süfrəyə qarılar duz-çörək, gəlin-qızlar qırmızı yumurta düzürdülər. Bu el süfrəsinə kimin nəyə gümanı gəlirdisə onu gətirmişdi.

Xurşidbanunun işarəsi ilə məclis şənllyə başladı. Bir dəstədə Tuğ aşığları oxuyur; ikinci dəstədə isə gənc xanəndə Hacı Hüsü özü kimi cavan, lakin artıq yüksək sənətkarlığı ilə tanınmış məşhur tarzən Sadıqcanın müşayiəti ilə zəmin-xara muğamını başladı. Nəvvab, Növrəs, Piran, Natəvan başda olmaqla şe’r və musiqi pərəstişkarları doğmaqda olan bu yeni sənət ulduzunu məftunluqla dinləyirdilər.

Qonaqlığın şirin yerində aşağı yoldan Köçərli məhəlləsinə doğru qalxan bir yolçu nəzəri cəlb etdi. Uzaqdan gəldiyi məlum olan bu yolçu dərviş idi; çiynində təbərzin, əlində əsa, qolunda kəşkül olan bu adamın başında çalma, ayağında yun corab və tünd-mixəyi rəngli dikburun dəri ayaqqabı, belində isə qurşaq vardı. Dərvişin gündən yanmış sağlam çöhrəsi, pərakəndə saçlarına və uzun saqqalına uymayan zil qara və parlaq gözləri, enli qara qaşları onu çox gənc göstərirdi. Uzun, zəhmətli yol keçməsinə baxmayaraq, əynindəki paltar təmizdi. Ümumiyyətlə, o, dərviş geyimli olsa da çox səliqəli bir ziyalıya bənzəyirdi. Dərviş aram-aram yaxınlaşdıqca, bayram süfrəsi başına yığılmış camaatı seyr edir; düşünürdü; əgər bayramdırsa, nə bayramıdır? Müsəlmanlarınmı? Xristianlarınmı? Toydursa—yox, deyil, süfrəyə qırmızı yumurta yığmışlr, ham də Süleymana hədiyyə gətirən qarışqa kimi hərə bir şey gətirib qoyur...

O yaxınlaşdı, ucadan salam verib keçmək istəyirdi ki, Nəvvab səsləndi;

— Dayan, ağa dərviş, bayramdır, el süfrəsindan tikə kəs!— Sonra məsələni dərvişə söylədi.

— Yolun hardandır?

— Təbrizdən. Bayramınız mübarək olsun, suyunuz soyuq, çörəyiniz isti olsun! Xeyirli günlər görəsiniz,

əzizlərim!—deyə o, bulağın yanına gəldi. Gülzamanın doldurub verdiyi piyalanı içdi.

— Nuş olsun, baba dərviş!

— Xoşbəxt ol, qızım!—deyə dərviş gözəl bir səslə oxumağa başladı:

**«Üburndə səri-bazarə çünki düşdü yolum,**

**Göründü çeşmimə bir çeşmə abi-kösərdir.**

**Əbəs yerə bu təvanaya Natəvan dedilər.**

**Onun zəkası, gücü, şe"ri dildə əzbərdir.**

**Təəccüb eyləmə, Dərviş, cəlalına sən onun**

**Deyillə Xan qızıdır—Xurşidi-münəvvərdir.**

Yığılan şairlər: Nəvvab, Piran, Məmai, Fani və başqaları hamı bir səslə Dərzviş təxəllusiu şairinin bədahətən söylədiyi bu şe"rə afərin dedilər. Bulağın adını isə «Xan qızı bulağı» qoydular.

Su bayramı belə qurtardı.

Nağıl deməyə həvəsli nənələr belə deyir ki. Xan qızı-bulağı çəkilib qurtaran günü yetmiş yerlə qazan asıldı, yetmiş tağar buğda unundan çörək yapıldı, yetmiş yerdə süfrə açıldı, yetmiş eldən, yetmiş iki millətdən qonaq gəldi, yedilər, içdilər. «bayramınız mübarək, suyunuz şirin, bəxt ulduzunuz parlaq olsun» dedilər.

# QIRXBUĞUM

**Ay doğdu qəlbi nara,**

**Gün doğdu qəlbi nara,**

**Dilinən dost olanın**

**İşiynən qəlbin ara.**

Yaz təzəcə açılmışdı. Arabir bahar yağışları yağır, dağlarda, təpələrdə hələlik ərimək bilməyən qarın rəngi dəyişir, alaçirk-qaraçirk talalar əmələ gətirirdi. Sellər-sular dağlardan aşıb dərələrdə çağlayırdı. Təbiət hələ yaşıl donuna bürünməmişdi. Təkbir güneylərdə, qardan tez təmizlənmiş döşlərdə baharın incə, zərif göyərtiləri boy göstərir, kasıbların qəlbini ümidlə doldururdu. İlin bu çağında «quru qurtarıb, yaş yetişməyib» deyərlər. Fağır Qonçanın da ailəsində vəziyyət belə idi. Bir neçə gün idi ki, arvad çuvalın dibini çırpıb ələmiş, olan-qalan unu qazana yığmış və «bəd ayaqda horralığa yarar» demişdi.

Səhər tezdən Qonça küt qəməltisini götürüb evdən çıxdı, ümidlə üzünü dağlara tutdu, «bəlkə bir az pencər yığdım» deyə yola düzəldi. Qadının yolu imarətin yanından keçirdi. Xan sarayının böyründən ötəndə bəyimin sözləri yadına düşdü: «Qonça, uşaqlara korluq vermə, nə vaxt bir şey lazım olsa, utanma, gəl yanıma». demişdi. Bəyimin mehriban ala gözləri, nəvazişkar sözləri yadına düşəndə Qonçanın dərddən saralmış sifətinə qızartı çökdü, bir imarətə tərəf dönmək, dərdini bəyimə demək istədi. Lakin Natəvan onsuz da ona çox yardım edirdi. «Eh, nə üzlə gedim? Bu il mənə az əl tutmayıb ki... gedim nə deyim. Kasıblığın üzü qara olsun, tək mən deyiləm, o qədər qapısına

dilək üçün gələn var ki... Hər cümə axşamı paylladığı sədəqə bir aləm ac qarnı doyuzdurur... Mən də böyürdən çıxa bilmərəm, üzüm də gəlməz... Rast düşsə, soruşsa. bəlkə bir şey deyə bildim, amma elə belə gedə bilmərəm, ayaqlarım getmir».

O, fikirli halda imarətdən aralandı. döşdən enib üzüaşağı yollandı. Artıq şəhərin qələbəlik küçələri arxada qalmışdı.

Qonça evə qayıdanda gün artıq iki cida boyu qalxmış, günortaya az qalmışdı. Arvadın yükü yüngül idi. Bir az qırxbuğum, bir az da quşəppəyilə əməköməci yığmışdı. O, evin qabağındakı, iri yastı daşın kənarında oturdu, yaylığını açıb pencəri bura tökdü. Bu nataraz daş Fağır Qonçanın evinin qabağına nə zaman düşmüşdü? Hansı nəhəng onu diyirləyib bura qaldıra bilmişdi? Hər nə idisə ağ və üstü hamar olan bu nataraz daşın üstündə keçən yaylaracan rəhmətlik əri Bədrəddin yatardı. Deyirlər Bədrəddindən də əvvəl onun rəhmətlik dədəsi Xanalı kişi burada yatarmış. Xanalı Qarabağda, Şuşada bənnalıq edərmiş. Evlərə elə gözəl naxışlar vurarmış ki, baxan deyərmiş, bir də baxım. Gözəl-qurğular qurarmış. Amma «iynə aləmi bəzər, özü lüt gəzər» deyiblər. Hamıya ev-imarət tikən Xanalının özünə ev tikməyə nə macalı olub, nə də hünəri! Qaraltdığı bu komadan başqa ev-eşiyn olmayıb. Yayın istilərində gecəli-gündüzlü işləyib yorulan Xanalı, komasında bürküdən boğulmamaqçın həmin bu daşın üsündə yatarmış. Öz sənətini də oğlu Bədarəddinə öyrədib.

Qonça düşünə-düşünə dərindən köks ötürdü:—Eh, ay rəhmətlik, kaş heç sənətini oğluna öyrətməyəydik. Nə özünə bir gün ağladın, nə də bizə. Kişi də elə sənətinqurbanı oldu. İnişil ev tikəndə uçmuş divar altında qalıb öldü.

Arvadın köksü qövr elədi, qalxdı, üzü qaysaqlanmış dərin yara qəlbində sızıldadı. Elə bil küt bir bıçaqla bu yaranın qaysağını qopartdılar.

Qonça pencəri arıtlayır, yaş palçıq lopalarını çırpırdı. Əli bulaşdığından gözlərindən yanağına gilənənən yaşı çarğatının ucu ilə silə bilmirdi. Gözyaşı çənəsinə, boğazına süzülür, oradan da qövr eləyən, yanan sinəsinə damırdı. «Yox, bundan Fatıya tuman olmayacaq» deyə Qonça dumanlanan baxışlarını pencərə dikib oturdu, əllərini bir-birinə çırpıb, qaralmış barmaqlarının palçıqlarını ovxaladı, indi bu pencəri bişirərəm, bir günlərini də yola verərəm. Bəs bu qırxbuğumu neyniyim? Məndə düyü hardadı ki, qırxbuğumpləv qonaqlığı verim sizə, o bədbəxt balalarım? Qırxbuğumun nobarıdı, yaxşısı budu göndərim bəyimə, hələ nobar eləməyib, qırxbuğumpləvu çox xoşlayır».

Qonça yerindən qalxdı, ətəyinə tökülmüş göyərti qırıntılarını, toz-torpağı çırpdı.

— Ay Şəhla, hu-uy-y...

Arvad Şəhlanın səsini uzaqdan eşitməyə hazırlaşırdı. Birdən lap qulağının dibindən gəldi:

— Mən burdayam, ana.

Qonça geri döndü. Qız komadan indicə çıxmış, qapı ağzında ayaqyalın durub gözlərini ovxalayırdı. O, pencəri görən kimi sevincək iri daşa tərəf atıldı:

— Yemlik də var?

— Səninki elə çərəz olsun, ay bəxtəvər, yemlik hardaydı. Dəymə, dəymə, qatıb-qarışdırma. Qırxbuğumları yuyum, qaçaraq apar imarətə. Elə darvazanın qabağında ver gedələrdən, ya qızlardan kimə rast oldun, ona. De ki, «nobardı, gətirmişəm bəyimə». Dəstinə çıx, qoy, qayıt gəl evə. Bəs qardaşlarii hanı?

Qız əlbəsöyün-əlbəsöyün pencərdən götürüb yeyə-yeyə cavab verdi:

— Eh, onlar çoxdan gediblər, qəməltilərinn də apardılar ki, bəlkə yemlikdən-zaddan oldu.

— Bəs sən nə əcəb getməmisən onlarnan?

— Çıxdım, ana, amma üşüdüm, geri qayıtdım.

Arvad qırxbuğumları səliqə ilə yuya-yuya gözaltı qıza baxdı: «Üstü çox nəzikdi, səkkiz yaşı var, yazıq balam, sonbeşiyim, hələ təzə paltar görməyib... Eh fələyin evi oddansın, mən onu bu kökdə imarətə necə göndərim? Xalis qaraçı qalayçısıdı». Doğrudan da qızın üst-başı yaman kökdə idi. Yamaq əlindən köynəyin əvvəlki rəngi bilinmirdi. Qız bu paltarda gündüzlər gəzir, gecələr də əynindən çıxarmayıb yatırdı. Hələ ölümündən bir neçə ay qabaq rəhmətlik Bədrəddin bayramağzı Qarğabazarından alıb gətirmişdi. «Çit, bez uşaq əynində nə qədər davam eləsin? Uşaqdı, atılıbdüşür, oynayır, toza-torpağa bulaşır; özü də üç ilin ərzində Şəhla neçə buğda boyu böyuyub, «bir öynə ac, bir öynə tox olsa da, bir qarış boy atıb». Arvad onu dəli edən fikirləri çiynindən atırmış kimi silkələndi:

— Qaç, məhrəbanı gətir.

Şəhla kasıb toyxanası kimi bomboş komaya girdi, qonaq-qara üçün saxlanılan və evin yeganə bəzəyi kimi divardan asılan xoruzlu dəsmalı mıxçadan çıxarıb gətirdi. Qonça təmiz yuyub quruladığı qırxbuğumları əvvəl cunaya bükdü, sonra da xoruzlu dasmalın içinə qoydu və imarətə yollandığından şadlanan Şəhlanın qucağına verdi. Qız göyərtiləri körpə qundağı kimi köksünə sıxanda ana səsləndi:

— Bərk sıxma, əzərsən, tərliyi itər, ölüşkəyər, heç nəyə də yaramaz. Bax, sözümə qulaq as, qırxbuğumları darvazadan birinci kimə rast oldun, ver. çaparaq geri qayıt, dayanma ha!..

Son sözləri arvad, uzaqlaşan qızın dalınca söylədi.

Qız darvazanın ağzında nökərlərdən heç birinə rast gəlmədi. Binaya tərəf ürkək-ürkək irəlilayəndə qarşısına çıxan dostu Gülzaman oldu:

— Şəhla, nə əcəb səndən? O, bağrına basdığın nədi?

— Qırxbuğumdu, Gülzaman mama.

O, Gülzamanı həmişə bibi (yerli ləhçə ilə mama) adlandırırdı.

— Bıy, qar yerdən təzə götürülüb, hardan yığmısan, ay elməmiş, bu erkən yazda qırxbuğumu?

Gülzaman çöhrəsini işıqlandıran bir təbəssümlə gülümsədi. Adət etdiyi bir hərəkətlə cunasını düzəldib qızın qara yolpa saçlarını tumarladı.

— Bilmirəm, obaşdannan anam pencərə getmişdi. Qırxbuğuma rast olub, məni yolladı, dedi, apar bəyimə, nobardı.

Qızın sadə bir şəkildə «anam pencərə getmişdi» deməsindən Gülzaman çox şey anladı, fağır Qonça, sənə bu ləqəbi yaxşı qoşublar. Görünür, evdə heç nəyi yoxdu, uşaqlarçın pencərə gedib». O bu sözləri düşünə-düşünə qızın qolundan yapışıb öz otağına apardı, burada qızın qabağına bir parça fətir, pendir və süd qoydu:

— Ye, Şahla, bəyim bağdadı, qayıdanda qırxbuğumu özün aparıb verərsən...

Bağda baharın gəlişindən xəbər verən cavan pöhrələr təzəcə tumurcuqlanmağa başlayırdı. Nökərlərin kimisi xiyabanın bir tərəfinə tökülmüş çubuqları dəstədən seçib ayırır, kimisi ağacların dibində bərkimiş torpağı boşaldır, kimisi də əkiləcək çubuqlar üçün çala qazırdı.

Bəyim təzəcə salınmış çınqıl xiyabanla addımla- yırdı. Yerini tutub bərkiməmiş xırda çay daşları yüngül nəleyinlərin altında çırtlayırdı. Bəyim bağda Tehrandan gətirtdiyi tut ağaclarını çalalara basdıran cavan fəhlələrə tamaşa edirdi. Yaz günəşi onun ılıq və mehriban xəyalları kimi şəhərə, bağda çalı- şan nökərlərin üzərinə nur səpələyirdi.

«Nə gözəlsən, əziz şəhərim, mən səni daim canlı bir insan, ətli-qanlı bir gözəl təsəvvür edirəm; gecə yağış yağanda—yuyunursan deyirəm; səhər küçələrin süpürüləndə—daranırsan deyirəm. Harda yeni bir ev, qəşəng bir küçə, lətif bir yaşıllıq, kölkəli bir ağaclıq salınsa—bəzənir, gözəlim təzə libas geyir, donunu dəyişir deyirəm. Sən nə gözəlsən, doğma şəhərim».

Sonra o, şairə bibisi Ağabəyimi xatırladı. Onun farsca söylədiyi bir şe'ri—cənazəsinin belə vətənə sarı çevrilməsi arzusunu, daha sonra məşhur bayatını adına saldı:

**Əzizinəm Qarabağ,**

**Qara salxım, qara bağ,**

**Tehran cənnətə dönsə**

**Yaddan çıxmaz Qarabağ.**

«Can bibi,—dedi doğrudan da bu sevimli, gözəl və- təndən uzaqda ömür sürmək, qürbətdə ölmək dəhşət- dir. Yazıq bibi, sən o qızıl qəfəsdə vətən hicranına necə dözmüsən?»

Xurşidbanu qayıdanda otağının qapısında Gülzamanla Şəhlanı gördü. Qız nəyi isə körpə kimi sinəsinə basmışdı. Üzü bəyimə tanış gəldi. Bu qara yolpa saçları, enli çatma qaşlar altından

baxan mə’sum şəhla gözləri hardasa görmüşdü. Amma dərhal yadına sala bilmədi, soruşdu:

— Kimin qızısan, gülüm?

Qız utancaq bir tərzdə matdım-matdım bəyimin üzünə baxdı:

— Fağır Qonçanın...

Bəyimin yadına düşdü. Bir dəfə isti yay günlərindən birində sudan qayıdan qızların içində o bu qızcığazı görmüş, onun balaca sovçasından su içmiş, «kimin qızısan» sualına həmin bu cavabı almışdı.

Gülzaman sözə qarışdı:

— Şəhla sənə qırxbuğum nobarı gətirib, dərdin alım!

Bəyim:

— Çox sağ olsun, ay səni neçə belə nobarlara çıxasan, Şəhla! Gəl, gəl içəri...

Onlar üçlükdə otağa keçdilər. Bəyim, Şəhlanın yalın ayaqlarını, yamaqlı köynək və tumanını görüb ürəyi qısıldı. Bir az əvvəl bahar gözəlliyini özündə cəmləşdirən doğma şəhərinə «sən nə gözəlsən» demişdi, fərəhlənmişdi. İndi isə Şəhlanın batmış ordlarına, əskimiş geyiminə baxdıqca «sən nə yoxsulsan, nə qədər böyük ehtiyac içindəsən, əziz xalqım, doğma elim-günüm!» deyə düşündü. Elə bil ki, onun çırpınan ürəyini bir piyalə soyuq su içinə salıb övkələdilər.

— Qıza yeməyə bir şey vermisənmi, Gülzaman?

— Bəli, qadan mənə gəlsin.

— Qonçanın halı necədir?

Gülzaman şirin dilini işə saldı:

— Nejəliyi yoxdu, gözümün işığı. Gejəni gündüzə qatıb, güjnən yetimlərə bir qulaq əppək tapır. Nejə deyərlər, bozdamac—əlim xəmir, qarnım aj.

Xurşidbanu Şəhlanı çox sıxmaq istəmədi, söhbəti dəyişdi:

— Aç görüm, neçə belə nobarlar görəsən, qızım!

Şəhla dəsmalı açdı, bəyim qırxbuğumdan bir çəngə götürüb burnuna apardı, qoxuladı:

— Oxay... Baharın iyi gəldi...

Sonra miz üstündə axşamkı üskü yemişindən qalmış iydə, innab, qovurğa, kişmiş, tut qurusu qarışığınu öz əli ilə gümüş məcməyidən qızın xoruzlu dəsmalına töküb düyümlədi, tənzifə bükülmüş qırxbuğumu isə Gülzamana verdi:

— Gülazman qırxbuğumu Əliqaraya ver, qoy Şəhlanın sağlığına bir qırxbuğumplov nəbarı eləyək.—O bir daha uşağın yamaqlı geyimini nəzərdən keçirib sözünə davam etdi:—Şəhlanı anbara apar, gədəyə de ki, Şəhlaya bir top parça bağışlayıram. Qoy könlü nə istəsə, hansı topu seçsə, ona versin!

Gülzamanın gözləri güldü, Qonçanın əvəzinə sevnnib bəyimə dua etdi:

— Allah sənə ömür versin, bəyim, Fağır Qonçanın balaları bayrama təzə dən geyəjək...—Sonra sevinmiş Şəhlaya döndü.—Yeri, a bəxtəvər, baxtın gülüb...

Gülzaman qızı qabağına qatıb apardı.

Bəyim öz-taxtına doğru addımladı. Bir az əvvəl xiyabanı dolaşarkən cismən yorulmuş, könlü isə qanadlanmışdı. İndi Şəhla öz nobarı ilə bəyimi sevindirmək istəmişdi, ancaq onu neçə bir fikrə düçar edib getdiyini bilməmişdi. Bəyimin qəlbində el dərdi qövr elədi: «Bir deyil, iki deyil, hansına çara eləyəcəksən? Əlində

malı-pulu olanlar, imkan sahibləri eyşü işrətdə, kefdə, qumarda... Bir gecədə kim nə qədər uduzursa, onunla fəxr edir. Kim ova daha çox tazı aparırsa, kimin tulası daha baha qiymətə alınıbsa, onunla öyünür. Kim Tiflis əyyaşxanalarında daha çox qızıl qoyub gəlibsə onunla lovğalanır. Gecələri sübhədək çəngilərə çəpik çalırlar. Xalq isə... Yazıq bəyim, bir sən nə edə bilərsən? Etdiyini də nə gözdə görən var, nə bir qara pulcan qiymət qoyan. Gənc idin—gəncliyinə, gözəldin—gözəlliyinə, cəsurdun— igidliyinə, indi də hatəmiliyinə qibtə edirlər.

Cəsarətinə—qorxaqlar, əliaçıqlığına—xəsislər, təmiz ürəyinə—xəbislər həsəd aparır. Bu həsəd də nələr doğurmadı, nələrə bais olmadı? Aldığın tə’nə dolu məktublar, səni təhqir edən məsğərəli həcvlər əxlaqında bir nöqsan olduğu üçün deyil, səni başqa yolla ər meydanında, xalqa xidmət meydanında yıxa bilməyənlər, zəif yer tapdılar, sənə məhz bir qadın kimi hücuma başladılar! Qoy olsun! Sən ki öz qəlbin qarşısında, öz vicdanın qarşısında paksan, ləkəsizsən. Xidmət etdiyin bu yazıq camaat səni sevib qiymətləndirirsə, səni görəndə ömründə dərd-qayğı əlindən gülə bilməyənlərin tutqun üzünə nur çilənirsə, dolmuş gözlər işıqlanırsa bu sənə kafidir...

— Anbarın qapısına çatanacan şarindil Gülazman da, Əliqara da bəyimə cansağlığı didəyir, Fağır Qoqçanın əvəzinə sevinirdilər. Əliqara qapını açıb ürkək, ürəyi sevincdən çırpınan Şəhlanı içəri buraxdı.

Gülzaman yüngül əl hərəkəti ilə qızın kürəyindən itələyib:

— Hə, di seç bəyəndiyini,—dedi.

Şəhlanın gözləri dörd oldu. Uzun divar boyu düzülmüş qəfəslərdə cürbəcür mallar qoyulmuşdu. Hər qəfəsdə bir cür parça topu vardı: Hacımənəbax, zərxara, məxmər, qaymağı xara, alışdım-yandım, qanovüz, atlas... Qız bunlardan çoxunun adını bilmirdi. Yoğun ağaca sarınıb divara səykədilmiş üstü zər işləməli,

al, «iynəbatmaz, qayçıkəsməz» topu onu lap heyran qoymuşdu. Qız əli ilə onun bir ucuna toxundusa da yanında durmayıb ötdü: «Bu heç adamı qızdırmaz, əynində taxta kimi dimdik durar» fikri döyünən ürəyindən keçdi. Qəfəslərin alt mərtəbələrində yorğan-döşək üzlüyu, nökər-naib geyimi, fitrə-zəkat, sədəqə-təsəddüq üçün qoyulmuş bez, çadra, qədək, müxtəlif rəngli əlvan çit topları vardı. Qız əlvan zərli ipək və məxmərlərin heç birinə əlini vurmadı. Çit toplarına isə bir heyranlıqla baxdı... baxdı... Nəhayət, üzərinə iri al bağrıqara lalə çəkilmiş bir topdan yapışdı. Sevincindən qıpqırmızı kəsilmiş üzünü Gülzamanla Əliqaraya tutdu:

— Bunu istəyirəm, olar?

Əliqara iri, qabarlı əlini dizinə çırpdı:

— Pah atonnan!..

Gülzaman qızı ipək və xaralara tərəf itələyib «bunlardan seç» dedisə də qız, tutduğunu buraxmadı, götürdüyü çit topunu bir az əvvəl qırxbuğum bükülü dəsmal kimi bağrına basıb sözündən dönmədi:

— Bunu istəyirəm, mama...

— Naxırçı qızı naxırçılığın elər,—deyə Əliqara gülə-gülə Gülzamana döndü,—Gülzaman bajı, o bilir ki, ipəyi küllukdə geyə bilməyəjək...

Gülzaman da güldü:

— Elə bundan özjiyəzinə yaxşı tuman çıxar, a bəxtəvər. Bax, bəyimə sağ ol, de. Əlini öp... Yadından çıxartma, ha...

Onlar bəyimin otağına qayıdanda Gülzaman ayaq saxladı, bəyim öz-özünəz pıçıltı ilə yazdığını oxuyurdu:

**İlahi, görməsin gözlər, yaman gündür belə günlər,**

**Aman verməz qəmü möhnət, hamı pirü cavan ağlar.**

**Firavandır qəmim, şərhin bəyan etmək deyil mümkün**

**Yaz, ey müstövfiyi-aləm: müdam əhli-cahan ağlar.**

**Midad olsa əgər dərya, qələm olsa əgər əşcar**

**Başa yetməz qəmim şərhi, qələm hər ləhzə qan ağlar.**

Ayaq səsinə bəyim başını qaldırdı:

— Hə, Şəhla, gətir görüm nə seçmisən?

Şəhlanın əvəzinə Gülzaman cavab verdi:

— Başına dönüm, kül onun ağlına, bir top «vaxsey Xədicə» çiti seçib.

Sonra anbarda qızı başqa qiymətli parça seçmək üçün dilə tutmağını da gülə-gülə nağıl etdi. Bəyim kədərlə gülümsədi, «Yazıq Şəhla, aşıq gördüyünü çağırar—demişlər»,—deyə duşündü:

— Gülzaman, Qonçanın gedələri üçün bir top sətin də qoydur, bir az da bayramlıq yer-yemiş, özün bilirsən, neçə lazımdı yola sal.

Şəhla «vaxsey Xədicə» çiti əlində, tumanı ayağına dolaşa-dolaşa Natəvana yanaşdı, Gülzamanın öyrətdiyi kimi əyilib bəyimin əlindən öpdü:

— Sağ ol, bəyim mama...

Bu «bəyim mama» Natəvana verilən ən böyük hədiyyə idi.

* * *

İlaxır çərşənbə idi. Bu gün yeni il Novruz bayramı kimi evlərdə çox əziz tutulur. Bu gün bütün evlərdə varlı varından hazırlayır, təzə libas geyinir, ən əziz adamını qonaq çağırır, xonçalar düzəldir, şamlar yandırırdı. Əsil bayram uşaqlarındı. Onlar oğlanlıqızlı xınalı əllərində tutduqları əlvan yumurtaları oynada-oynada tonqal üstündən atılır, məş'əl yandırır, məş'əl fırladırdılar...

Fağır Qonçanın da evində bayram idi. Oğlanları təzə sətin parçadan paltar geyinmişdi. İlaxır çərşənbənin qəhrəmanı Şəhla isə «vaxsey Xədicə» çitindən tikilmiş donunda alışıb-yanan bir parça kimi ortalıqda fırlanırdı. Uşaqlar komanın qənşərində çərşənbə tonqalı qalayıb, axşamın ala-toranında üstündən atılırdılar:

**Ağırrığım, uğurruğum**

**Piləmbəri,**

**Baxtı bəri**

**Baxtım açılsın—**

deyirdilər. Şəhla qardaşlarına qoşulub, təzə tumanının ətəkləri yanmasın deyə balağını əlinə yığıb tullanırdı:

**Atıl-batıl çərşənbə**

**Baxtım açıl, çərşənbə...**

Evdə Fağır Qonça ayna kimi silinib təmizlənmiş mis məcməyidə çərşənbə yemişi hazırlayır, hərənin adına bir şam yandırırdı.

Ocaq da yanırdı, onun üstündə çərşənbə plovu dəm alırdı. Bu gün uşaqlar özləri üçün də qırxbuğum yığıb gətirmişdi: «Ana, bəyim mamanın sağlığına bizə də qırxbuğumlov bişir» demişdilər.

## ŞAİRƏ

**Əziziyəm mərdə mərd,**
**Kim deyər namərdə mərd?**
**Qiyamət o gün qopar**
**Baş əysə namərdə mərd.**

İstiyə düşməməkçün tezdən yola çıxmışdılar. Bəyim faytonun üstünü qaldırmağa qoymamışdı: «Qoy bir səhər-səhər nə qədər ki, gün yandırmır, dünyanı gözüm görsün»—demişdi. Yolun hər iki tərəfində saralmış taxıl zəmiləri uzanırdı. İl quraqlıq keçdiyindən zəmilərdəki taxıl çox sısqa idi. Ala-torandan biçinə çıxmış biçinçilər orağı bellərinə sarıdıqları qurşağa sancıb, yolpaları əllə yolurdular. Buna baxmayaraq onlar, nə bafa, nə dərz bağlaya, nə də xara vura bilir, yolduqları sünbülləri ot tayası kimi qalaqlayırdılar.

Biçinçilər arabir bellərini düzəldib durur, bircə parça bulud belə görsənməyən amansız göylərə baxırdılar. Bürkülü zəminin boğucu havasından qaralmış üzlərdən tər axırdı. Bu tərlər belə torpağı o amansız fəzadan «yaxşı suvarardı». Lakin artıq gec idi...

Biçinçilərin bir qismi İrandan, bir qismi İrəvan tərəfdən gəlmə idi. Onlar bura ailələri üçün qış ruzusu aparmaq ümidi ilə gəlmişdilər. Hər il biçdikləri on dərzə bir dərz haqq ala bilirdilər. İndi taxıl elə seyrək idi ki, on dərzin yerindən bir dərz belə çıxara bilmir, bu yolpa qalaqlarının necə hesablanacağını anlamırdılar. Ağrıdan belləri qırılır, susuzluqdan ciyərləri yanıb parçalanır,

dodaqlarından qan sızırdı. Onların köhnə, yamaqlı arxalıqları tərdən islanıb qaralır, patavaları qılpınla dolur, başlarına bağladıqları yaylıqlar onları günəşin yandırıcı istisindən qorumurdu. Arabir bellərini düzəldib duranda, düzəltdikləri kölgəliyə qoyduqları sovçalardan bir qurtum su alıb boğazlarını isladırdılar.

— Rəhmətlik oğlu, and-aman elədi ki, həmşəri, bu sovça suyu abi-kövsər kimi sərin saxlayacaq, dadaş, bu su döyül, cəhənnəmin «həmimi-gərmi»di... irin-qandı. İçirsən, adamın beyni çalxalanır.

— Həmşəri qardaş, sovça başına nə daş salsın. sovça satan yazıq neynəsin. Bu cəhənnəmdərədə adamın sümüyünün içində iliyi, kəlləsində beyni qaynayır. Sən sovçanı da, onu satanı da qınama. Mən dulusçu Rəhim kişini yaxşı tanıyıram, adam aldadan döyü, özü də Ağcabədidə onun kimi düz adam az tapılar, səhəngləri də yaxşı olur... Bir bax, qardaş, üstdən gün, böyürlərdən bürkü, yerdən qalxan od, su yox ha, lap qazanda yumurta qaynadar...

— Əh,—deyə bir başqası sözə qarışdı.—Su cəhənnəmə, təki taxıl yaxşı gəleydi, nə bunlar ac qaleydi, nə də biz evə əliboş qayıtmaya idik.

Görkəmindən bu gəncin biçinə ilk dəfə çıxdığı görünürdü. Qoca bir kişi daima tüstüləyən demisini sümürüb ona cavab verdi:

— Eh, ay Səməndər, elə hər şeyin başı suya bağlıdı. Su olsaydı, yazıqlar taxıllarını sulardılar, taxıl da belə, bərəkətindən uzaq yerdə bivec gəlməzdi.

Bir neçə dəfə biçinçiliyə gəldiyindən buralara yaxşı bələd olan birisi qonaqlaşdığı ev sahibinin dilindən danışmağa başladı:

— Deyirlər, Xan qızı Ağcabədidəki Govur arxını düzəltdirmək istəyir ki, buralara su çıxartdırsın...

Qoca Kəblə Rzaqulu demisini dişindən buraxmadan sözə qarışan biçinçiyə döndü:

— O kimdi?

— Qonağım deyir, Mehdiqulu xanın qızıdı, özü də çox kəramətdi zənəndi. Deyir şairdi, kasıb-kusuba da çox əl tutur.

— Eləsə allah ömür versin. Amma, mən ki hələ xandan, bəydən xalqa xeyir verən görməmişəm. Nağıllar da eşitmişəm, amma özüm görməmişəm.

— Yox, bu nağıl döyü, mən özüm keçənlərdə bir cümə axşamı Qalaya getmişdim. Vallah, axşam azanı, imarətin qabağında bir bölük əlsiz-ayaqsız vardı. Dedim «bu nə mə’rakədi?» Dedilər ki, Xan qızı hər cümə axşamı kasıb-kusuba, füqəraya qənddən, undan paylatdırır. Özü də üstündə durub göz qoyur ki, heç kəsi incidib, əliboş qaytarmasınlar.

— Lap özün gördün?—Sualı yenə də hər şeyə yetiklik edən gənc biçinçi Səməndər verdi.

— O Əlinin qəzəb oğlu Əbülfəzülabbasın qələm olan qollarına and olsun ki, öz gözümlə görmüşəm, doğru deyirəm. Lap elə belə gördüm, Kəblə Rzaqulu əmi!

— Olar da... Nə demək olar...

Kəblə Rzaqulu külək, günəş və zamanın aşılayıb mis kimi möhkəmlətdiyi üzünü cavan biçinçiyə tutdu:

— Səməndər, bir içim su ver, oğul!

Səməndər cəld qalxıb su gətirdi. Qoca, sovçanın qurtuldayan boğazını ağzına dayayıb başını geri əydi. Sonra sovçanı gəncə qaytarıb əlinin dalı ilə dodaqlarını sildi və yenə də demisini dişinə aldı. Qalın, bozarmış dodaqlar deminin müştüyünü daha da bərk sıxdı, sümürdü, deminin tüstüsü buxarlanıb yanan havada çox

zəif görünür, bütün bu tüstülənən aləmdə bir nazik şırım kimi burulub qalxırdı. Qoca başına ağ yaylıq sarıyıb uclarını boynunun ardında qoşalaşdırmış, kürəyinə sallamışdı. Büzməli arxalığının yaxasında, qollarında göy çadradan yamaqlar vardı. Gen şalvarınıi belindən bir cüt qotaz sallanırdı. Qoca əvvəl xam göndən tikilmiş çarıqlarını çıxarıb patavaları açdı, silkələdi, qılpınlardan təmizlədi. Sonra da başına bağladığı ağ yaylığı açdı. Yaylığa batmış qılçıqları çırpdı; onun başı alnından peysərinə doğru üç barmaq enində ülgüclə qırxılmışdı. Əmgəyində məhərrəmlikdə vurduğu xəncərlərin bir neçə çapığı ağarırdı. Kəblə Rzaqulu yaylığını yenidən səliqə ilə başına bağladı. Bütün bu əməliyyat zamanı demi onun damağında idi. Nəhayət, o sönmüş demini ağzından çıxardı, çubuğun gildən qayrılmış başını oturduğu yerdə kəsəyə çırpdı və külü boşaltdı, sonra da demini qurşağına sancdı.

— Ya allah,—dedi—durun, bala, dinclik bizə haramdı. Gün qalxmamış, öynəyəcən bir-iki vər də biçək, görək əlimizdən gələn qədər yolaq... sonrasına allah ərimdi.

Elə bu zaman zəminin qırağından keçən tozlu yolda bir fayton göründü. Ağır-ağır irəliləyən faytonun dal oturacağında oturmuş Xurşidbanu bütün ətraf kəndlərdə, zəmi və tarlalarda olub-keçənləri öz gözləri ilə seyr edirdi. Yola yaxın olan biçinçilərdən bəyimi tanıyanlar, onu görcəyin cəld qalxıb baş endirdilər.

— Bəyimdi... Xan qızı...

— Qənşərindəki qoca kimdi?

— Tanımırsan, Usta Muraddı dana! Xan qızı bulağını Sarıbabadan o çəkib. İndi də Ağcabədi Govur arxına baxmaqdan qayıdırlar...

— Allah bəyimin balaların saxlasın, su çəkdirmək çox savab işdi... Ömrü uzun olsun...

Pıçıltılar, danışıqlar adamlardan bir-bir ötüb Kəblə Rzaqulunun dəstəsinə də gəlib çatdı.

— Nə təmiz ürəyi var bəyimin. Sözünün üstünə gəlib çıxdı...

Səməndər yenə və hamıdan əvvəl maraqlandı:

— Kimdi ki?

— Bayaq dediyim Xan qızıdı... Şair... Deyirlər Govur arxına usta aparıbmış... Görürsən, Kəblə Rzaqulu, mən sənə düz demişəm bayaq.

— Nə deyim vallah, olanda olur da...

— Kəbleyi, şair nədi?—deyə sual verən, gözlərini faytondan çəkməyən yenə də Səməndər idi.

Kəblə Rzaqulu cavab verməyə çətinlik çəkdi:

— Vallah, nə bilim, bala, bir növ Rüstəm pəhləvandan danışan Rüstəmnamə kimi söz qoşanlara şair deyirlər...

Gənc, baxışlarını uzaqlaşan faytondan ayırmayıb, hansı bir ümid və arzu iləsə baxdı, baxdı... və yenidən biçinçi yoldaşlarına qoşuldu.

«Yoxsulların pənahı və mərdanə zənən» deyə qibtəylə ardınca baxırkən, sadəlövh gənc nə bileydi ki, Natəvanın başı üzərində qara buludlar toplaşır.

Əliqaranın gözləri dörd olmuşdu. Səhərdən bəri ha axtarırdısa da kəkilli ağ göyərçini tapa bilmirdi. Göyərçin bir parça yağlı tikə olub yoxa çıxmışdı.

Nə səhər dən verəndə, nə də haylayıb uçuranda gözünə dəymişdi. Ağ göyərçii Xanlıqdakı göyərçiilərin gözü idi. Hara ucsa, nə qədər uzağa getsə, tez də mənzilə qayıdırdı. İndisə gün-günorta olmuşdu, göyərçin yoxdu, "Əliqaranın qanı yaman

qaralmışdı. Bəlkə it-pişiyə, leyə, qırğıya rast olub, zavala gəlib. Qonum-qonşudan heç kəs ona dəynb toxunmaz. Kişi imarətin geniş həyətini, bağın xiyabanlarını göyərçini səsləyə-səsləyə gəzdi, əliboş keri qayıtdı. Lap elə qapının ağzında bir quş pırıltı ilə damdan onun çiyninə qondu. Qəfil pırıltıdan diksinən Əliqara əlini çiyninə atıb göyərçini tutdu. Bu o idi... Kəkilli ağ göyərçin. Amma quş elə bil əldən qaçmışdı, ürəkciyi kişinin əlinin altında döyünürdü...

— Hardaydın, ay zalım-zındıq, səni axtarmamış yer qoymamışam... Deyəsən yaman acmısan, nədənsə də qorxmusan, hə... Nə çırpınırsan?..

Birdən quşun ayağında kişinin əlinə nə isə sərt bir şey toxundu. Bu, bükülü bir kağız idi. Əliqara quşun ayağını kəsən qatmanı ehtiyatla açdı. Qatmadan azad olan kimi göyərçin pırıldayıb su qabına cumdu, sonra dənləməyə başladı. Sanki o, artıq vəzifəsini yerinə yetirmişdi.

...Əliqara əlindəki yazılı vərəqə baxa-baxa dururdu. Orada yazılanı oxuya bilmirdi, savadsızdı: «Bu nə olar? Bəlkə allah göstərməmiş—cadıdı? Gedim, aparım murdarlayım! Yox a, qoy oxudum, birdən dua-zad olar, günaha bataram. Yaxşı, bəs kimə oxudum? Mirzə Rəhim ağa burda olsaydı, ona verərdim. O da ki iki gündü bəyimin tapşırığıynan usta Muradı götürüb Ağçabədiyə gedib. Govur arxının xərcini hesablatmağa gediblər... Mehdiqulu ağa da Tiflisdən sabah qayıdacaq... Yaxşısı budur elə bəyimə aparım, evdədi. Bayaq Gülzaman deyirdi ki, bəyim tikmə tikir... elə də tə'rifləyirdi ki... Yazı yazsaydı, gedib rahatlığın pozmazdım... Tikməyə nə var... zənən işidi...

Doğrudan da, bəyim bu gün tikmə ilə məşğul idi. O qarış yarım eni, iki qarış uzunu olan mixəyi məxmər üzərinə gül dəməti salırdı. İş otağında nimdər üstündə əyləşmişdi. Əynində sadə ev paltarı vardı.

Qarşısındakı kətil və rəhillərin üstündə müxtəlif rəngln ipək saplar, güləbətin tellərn sarınmış çarxlar, gümüş nəlbəki və fincanlarda gül müncuq VƏ xırda mirvari dənələrn, incə yonulmuş fil sümüyu və sədəf parçacıqları vardı. Bəyim bütün bunlardan məharətlə məxmərin üstünə naxışlar açır, şe’rlərində tərənnüm etdiyi gülləri salırdı. Güllərin ləçəkləri sədəf və sümüklərdən idi, onlar elə zərif yonulmuşdu ki, təbii qərənfil ləçəklərinnn xırdaca dilimlərilə rəqabət apara bilərdi. Bu ləçəklərin ortasındakı erkəkcik və dişiciklər xırda, təmiz sulu mirvaridən, yarpaqları müxtəlif ahəngli yaşıl ipək saplardan, yarpaqların damarları qızılı güləbətin tellərindən tikilirdi. Bəyim öz e’cazkar sənətinə bərk uymuşdu...

Gülzaman onu işindən ayırdı:

— Başına dönüm, bəyim, Əliqara bir duadı-nədi tapıb... Ağkəkil göyərçin bu sabah itibmiş, indi hardansa uçub gəlib, deyir ayağına da həmin kağız bağlıymış... Deyir bəlkə duadı, ya da irağ-irağ cadıdı.

Bəyim maratlandı, qızılı toplu iynəsini qarşısındakı balaca yastıqcaya sancdı, gözlərini qapıya dikdp:

— Çağır görüm, bu nə əcaib-qəraib şeydi?

...Əliqara ehtiyatla əlində tutduğu kağızı qapıdan

Gülzamana uzatdı, Gülzaman da eyni ehtiyatla onu kişidən alıb bəyimə verdi.

Natəvan ilk sətirləri oxuyanda onu dəhşət götürdü... Rəngi qaçdı, oxuduqca nə qədər özünü saxlamağa çalışdısa da gözlərindən yaş axmağa başladı... Bunu görən Gülzaman əsdi:

— Sənə nə gəldi, bəyim, dərdin mənə?

Bəyimdən səs çıxmadı...

— Ay aman, ay allahı sevən, kömək edin, əşşi, evi uçulmuş, di qaç su gəti, evim yıxıldı, bəyim əlimdən getdi,—deyə Gülzaman səsləndi, üzünə əl qatdı...

...Xanbikə əlindəki bir piyalə su ilə içəri girənlə, bəyim qismən özünü toplaya bilmişdi. Qızının böyümüş gözlərini görəndə göz yaşları daha da artdı. Artıq özünü saxlaya bilməyib, mütəkkəyə yaslandı. Xanbikə cəld anasına yanaşdı:

— Can ana, bir qurtum su iç... Sənə nə oldu?

Məş’um kağızı hələ də əlindən buraxmayan bəyimin

solmuş titrək dodaqlarından bu sözləri eşitdi:

— Bu odur, o... onun iste’dadı, onun dilidir, Xanbikə...—Ay zalım.—deyə Natəvan qəlbinin gözləri ilə gördüyü müxatəbinə xitabla sözünə davam etdi:—Ay zalım, allaha asi idin, mənə nə üçün asi çıxdın? Mən sənə neynəmnişdim... Niyə mənn cahan içində rüsvay elədin? Niyə?

Qapının dalında, dəhlizdə özünü itirmiş duran Əliqara öz-özünü danlayırdı:

— Kaş verməyəydim, verəndə əlim quruyaydı. Deyən gərək, ay kövdən, apar cır at, cadıdı—mundarla qurtarsın getsin. Mən nə bilim axı, mən ölmüş yazı-pozu bilirəm? Dedim dua olar, ayə olar, günaha bataram. Sənə gələn mənə gəlsin, bəyim, allah mənim ömrümdən kəsib sənin ömrünə calasın, düşmənini xar eləsin. Bu nə iş idi mən tutdum?

Bəyim xəstə idi. Ona elə gəlirdi ki, can üstədi... Odur ki, aramsızdı. Bədbəxt və cavan ikən əlindən getmiş oğlu üçün yazdığı məşhur qəzəlin birinci beyti nə üçünsə dilindən düşmürdü:

**Varımdı sinədə dərdü qəmi-nihan, ölürəm,**

**Fəda olum sənə, gəl eylə imtahan, ölürəm.**

Üç gün üç gecə o beləcə yatdı. Gülzamandan və İrəvandan öz balaca balaları ilə birlikdə anasına qonaq gəlmiş Xanbikədən başqa heç kəs onun otağına girməyə cür’ət etmədi, heç kəs onu ovundurmağa söz tapmadı...

Bütün şəhər, bütün el bir-birinə dəymişdi. Quş quşluğuyla imarətə tərəf səkmir, bu dərin sükutu pozmurdu. Elə bil bağların quşları susmuş, ağacların xəfif pıçıltısı da dayanmışdı. İmarətə ölü sükutu çökmüşdü. Ev əhli də, nökər-naib də barmaqlarının ucunda yeriyir, bir-birləri ilə işarə, olsa-olsa pıçıltıyla danışırdılar. Evdə ağır mə’nəvi sarsıntı keçirən xəstə yatırdı... O, yuxusu ilə oyaqlığı mə’lum olmayan bir halda uzanıb qalmışdı. Bə’zən köpürmüş dodaqları nə isə pıçıldayır, sanki o, xəyalında kiminləsə danışır, bə’zən də hissiz kimi düşüb qalırdı. Bir neçə kərə onun pıçıltıları hıçqırığa çevriləndə, qapı dalında müntəzir dayanan Gülzamanın işarəsi ilə ağlamaqdan və yuxusuzluqdan gözləri qızarmış Xanbikə içəri girib anasının yatağı yanında diz çökür,başı üzərində əyilib deyirdi:

— Ana... Ana can...—O da təsəlli üçün söz tapa bilməyib anasına qoşulurdu.

Bir neçə dəfə Xanbikə, bəyimin sevimli nəvələri

Əkbər xanı və ya balaca Sənubəri içəri gətirmiş, bəlkə uşaqlar onu düşüncələrdən ayıra bildi, —deyə düşünmüşdü. Lakin xəstə, körpələrin başını zəif əli ilə tumarlamışdısa da, gözlərini açmamış, üzünü divara çevirmişdi. Uşaqlar anlamadıqları bu vəziyyətdən küskün və mə'yus sima ilə nənələrindən aralanmışlar.

...Bu üzücü hal nə qədər davam edəcəkdi, xəstəyə kim kömək edəcək, qırılmış şair ürəyinə tikmək üçün gərəkli sözləri kəm tapacaqdı? Bu suallara heç kəs ca vab verə bilmirdi: Natəvanın yaxın dostları imarətə gəlməsələr də hadisədən və bəyimin vəziyyətindən xəbərdar idilər. İlk addımı şairənin qoca müasiri Mirzə Sadıq Piran atdı.

Hadisənin dördüncü günündə o, imarətə gəldi. Xanbikə və Vəfanın həyəçanlı saqındırmalarına ənəmiyyət vermedən icazəsiz bəyimin xəstə yatdığı otağa daxil oldu. Qoca şairin ürəyi övkələndi. O, Natəvanın bu vəziyyətinə dözə bilmirdi. Lakin uzun ömrün insana bəxş etdiyi müdrik bir mətanətlə Piran aram-aram başmaqlarını kandarda çıxardı. Pəhlu qol arxalığının sarqmış qollarını çiyinlərindən geri atdı. Əsasını qapının küncünə söykədi. Tiflisdən geri qayıtdığı ikinci gündə ilk dəfə anasının otağına girməyə ürək eləyən Vəfanın müşayiəti ilə xəstəyə yanaşdı və gəncin saldığı döşəkcənin üstünə diz çökdü.

Uzun şiş papağını alnından bir qədər geri itələdi. Sözə başlamaq istədisə də bacarmadı. Ona elə gəldi ki, imarətə gələnəcən yol boyu ürəyində hazırladığı bütün sözlər, dəlil və sübutları unutmuşdur. Boğazını arıtladı, bir-iki dəfə astadan öskürdü. Arxalığının cibindən əl yaylığını çıxarıb tor basmış qırışıq alnını sildi, ağarmış qaşlarına, uzun ağ bığlarına və saqqalına əl gəzdirdi. Vəfaya çıxmaq işarəsi verdi...

Xəstə, yanına gələni hənirtisindən tanımışdı. Xəcalətdən, yer ayrılsa girməyə hazır olan qadın, zəif bir hərəkətlə qoca şairə hörmət əlaməti olaraq yerindən qalxmaq və yastığına yaslanıb oturmaq istədi. Piran mane oldu:

— Zəhmət çəkmə, qızım, tərpənmə... Biz elə ata-bala bu vəziyyətdə də danışa bilərik.

Ata-bala... göz yaşları xəstənin örtülü gözlərindən giləlvarnib, bircəkləri yapışmış yaş gicgahlarına süzüldü. Əsil bir uşaq kimi dodaqları büzüldü, yanaqları allandı.

— Ağla, eybi yoxdu, ağla, qızım, ürəyin boşalar, məni daha yaxşı dinlər və başa düşərsən.

— Mən onlara neynəmişəm?

Xəstənin dodaqlarından bu dörd gün ərzində başqasının eşitdiyi ilk sual bu idi. Bu sual da Pirana söhbətə başlamaq imkanı verdi:

— Heç bir şey.

— Bəs niyə məni dinc qoymurlar?

— Çünki sənin xalq üçün etdiklərini eləməyə qadir deyillər.

— Bilirsənmi həm də kim yazıb? Bu odur, onun qələmi, onun dilidir. Onun iste'dadıdır.

Ad çəkilməsə də, hər ikisi söhbətin kimdən getdiyini bilirdi. Odur ki, Piran dedi:

— Təəssüf ki, bu iste'dad xeyir əməllərə xidmət etmədi, qızım. Şair könül tikər, o isə könül qırdı. Cəlaləddin Rumi Rəhmətulla yaxşı buyurub: «Mey bexor, mənbər besuzo mərdomazari məkon!» həm də bir o deyil. Sən xəbis gözlərə iti bir bıçaqsan, bala! Sənin xeyir əməllərin pulunu «sərf etməyə yer tapmayanlar» üçün tə'nədir, tə'rizdir.

Xəstə kirpiklərini araladı, qocanın sözlərini aramla dinləməyə başladı. O isə bığlarına əl gəzdirib, sözünə davam etdi:

— Həm də bir düşün, bəyim, sənə irad tutanlar, sənin hakimlərin kimlərdir? Allahın böyük ne'məti olan iste'dadı—şe'ri xum küpü içində gömüb məhv edən şairmi? İki gecə-gündüz yuxu bilmədən bir oturuma yüzlərlə manatı, xalqın alın tərindən yığılan

tövculəri qumara uduzan, üzünun bir əzələsi də titrəmədən dərhal qumar kürsüsündən qalxıb ova atlanan «Yekəpər»mi? Hər obada, hər oymaqda bir gəlini gözü yaşlı qoyub, başqasına siğə-edən əyyaşmı? Sən bunlaramı özünü, öz böyük əməllərini qurban verirsən? Bütün Qarabağın, bütün bir elin fəxr etdiyi şairə Natəvan— Xan qızı, mən səni belə zəif bilmirdim. Bir də, sən özün onlara az yara vurmamısan. Xasay bəydən, sonra neçə Qala kübarı qapına elçi düşdü, getmədin, onlara meydan oxuyub ən sadə, ən fəqir bir adamı xan məsnədində oturtdun. Qızın Xanbikəni əli İran taxt-tacından üzülmüş Bəhmən Mirzədən tutmuş neçə-neçə Qarabağ xanzadə, bəyzadələri istədi: yenə da onu «Qarabağ eşşəyinə heyf deyil qonça dəhən?» deyib Şuşa bəylərini həcv edən irəvanlılara verdin. Bəyəm sən onlara az dağ çəkmisən? Onlar səninlə qohum olmaqla Qarabağ xanlığına əl ilişdirmək istəyiblər—qoymamısan. Bütün bunlar sənə az düşmən qazandırmayıb, qızım. Hələ fağır-füqəraya qahmar çıxıb onları içindən hökumət mə’murlarının neçəsini döydürmüsən? Bir belə düşmən birləşəndə nə gözləyirdin? Sənə can desinlər? Özünü niyə itirirsən?

Xurşidbanunun gözləri geniş açılmışdı. O, bir neçə gündən bəri qəlbini çulğayan, əzən suallara bu müdrik qoca şairin qırılmaz məntiqi ilə cavab alırdı. Qoca sual verirdi, lakin bu suallar əslində elə cavablar idi. Xəstə taqətsiz bir halda uzandığı yatağında dikəldi, sanki qoca şairin sözləri ona can verir, onu həyata qaytarırdı. O, yastığına söykənib, Piranın nurani simasına baxır, acgözlüklə baxır. gözlə görünməyən yaralarına məlhəm sürtən bu sözləri huşguş ilə dinləyirdi. Onun heç bir hərəkətini gözdən qaçırmayan Piran isə deyirdi:

— Bir də ki, sən tək deyilsən, qızım, bütün bir el sənə qahmardı. Biz sənin təzəcə eşitdiyin o cəfəngiyatı səndən qabaq eşidib qəzəbimizi bildirmişik. Görürsən ki, heç kəs başından qaçıb dağılmayıb. Şamaxıdan şairi-şəhir Hacı Seyid Əzim Şirvani,

Gəncədən Naci onlara elə bir cavab yazıb ki, daşlarını daş üstə qoymayıb. Dəymişləri durduğu yerdə kalları tökülüb. Qarabağın, Bakının, Kəncənin, Tiflisin ən mö'təbər adamları, ən hörmətli ziyalıları bu bəd əməli pisləyir. Utanma, başını aşağı dikib qızarma da, qızım. Qoy onlar öz pis əməllərindən utansınlar, necə də ki, utanıb xəcalət çəkir, etdiklərindən peşman olub təəssüflənirlər, heç kimin üzünə baxa bilmirlər. Bu iş onların alnında qara bir ləkədir.

Xəbərin belə bir sür'ətlə bütün elə yayılması bəyimi sarsıtdı, halını yenə də pisləşdirdi. Bu da Piranın nəzərindən yayınmadı. «Yazıq bəyim, mən zərbəni qəsdən vurdum, sonra eşidib yenidən sarsılınca, mən özüm dedim ki, birdəfəlik hər şeyə, üzüntüyə son qoyulsun, yazıq bəyim, sən nə biləsən ki, xəbər təzə yayılmayıb. Çoxdanın işidi. O, namərdlər həcvin üzünü köçürub gizlincə hər yerə yollayıblar. Çoxdandı hamı bunu eşidib, bir səndən başqa, yalnız sənə təzəcə çatıb...»

Piran son vasitəyə əl atdı:

— Bu gün cümə axşamıdı. Sənin sədəqə verən günündü. Dur öz işində ol... Sabah da «Məclisi-üns» toplanacaq...

Qadını dəhşət götürdü:

— Bacarmaram...— deyə fəryad etdi.

Qoca təmkinli bir tə'kidlə səsləndi:

— Bacararsan, bacarmalısan! — Sonra nəvazişlə dedi:—Sən mənim dərdə dözümlü, mərd qızımsan. Yadından çıxarma ki, bir mərd qadın yüz namərd kişidən əfzəldi.

— Məni çox da danlamayın, Mirzə. Mən çox dözmüşəm, əgər bu birinci dəfə olsaydı, yenə də dözər, mərdanə durardım. Amma o qədər qeybət, tə'nə, tə'riz eşitmişəm ki... Bu həcv son damla oldu, səbir kasamı daşdırdı.—Şairə yenidən qəhərləndi.—

Onlar bir mənə sataşsaydılar... Axı, qızı da, Fatma xanımı da, uşaqları, dostlarımı da mənə qatıblar...

— Bilirəm, namərdin əlindən namərd işi gələr. Sən həmişə mərd olmusan, mənim balam, özünü üzmə, bu böyuk dərdi də başqa müsibətlərin kimi mərdanəliklə qarşıla.

Natəvan dikəldi ixtiyarsız pıçıldadı:

**Təsvir edən vücudim çəkmiş əlimdə sağər,**

**Dəf olmağa bu surət yox əldə ixtiyarım.**

Qoca Piranın ağarıb kol-kol olmuş qaşları altında bir cüt quyu dibindən görünən gözləri qaynayıb doldu. Yaxşı ki, Natəvan bu göz yaşlarını görəcək halda deyildi.

...Axşamın ala-toranı idi. Bağda xəfif bir nəsim əsir, ağacların cavan budağlarını yelləyir, onlar sanki həzin pıçıltılarla dünyagörmüş qoca şair Piranın sözlərini təsdiq edirdilər: «Sən tək deyilsən, bütün el sənə qahmardı. Çəkdirdiyin sulardan canlanan, əlinlə əkdiyin bu cavan ağaclar, bu güllər, çiçəklər də sənə qahmardı. Sənin yadigarındı, bəyim, sən tək deyilsən».

...Şairə doğrudan da təx dəyildi. Bu axşam burda, imarət hasarının həyətə baxan darvazası önündə bir qələbəlik vardı. Darvazanın iri gözlüyü açıqdı. Bu axşam darvazanın qarşısı təsəddüq almaq üçün gələnlərlə dolu idi. Onların çoxu bəyimə «söz qoşulduğunu» bilirdi, eşitmişdi. Lakin öz sadə qəlbilə bura, məhz bu gün, sədəqə üçün deyil, heç bir xəbis sözə inanmadıqlarını, bu qapıya onun sahibinə sədaqətlərini bildirmək üçün gəlmişdilər... Odur ki, onlar mehribancasına bəyimə yanaşıb onun lütfkar əlini xüsusi bir nəvaziş və ehtiramla öpürdülər.

Xan qızı Natəvan isə daimi yerində durub, cümə axşamı payını paylayanlara nəzarət edir, heç kəsin əliboş, incik qayıtmamasına, məhz gərəyi olan şeyi ala bilməsinə göz qoyurdu.

**Sənin vücuduna vəbastədir qəbailü qövm**

**Son olmasan olara yox ümidi-nan, ölmə.**

Natəvan, Piranın bu beytini xatırladıqca, dirçəlir, qapısına «ümidi-nan» üçün gələn dul arvad və yetim uşaqların minnətdarlıqla onun əlindən öpüb getdiklərini görüncə qəlbi sakitləşir, dil yarası ilə sökülmüş ürəyi qaysaqlanırdı.

...Aralıda dilak üçün gəlməyən bir neçə tamaşaçı arasında öz qərib görkəmi ilə seçilən Saməndər də vardı. Gənc biçinçi bu gün buraya Kəbla Rzaqulunun nağıllarda eşidib, öz gözüylə görmədiyi «mö'cüzəni» görməyə gəlmişdi... Gördükləri onun qəlbini bir ümidlə doldurmuşdu...

...«Məclisi-üns»ün növbəti yığıncaqı öz adi qaydasında, öz adəti vaxtında, böyük qonaq otağında başlamışdı. Divarlar boyu salınmış döşəkçələr üzərinndə Mirza Sadıq, Piran, Mirzə Rəhim Fəna, İsgəndər Rüstambəyov, Məmo boy Məmai, Ağahəsən Yüzbaşızadə, Mehdiqulu xan Vəfa, Mir Həsən, Xanbikə və başqaları oturmuşdu. Məclisin baş tərəfində Natəvan əyləşmişdi. O da gəlin Xanbikə kimi yüngül yaşmağını üst dodağından da yuxarı çəkmiş, qara haşiyəli ağ kəlağayısını gözü üstünə endirmişdi. Onun solunda ilk nəvəsi Əkbərxan, sağ dizinin üstündə isə təzəcə dil açmış Sənubər oturmuşdu. Məclisdə hələlik dərin bir sükut vardı. Natəvanın ağır vəziyyətini dərk edən məclis əhli sözə hardan başlayacaqlarını bilmirdi. Yenə də Piran dada çatdı:

— Başını dik tut, bəyim, təəssüf ki, Şərq şe’rini çox geri qoyan həcvguluq öz üfunətli nəfəsini sənə də toxundurdu. Amma sən başını dik tut. Çünki o zərbə bir sənə yox, burda oturanların hamısına dəyib. Biz də müqəssirik ki, səni qəzanın bu acı qamçısından qoruya bilməmişik. Başını dik tut!—deyə qoca şair bir də qətiyyətlə təkrar etdi.—Utanma, bəyim, düşmən burda deyil, imarətdən kənardadı və məğlub olduğunu da yaxşı bilir. Burdakılar sənin hər bir qəzəlini bir neçə nəzirə ilə qarşılayan sadiq dostlarındır.

Tilsim qırılmış, lazımi sözlər tapılıb deyilmişdi. Elə bil məclisdəkilərin çiynindən ağır bir tabut düşdü. Piran «Məclisi-üns» üzvlərinin ürək sözlərini deyir və aradan əzici sükutu qaldırırdı. Məclisdəkilər bəyimin dikəldiyini görüb azad nəfəs aldılar. Sanki səssiz, gizli bir razılığa gəldilər: bu barədə ilk və son dəfə danışılır, şairə yaraşmayan bu ədəbsiz hadisəyə son qoyulur və mümkün qədər unudulur.

Məclis öz adi qaydasına düşdü. Bu gün onlar Füzulinin bir neçə qəzəlini oxuyub təhlil edəcək, bacardıqca ona bədahətən nəzirələr, bənzətmələr söyləyəcək, həm də yaxınlarda Şamaxıdan «Beytüs-səfa» məclisindən Seyid Əzimin göndərdiyi bir qəzələ cavab yazacaqdılar.

Əvvəlcə Fuzulidən başladılar. Qəzəli təbii və ahəngdar bir səslə şair Mirzə Rəhim Fəna oxuyurdu...

Füzulinin ölməz qəzəlləri səsləndikcə xəyal bəyimi ilhamın qanadlarına alıb sənət göylərinə qaldırırdı. O, qəlbində yeni misralar, yeni beytlər düzdükcə düşünürdü: «Mənim elim nə çox qadın şair və aşıq yetirib? Təkcə Qarabağda, şe’rin, musiqinin beşiyi olan Şuşada Aşıq Pəri, Ağabəyim ağa, Fatma xanım Kəminə, bir az mən, balaca Xanbikə. Bu qadınları şe’r qoşmağa, öz ələm və qüssələrini şe’rlə ifadəyə nə məcbur edib? Qarabağın gözəl ab-havasımı? Qadın əsarətimi? Atılan tə'nə oxlarımı?

**Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı,**

**Nə də bu aləm ara dil müqəyyədi-qəm olaydı...**

**...Nə ah olaydı, nə əfsus, nə parə-parə könül...**

Onun para-para olmuş ürəyindən ah qopdu, zamanın onlarla yara vurduğu qəlbində bu son yara da dərin bir iz qoydu...

«...Pəncərə dalında, bağdakı ağacları həzin-həzin sızladan o külək bəs nə deyir, nə pıçıldayır? Qadınlığı, mənim dərdlərimimi, əməllərimimi, kimsəsizliyimimi? Yox, qoca Piran dedi ki, sən tək deyilsən, kimsəsiz deyilsən...». Bu flkirlərlə şairə, bünövrəsini qoyduğu «Məclisi-üns»ün üzvlərini nəzərdən keçirdi. O burda oturan şairlərin neçə-neçə yeni əsərlər yazmasına səbəb olmuş, hər dəfə bir təzə qəzəlin, ya müxəmməsin meydana çıxmasına kömək etmişdi. O, xəyal aləmindən məclisə qayıdıb Füzulinin ölməz dühasından xəbər verən Fənanın ahəngdar səsini dinlədi: «Yox, mən tək deyiləm,—«Məclisi-üns» yaşayır... Mən tək deyiləm— hələ cümə axşamları «ümidi-nan» ilə gələnlərin ayağı kəsilməyib... Mən tək deyiləm—gərək Govur arxı da «Xan qızı bulağı» kimi abi-kövsər çeşməsi olub axsın! Susuzluqdan çadar-çadar olmuş torpaqlara can versin, vətənimi behiştin bir guşəsinə çevirən bağlara-bağatlara həyat bəxş etsin. Mən tək və zəif deyiləm—Təbriz şairi Dərviş məni Natəvan deyil, Təvana adlandırıb!..»

«Məclisi-üns»ün məşğələsi davam edirdi...

Ermənistanın Amasya rayonunda Oxçuoğlu kəndində şirin söhbətlərini məftunluqla dinlədiyim Ağüzümlü, 124 yaşlı Şma nənəyə hörmətlə ithaf olunur.

# MƏN GÜNƏŞİN TELLƏRİNİ...

**Ağbabada yağdı qar**

**Amandı, pərvərdigar!**

**Bir yanıma qar yağıb**

**Bir yanımdan köçdu yar.**

(Qarapapaqlarda «Nanay» adlandırılan xalq mahnılarından)

## Qarapapaq qəbiləsinin qızı

Hamı onu Şma adlandırırdı. Böyük də, kiçik də. Qocalar deyir ki, o bizim tayfadan deyildi, rəhmətlik əri karvanla Şirvan mahalına kəlağayı, ipək gətirməyə gedəndə Şirvan mahalımda görüb, bəyənib. Əsil adı Kəbutər imiş, düşdüyü evin uşaqları, qız-gəlini onu «Şirinbacı» çağırıb, sonra da bu Şirinbacı uşaq dili ilə çevrilib olub Şma. O vaxtdan neçə illər keçib, neçə qərinələr ötüb, arvadın yaşı yüzü addayıb, amma bütün Qarapapaq qəbiləsi böyüklü-kiçikli yenə də onu Şma adlandırırdı. Arvad isə bu adda incə bir mehribanlıq, yaxınlıq, məhz uşaq dodağından qopan məhəbbət duyduğu üçün onunla fəxr edir «mən hamının Şmasıyam» deyirdi. Şma bu kəndə gəlin gələndən bəri köhnə sənətini—xalça toxumağını unutmamışdı. Elə gözəl xalı-gəbələr, heybələr, yəhər üzlükləri, yorğan döşək yığmaq üçün marfaşlar,

dəvələr üçün kapanlar, laylar toxuyurdu ki... Onlara yalnız özünün bildiyi üsulla iplər boyayır, naxışlar vururdu. Bə'zən səhərlər əlində mis xeyri örüşə çıxan malların dalınca gəzir, at-mal sidiyi yığır, sonra da hardansa gətirtdiyi sarıtorpağı, quzuqulağı kötüyü ilə qarışdırıb ipləri sarı rəngə boyayırdı. Qara rəng almaq üçün şirin nar kazalı, zəy. qaratorpaq və arpa yanıqıkdan. al rəng almaq üçün boyaq bitki kötüyündən, narıncı ip boyamaq üçün soğan qabığı ilə südəmə külünün götüyündən istifadə edirdi. Şmanın boyadığı iplərdən toxunan xalçaların rəngi solmur, zaman keçdikcə daha da gözəlləşir, işləndikcə daha da açılır, təravətlənirdi. Bütün bu gülləri, çiçək kötüklərini o, günlərlə gəzdiyi dağlardan, dərələrdən, yaylaqlardan yığırdı, ya da saysız-hesabsız nəvə-nəticəsini, kötücə və nəbibələrinə toplatdırırdı.

Şma çox qocalsa da gözləri fərdən, ayağı girdən düşməmişdi. Hələ də şax yeriyirdi. Əyninə Qarapapaq qadınlarına xas olan tuman, uzun əntari-köynək geyib, başına iri dingə vurmur, hələ də vətəninin dəbini saxlayırdı.

Qarapapaqlar bu ətrafda bir neçə kənd idi: Ağüzüm, Oxçuoğlu, Boğazkəsən, Qannıca, Güllübulaq, Qızıldaş. Kəndlərin hamısında Şmanın qohum-əqrəbası vardı. Bunlar ya onun oğlu, qızı, gəlinləri, kürəkənləri, nəvə-nəticəsi, ya da qayını, baldızı uşaqları idi. Qoca Şma bu böyük nəslin, demək olar ki, bütün üzvlərini tanıyırdı. Hər bayram cavanlar qonşu kəndlərdən Oxçuoğluna—Şma nənənin yanına bayramlaşmağa gəlir, bacardıqlarından pay gətirirdilər. Kəndlərin hansında toy olsa, nişan olsa, ya hüzr yeri düşsə Şmanı ağbirçək kimi ora də'vət edir, dalınca araba göndərir, arabanın banları arasına yumşaq ot, küləş töküb üstünə döşək salır, qarı üçün rahat yer hazırlayırdılar. Cavanlar Şma nənənin dalınca həvəslə gedir, arvad yolda inciməsin deyə, arabaya ən rahat, dinc öküzlər qoşurdular. Axı, Şma nənə onların da toylarında «ağbaşdılıq» edəcək, toy aşı bişirilməsinə, lavaş

yapılmasına, gərdək qurulmasına nəzarətçi olacaq, ağıllı məsləhətlər, xeyir-dua verəcəkdi. Cavanların ən yaxşı arzuları Şmanıi adı ilə bağlı idi.

Şmanın bir zəif damarı vardı. O, zinəti çox sevirdi. İri, üstü minalı, qırxdüymə sırğalarını qulaqlarından, həsiri bilərziklərini biləyindən, gəlinliyindən taxdığı təkqaş yaqut üzüyünü barmağından çıxartmazdı. Qocalsa da sürmədanla milçini əlindən qoymurdu. Hər gecə yatanda, sübh oyanıb əl-üzünü yuyan kimi balaca, naxışlı sürmədanın içində milçini qurdalayır, məşhur «cəfərdar» adlanan sürməni kirpiklərinin dibinə çəkirdi. Sürmə onun fəri azalmaqda olan xırda gözlərini bir qədər iriləşdirir, yaşaran kirpiklərini qurudub sıxlaşdırır, üzünün məlahətini artırırdı. Toylarda, gəlinlərin «xınayaxdı» məclisində xüsusi həvəslə iştirak edirdi. Gəlinlərin zərif ayaqlarında onun kimi al naxışlar açan az tapılardı. Bu zaman Şma nənə elə bil ki, əsil xalça toxuyan sənətkara çevrilir, xalçanın hamar ərişliklərindən seçib gəlinin baş və culu barmaqlarına ip atır, sonra ərişin uclarını hanada imiş kimi ayaq boyu çəkib, xüsusi tərzdə çarpazlayır və topuqlardan yuxarıda, dabanların dal qatında düyümləyirdi. Bundan sonra alınan məsamələrə yumşaq xınanı elə səliqə və qayda ilə yaxırdı ki, ayaq yuyulandan sonra xına ayağın üzündə və yanlarında al qızıl balıqcıq izləri qoyurdu. Şma bir çimdik şit yağı əlində ərkiiləşdirib xınalı yerlərə vurur və al rəngin şəfəqini daha da artırırdı. Naxışlar ağ mərmər hovuzda üzüşən xırda qızıl balıqlar kimi çırpışırdı. Ən axırda, Şma nənə mis piyalənin dibində qalmış xınanı özünə götürür, bunu bütün əlinə deyil, yalnız barmaqlarının dırnaqqarışıq son buğumlarına sürtür, arbircək mö’min arvadlara xas olan «fındıqça xına» yaxırdı. Şma nənə Qarapapaq qəbiləsinə mənsub olan bütün tayfalar arasında sevilirdi.

Qarapapaqlılar bir neçə tayfadan ibarətdi: «başmaqçılar», «söyləməzlər», «xılalar»... Bütün bunlar iri tayfa olmasa da,

aralarında qohumluq olsa da, birbiri ilə əlaqələri o qədər də möhkəm deyildi.

Xüsusilə az-çox dövlətli, arxalı hesab olunan «söyləməzlər» tayfası bütün qarapapaqlıların qənimi idi. Ən çox mal-qara, torpaq, Ağbaba və Güllübulaq yaylaqlarındakı ən yaxşı sulu otlaqlar da onların əlində idi. Yalnız «söyləməzlərdə» hər gülfətin öz dam evi vardı; daha kasıb başmaqçılar, xılalar kimi bir neçə külfət, böyüyüb artmış ailə, babadan qalma yarıqaranlıq bir daxmaya təpilmirdi. «Başmaqçı»larda ailələrin ayrılması müşkül iş idi. Bunun üçün ailə başçısı yeni evlənənlərə yer, mal-qara, daxma ayırmalı idi. Ona görə də çox vaxt ailə başçısının neçə oğlu vardısa hamısı evləidikcə bir evdə qalır, bə'zən əmilər, əmi oğlanları, bir neçə qayınata, qayınana, gəlin, övlad və nəvə iri bir dam evdə yaşayırdı Bununla belə ailələrdə ciddi bir intizam, böyük-kiçik qanunu mövcud idi.

Bu ailələrdə ən böyük bədbəxtlik gəlinlərin payına düşürdü. Axı, Qarapapaqlı gəlini indi belə külfətdə böyüklərlə danışmaq ixtiyarına malik deyil. Gəlinin səsini nə qayınata, nə qayınana, nə də özündən yaşlı olan başqa ailə üzvləri eşidə bilər. Ona görə də gəlin uzun illər «lal» qalır, o öz həmyaşı və kiçiyi olan baldızları ilə də yavaşdan, pıçıltı ilə, böyüklər yanında isə yaşmaq altında, yalnız işarə ilə «danışa» bilərdi. Bu yazılmamış, lakin möhkəm gözlənən qanun Qarapapaq ailələrinə bircə «səadət» gətirirdi: evlərdə söz-söhbət, belə böyük külfətlərdə labüd olan qayınana-gəlin dava-dalaşı üçün yer qalmırdı. Başqa kəndlərə xas olan qonşu arvad davası da Qarapapaq qəbilələrində mövcud deyildi. Burada sözün əsil mə’nasında gəlinin səsi yox idi, o, lal idi.

Qayınanası öləndə otuz ilin arvadı, bir neçə uşağın anası olan Şma nənə belə, qoca ölən günəcən yaşmağını burnunun üstündən salmamış, arvadla kəlmə kəsməmişdi. Qəbilədə belə gəlinlər olmuşdu ki, ər evində bir kəlmə də danışmadan ölmüşdü.

Bu gün Qarapapaq kəndlərindən birində—Oxçuoğlunda toy idi. Çalğı səsi aləmi başına götürmüşdü. Hamı bilirdi ki, bu gün «söyləməzlərdə» ən varlı-hallı kişi sayılan Ağarəsul öz bircə qızı Gülbutanı qardaşı oğluna ərə verir. Əzizbala bir qədər kəmfürsət, qarapapaqlarda deyildiyi kimi fərəməz olsa da, Ağarəsul iki səbəbə görə bu toya yox deyə bilməmişdi. Əvvələn, böyük qardaşı Ağamuraddan keçməmişdi. Ağamurad oğlunun fərsizliynni ya ata gözü ilə görməmiş, ya da eldən ona layiqli qız ala bilməyəcəyindən ehtiyat edib, qardaşını dar ayağına qısnamışdı.

— Balam,—demişdi,—qardaşux, atam atan, anam! anandı, özüm də özünun barabarı...

Cavabında Ağarəsul «oğlun qızımın tayı deyil» deyib üzə durmamışdı. İkinci səbəb də bu idi ki, el içində, arada-bərədə gəzən bə’zi sözlər Ağarəsula çatmış, qulağı söz çalmışdı: guya bu ac-uşağı ac olan. «başmaqçıların» gədəsi Səməndər, Ağarəsul kimi kişinin qızına göz qoyub, nə bilim daha nə olub. Qarapapaqda toy bahasından qorxan lüt arasında qız qaçırmaq köhnə dəb olduğundan, Ağarəsul üzə vurmasa da ürəyində qorxmuşdu. Axı, nə qədər ac-yalavac olsalar da «başmaqçılar» böyük nəsil idi... İçlərində bütün «söyləməzlərə» dəyən elə cahıllar var idi ki, nəinki, dilsiz-ağızsız bir qızı, lap elə Ağarəsulun özünü oğurlayıb apara bilərdi. Bu iki səbəbə görə də, Ağarəsul nə arvadı Səkinənin ah-ufuna, nə də bircə qızı Gülbutanın sakit axan göz yaşlarına məhəl qoymuş, ürəyində adlı igidlərdən yeznə tutmaq arzusu ilə yana-yana toy tədarükü görmuş, bir ucu İrandan, bir ucu Qarsdan, bir ucu da Tiflis və Şirvandan axıb gələn tacirlərdən almalısını almış, cehizini eləmiş və toyu başlamışdı.

Ətrafdakı altı-yeddi para qarapapaq kəndlərinin köçü Ağbaba və Güllubulaq yaylaqlarından təzəcə enmişdi ki, kəndi çalğı səsi bürüdu. Toya qədim adətcə hamı çağrılmışdı. Uşaqlı-böyüklü bütün kənd aləlvan bəzənib Oxçuoğluna toplaşmışdı.

Kəndi Arpaçayına doğru enən ensiz bir dərə ox kimi ikiyə bölürdü. Onun yarğanları üzəriidəki sol sahilində «söyləməzlər» tayfasından Ağarəsulun svi qabağında gəlin və qızlar əlvan novruz şamı kimi alışıb yanırdı. Dərənin sağ tərəfindəki «başmaqçılar» tayfasının evləri səssiz-səmirsiz, yuxu içində imiş kimi nəzərə çarpırdı. Buranın da qız-gəlinləri toya axışıb getmiş, evlərdə, daxmaların qənşərində tək-tük ahıllar qalmışdı. Ağarəsulludan görünməyən iş kimi, Şma nənənin dalınca xüsusi ağbircək gəlmişdi. Nə üçünsə kefsizliyini bəhanə edib toya getmək istəməyən Şma nənəni yarıxoş, yarıgüclə çəkib aparmışdılar.

...Səməndər kəndə çatanda eşitdiyi çalğı səsinə əhəmiyyət vermədi. O, üç gün əvvəl Güllübulağa qayıtmış, evdəkilərlə görüşüb Güllücə yaylağına qalxmış, burada heyvanata qulluq eləyən anası ilə bacısı Səməngülü Güllübulağa köçürmüşdü. Gülbutanın toyundan xəbərsizdi. Gəncin qəlbindəki sirri bilən çox azdı, duyanlar da ona acıdıqlarından bir söz demirdi. Yalnız bu gün səhər əhvalatdan xəbər tutan Səməndər, toya getmək bəhanəsi ilə bacısı Səməngülü də yanına alıb Oxçuoğluna yollanmışdı. Yol uzunu Səməngüllə Səməndər çox danışmışdılar.

— Qardaş, başına dönüm, dərd eləmə. Sən mənim gül qardaşımsan, dünyada kimin qızını istəsən sənə gələr, dədəm kimin qapısına getsə qızını razılıqnan sənə verər...

Səməndər boğula-boğula bacısının sözünü kəsmişdi:

— Bəsdi, Səməngül, məki cin atına mindirmə. Özün bilirsən ki, olan iş deyil. Mən onsuz ömrü neynirəm...

— Elə demə, ağrın mənə...

— Sənin heç nəynən işin olmasın, bircə Şma nənəni tap, əlini əlimə ver...

— İşə düşərsən, axı... Dədəm də, nənəm də yazıxdı, sənnən başqa kimimiz-kimsənəmiz yoxdu...

— Baş aparma, azz... Özün ki, bilirsən...

Qız ağlamışdı:

— Elə bilirsən mən daşam, qayayam? Mən Güllübu laqda yazıq Gülbutanı üççə gün əvvəl gördüm...

Səməndər bacısının əlindən bərk yapışdı.

— Necə gördün?

— Kafarın da balası o gündə olmasın. Üç gündü gəlmisən, özüm sənin qanını qaraltmayım deyin demirəm...

— De...

— Nə deyim axı, mən ölmüş? Deməlidi ki... Gözünün yaşını neysan kimi tökür. Deyir: Səməngül, mənim onnan başqa heç kimdə könlüm yoxdu. Nə qədər dədəmə, nənəmə yalvardım, olmadı. Deyir: əmim dədəmin iki ayağını bir başmağa dirəyib ki, öldü var, döndü yoxdu. Dədəmin əvvəl də heç Əzizbalaya razılığı yox idi... Sonra, deyəsən, qulağı nəsə çaldı... İndi az qalmışam, deyir, özümü Arpaçaya tullayam, birdəfəlik canım qurtara.

..Səməndər qızın əlini bərk sıxdı, Səməngül dözmədi, gileyləndi:

— Əlim qırıldı, qardaş, sənə qurban olum, insafın-mürvətin olsun, mən sənə neynəmişəm...

Söz də burda kəsildi. Səməndər irəlicədən duyduğu kili Şma nənə evdə yox idi. Qapısı kilidli idi. Mə’lum ki, toya aparmışdılar. Səməndər qarının qarasınca gileylənib, daxmanın qənşərindəki səki daşının üstünə çökdü: «Ay nənə, o gəlini mənimçün bəzəyəcəkdin, axı, özün də bilirsəi... bəlkə bilmirsən... yox sən hər şeyi bilirdin, nənə, necə qıydın?» Sonra Səməngülə döndu:

— Səməngül, gözünə dönüm, ayaq götür, özünü ora yetir. Əvvəl Şma nənəmi tap, yavaşca qulağına de ki, mən gəlmişəm.

Buradaca onu gözləyirəm. Nə işi varsa qoysun, bircə saatlığa bura gəlsin; mən oralarda görünə bilmərəm. Sonra da qız-gəlinə qarış, birtəhər özünü ona yetir, üsulluca de ki, qaş qaralandan sonra, əgər məndən üz döndərməyibsə, bircə hovurruğa ora gəlsin, gözləyəcəm.

— Hara?

— Özü bilir, sənin işin olmasın.

Qız dərənin o tərəfinə boylandı, qorxudan əsdiyini büruzə vermədən çalğı səsinə tərəf getdi.

...Gəlinlər, qızlar hələ Ağarəsulun evində şənlik edirdilər. Bu gecə Şma nənə gəlini xınalayacaq, sabah da bəzəyib əri evinə aparacaqdılar.

İndi isə Gülbuta evin yuxarı başında divar boyu qurulmuş taxtın üstündəki deşəkcədə oturmuşdu. Qarapapaq qızlarına məxsus milli geyimi ona çox yaraşır, qızın təbii gözəlliyini daha da artırırdı. Əyninə qırçınlı al tuman, üstündən narıncı uzun əntari, onun da üstündən kürdüyəoxşar abı, qısa don geymişdi. Al kəlağayısını alnına iri dingə şəklində sarımış, uzun sıx qara saçlarını uca gərdəninin hər iki tərəfiidən döşünə salmışdı. Dağ havasında böyümüş qızlara məxsus olan üzünün ağı dumduru ağ, qırmızısı qırmızı idi. Zərif burnunui sağ tərəfində balaca, zil qara bir xal görünürdü. Uzun, azacıq qıvrım kirpikləri ala gözlərinin rəngini tünd göstərirdi. Gülbuta öz gənc qız görkəmi ilə o qədər incə, o qədər gözəl idi ki, baxanlar ona əllə toxunub, həqiqi insanmı, xəyalmı olduğunu bilmək istəyirdi. Kandarda çırmalı qollarını irəli uzadıb durmuş ana, qızının üzünə elə bir məhəbbətlə baxırdı ki, elə bil onu birinci dəfə görürdü... «Aman allah, sən özün bəd nəzərdəi saxla»—deyə düşünən Səkinə, cəld taxçaya yanaşıb torbadan bir ovuc üzərlik və atil-batil xışmaladı. Həyətdə gurlayan ocaqdan götürdüyü bir xəkəndaz gözün üstünə səpdi. Tüstülənən üzərlik və atil-batilin xoş ətri ətrafı bürüdü.

Bunu görən arvadlardan birisi ərklə Səkinəyə sataşdı:

— Buy, əndəmində ərisin, gərdəyində qarısın! Pis gözə bıçaq batsın, kimdi Gülbuta kimi cana gözü dəyən, azz... gözümüzü tüstü ilə acışdırma. Ağabacı ana, qızı Mina, özü Sona, nəzər dəyməsin ona...—deyə güldü.

Şma nənə dilləndi:

— Dəymə, adətdi, qoy tüstülətsin, üzərlik olan evdən xata-bala uzaq olar. Bir də, ay arvadlar, üzərliknən atil-batilin iyindən elə xoşum gəlir ki, qınamayan olsa, gündə tüstülədərəm.

Qızlar isə Gülbutanın qarşısında həvəslə rəqs edir, əl çalır, Qarapapaq adətincə hər içəri gələni, hər hadisəni, qərəz hər şeyi bir «nanay»la qarşılayırdılar. Bu anda oğlan bacısı əlində xına islanmış iri bir mis dəhmərdə olduğu halda içəri girdi. Qızlar nanayı qızışdırdılar:

**Çıxdım aya baxmağa,**

**Qapıya kilid taxmağa,**

**Oğlan xına göndərib**

**Qız əlinə yaxmağa.**

Əzizbalanın bacısı Pəri ağ, yumru bədəninn yırğalar-yırğalaya içində xına islanmış dəhmərdəni başına qoyub ortada hərləndi və qızlara cavab qaytardı:

**Ay da ulduzui nəri,**

**Xiyar, qarpızın təri,**

**Gəl alım xan qardaşa**

**Olum baldızın, Pəri.**

Qızlar gülüşdü. Əzizbalanı «xan qardaş» adlandırmaq hamıya gulunc gəlsə də, şənlik bu hissi boğdu, Gülbutanın dostlarından Gülzada vəziyyətdən çıxmaqçın, qapı qənşərində toy hazırlığı ilə məşğul olan gənclərə—göy çuxa, şatrı, şirazı, qızqaytaran çarıqlar geymiş cavanlara baxdı, gülə-gülə əllərini qızlara uzatdı: «Şatrı çarıq, sürməyi bağ, göy çuxa yandırdı məni»—deyə qəhqəhə çəkdi. Qızlar da Gülzadaya qoşuldu; onlar əl-ələ tutuşub yallı getməyə başladılar. Qarapapaq qızları yallını gənclərdən gözəl gedir və başgedən Gülzada adəti nanay oxuyurdu:

**Yallı yallının bəndi,**

**Yallı bürüdü kəndi,**

**Pul verin, satın alın**

**Yarım oturan kəndi.**

Yallı qızışırdı. Həyətdə isə Şma nənənin bardaş qurub otuduğu səkinin qabağında arvadlar xəmir yayır, lavaş çəkir, kişilər qoyunları kəsib soyur, cavanlar ocaq üçün yer qazır, qab-qazan hazırlayırdılar. İçəridən sərpayının məclisi qızışdıran səsi eşidilirdi:

— Əl çalmayanın əli qurusun, suya gedəndə beli qurusun, danışanın dili qurusun.

Şırıqqa səsi ucalır, arabir eşidilən xırda söhbətlər kəsilir, məclis daha da şənlənirdi.

Səməngül, toy yerində olsa da bir qədər mə’yus oturan nənəsinə arxadan yanaşıb, boynunu qucaqladı. Şma qarı əvvəl Səməngülü tanımadı, onun toya gələn əqrəbasından biri olduğunu və görüşünə gəldiyini düşündü. Sonra qızın yaşmaq üstündən qızarmış gözlərini görüb səsləndi:

— Burdasan, haçan gəlmisən?

Qız pıçıldadı:

— Elə indi, nənə, o da gəlib... Sənin evinin qənşərində oturub yolunu gözləyir.

Arvadın ürəyi atlandı. Çoxdan bildiyi bu sirrin açılacağından, arada xata-bala çıxacağından qorxub, qızın əlini ehmalca sıxdı:

— Yaxşı,—deyə pıçıldadı.—Sən işinə get.—Sonra özünü toplayıb, başı xəmirə qarışıq olan arvadların arasında hərlənən Səkinəyə tərəf döndü:—Səkinə, qızım, mənim bir balaca işim var, siz lavaş çəkməkdə olun, mən dəyib qayıdıram.

— Yaxşı, yaxşı...

Qarı sinninə yaraşmayan bir cəldliklə əlini yerə dayayıb qalxdı.

...Evə çatan kimi nəvəsinə o qədər də məhəl qoymadan boynuna taxdığı qara qaytanın üçündakı açarla qapını açdı və içəri girdi, otaq yarıqaranlıq və sərin idi. Tələsdiyindən, yolu təngnəfəs gəldiyindən bərk tərləmişdi. Əlini divardakı mıxçaya atıb dasmalı aldı və çarğatı altından boynunu, sinəsini, sonra da alnının tərini sildi. Qapı ağzında ayağının birini götürüb birini qoyan Səməndərə döndü:

— Gəl içəri, aşıq necə deyib:

**Mən aşığam o duzağ,**

**O cənnətdi, o duzağ,**

**Səməndər fikirli aşiq**

**Olmaz səndən od uzağ.**

Şma nənə Güllübulaqda ərdə olan sonbeşiyinin bircə oğlu Səməndəri çox sevir, əzizləyirdi. Odur ki, gəncin bütün işlərindən xəbərdar idi. Keçən qış boyu onun tez-tez Oxçuoğluna gəlməsindən alınmış, özü demişkən «dalağı sancmış», nə isə duymuşdu. Gəncin buralarda tez-tez görünməsindən duyduqlarını isə arada-bərədə gəzən sözlər də təsdiq etmişdi. Nəhayət, qarı hələ yaylaqda ikən nəvəsinin Gülbutanı sevdiyini yəqinləmişdi: «Can bala, canım bala, bəylə bostan əkənin tağı çiynində bitər, deyiblər. Ağarəsullu bizə qız verməz. Amma sevdiyin gözəl canlara dəyər» deyə düşünmüşdü. Qış günlərində Səməndərin onu gəlib gördükdən sonra geri qayıtmağı axşama salması qarını çox qorxutmuş, «allah əsirgəsin, bilib eləyən olar, Ağarəsullu balama sədəmə toxundurar» deyə yuxusuz, narahat gecələr keçirmişdi. O, Səməndərin məhz Gülbutanı görmək üçün bu aralara ayaq açdığını, onların haradasa görüşdüyünü bilirdi. «Yerin də qulağı var, onda ki qaldı arvadlara!.. Arvad bilməyəni, nəüzbillah, allah da bilmir». O, bir neçə dəfə üstüörtülü, aradakı pərdəni götürmədən nəvəsini danlamışdısa da Səməndər qızarmış, bir söz deməmiş və ayaq da çəkməmişdi.

Nəhayət, qarı dilləndi:

— Oğul, dərdini bilirəm, elə o bədbəxt qızın da günü gün olmayacaq, amma çox qorxulu işə ayaq qoyursan. Niyə gəldiyini, məni niyə çağırdığını deməsən də bilirəm. Amma gərək bu ayaqda sənin iki başın ola, birini qurban verəsən. Gərək sənin arxan dağ ola, çibin dərya. Hanı bizdə o tavana, oğul? Dədən-nənən bilir?

— Yox, bilməsələr yaxşıdı...

— Yaxşı məsləhətdi... Avazın yaxşı gəlir, oxuduğun qur’an olsa...

Nənə ilə nəvənin söhbəti uzun çəkdi...

## Sevənlər

**Ağbaba yolu fərman,**

**Torpağı cana dərman,**

**Yardan bir xəbər aldım**

**Yarı dərd, yarı dərman.**

Səməndər Gülbutası ilə Oxçuoğlunda yaşıdı və yeganə dostu olan çoban Əsgərin komasında görüşməli idi. Bu görüş birinci deyildi. Çoban Əsgər Ağbaba və Güllücə yaylaqlarında iki ildən bəri dönə-dönə bu görüşlərin şahidi olmuş, dostunu bu «bitməyən sövdadan» qaytarmağa çalışmışdısa da baş tutmamışdı. İrəlidə qış aylarında, hər yeri qar-çovğun basanda Səməndər ayrılığa dözməmiş, bir neçə dəfə Oxçuoğluna gəlmiş və Gülbutaya necə xəbər verə bilmişdisə, burada Əsgərin komasında sevdiyi ilə görüşmüşdü...

Qaraçıraq evi zəif işıqlandırırdı.

İndi onlar qarşı-qarşıya dayanmışdı. Vaxt az idi, onlar qəti ürək sözlərini bir-birinə deməli idilər. Amma tayfanın yazılmamış adəti Qarapapaq qızına danışmağı yasaq etdiyindən Gülbuta gözlərini əllərinə dikib durmuşdu Nə deyəcəyini, nədən başlayacağını bilmirdi. Əntarisinin qolunu didişdirə-didişdirə durmuşdu.

Səməndər dözə bilmədi, bu qədim adəti bilsə də, indi ürəyi partlayırdı. O, qızdan mütləq cavab almalı idi. Onun da, Gülbutanın da taleyi bu cavabdan asılı idi:

— Gülbuta, azz... indi o vaxt deyil... dəvəçiynən sözdəşmişəm. Şma nənəm də dedi ki, ayrı çarəniz yoxdu. Getsə apar. Bir az xərclik də verdi. Qarapapaqda on qızdan beşinə toy elənmir. Qız qaçırmaq dəbini biz ki qoymuruq. Yüz kasıb yüz qız aparır. Nə bizdə tavana var, nə dədəndə insaf. Səni mənə verməzlər.

Gülbutanın kirpiklərindən süzülən yaşlar getdikcə allaşan yanaqlarına, oradan da çənəsinə yuvarlandı. Qız hıçqırmır. elacə səssiz, həzin ağlayırdı.

— Ürəyimi odlama, azz... Dədən səni, iki dünya bir olsa mənə verməz.

Ağbaba çiçəkləndi,

Gün vurdu göyçəkləndi,

Başlandı toy yuxası Ayrılıq gerçəkləndi.

Qızın göz yaşları artır, yuvarlanan gilələrin sayı çoxalırdı. İndi onun üzü, çənəsi islanmışdı. Qız dingənin alt ucu ilə çənəsini sildi, yenə də dinmədi.

— Dillən, Gülbuta, sənsiz mənə bu böyük dünyamız cəhənnəmdi, hə deməsən, səni zornan aparmaram. Mən sənin ürəyini qırıncan, əlimi qıraram. Dillən axı... Anama gəlin olmaq sənə qismətdimi?

«Anan məni harda görəçək, a zalım? Həm özünü, həm də məni anasız qoyacaqsan, həm özünü, həm məni bu güllü yaylaqlarımıza həsrət qoyacaqsan, həm özünü, həm məni qurbətə salacaqsan. Qarşıda qəriblik görünür, a zalım!» Sözlər

ürəkdə deyilirdisə də, qəlblərdən birbirinə yol vardı. Gənc, sevgilisinin nələr düşündüyünü bu al yanaqlardan, titrək dodaqlardan, bulaq kimi qaynayıb daşan gözlərdən duyurdu:

— Qürbət səni qorxutmasın, Gülbuta. Allah var, rəhmi də var. Mən Şma nənəmə də demişəm. Göydə allaha, yerdə bəyimə ümidimi bağlamışam.

«Bəyim kimdi, Səməndər, o kimin qızıdı?» Sualı birdən qırpınıb titrəşən gözlər verdi. Gənc nəzərini Gülbutanii üzündən çəkmədən, bu qapalı kitabı ürəyinin gözləri ilə oxuyur, cavabını da verirdi. İki il idi ki, bu baxışlarla danışmağa, uzaqdan-uzağaonlardakı sualı oxuyub, cavabını da vermeyə adət etmişdi:

— Bu yay Qarabağa biçinçiliyə getdiyimi ki, bilirsən. Orda əlsiz-ayaqsızların, bizi kimilərin pənahı Xan qızı var. Hamının dadına çatır, neçə-neçə aman istəyənlərə pənah olub. Ona ümid eləyib, səni ora aparacam... Hə, nə deyirsən, azz, vaxt keçir, bir az sonra ay dağar, dəvəçi də çıxıb gedər. Sonra iki ol bir təpə qallıq.

Oğlan ürkək bir hərəkətlə qızın barmağından tutdu, elə bil çoban Əsgərin soyuq evinə ılıq bir nəfəs dolub hər ikisini isindirdi. Gülbutanın geri yolu yox idi...

...Səməndər dəvəçini sözləşdiyi yerdə tapmadı. Gecə qaranlıq idi. Ayın çıxmasına hələ var idi. Fəzanın qaraca dərinliyində tək-bir ulduzlar sayrışır, sanki həvəslə bir-birinə göz qırpırdılar. Gecənin mübhəm sükutu dərindi. Yalnız Səməndərlə Gülbutanın ayaqları altında çatırdayan quru çör-çöp, diyirlənən daşlar bu sükutu pozurdu. Səməndər irəlilədikcə qorxusu artırdı. O özü üçün deyil, Gülbuta üçün narahatdı. Axı, özü ilə heç bir şey götürməmiş, yemək tədarükünü də dəvəçi boyun olmuşdu. İndi isə dəvəçi əhdini pozmuş, namərdliklə, igidi taleyin əlində qoyub getmişdi «Zalım oğlu dəvəçi qorxdu. Yəqin duyuq düşdü, ələ keçməkdən qorxdu. Əgər bizi tapmasalar da (mən bu dağlarda yüz kaha tanıyıram), acından öləsiyik. Əvvəl qamışlıqda, kahalarda

daldalannıq. Bəs mən ona nə yedirəcəm, yeməyə, içməyə nə verəcəm? Təkcə gecələr üzə çıxıb yol gedə billik. Onda da çoban-çoluğa rast düşmək mahaldı. Bəs bu uzun yolu o necə yeriyəcək? Əlim salamat yera çatanacan o bu zəhmətlərə dözəcəkmi?»

Şübhəli suallar qurd kimi gəncin ürəyini yeyirdi...

## Aman evi

Bu gün səhərdən bəyim məşğul idi. O, sübhün gözü açılan kimi bağı gəzmiş, «Məclisi-üns»ün növbəti yığıncağına toplaşanları qonaq etmək üçün ağaclarda saxlanan meyvələr haqqında göstərişlər vermişdi. Aşpaz Əliqara, onun göstərişi ilə axşam qonaqlar yığılandan sonra, ərinmiş şəkəri xüsusi saplıcalarda qaynar-qaynar bağa çıxartmalı, bəyimin öyrətdiyi tərzdə budağlardakı giləmeyvələri bu qaynar şəkərə salmalı idi. Bir qədər sonra qonaqlar bağa çıxdıqda, onlar budağlardan hazır «mürəbbə» dərib yeyəcəkdilər.

Bundan sonra bəyim otağına qayıtmış, Gülzamanın hazırladığı mizin arxasında oturmuş, əlvan miniatürlər çəkilmiş bəzəkli qələmdanından qələmini çıxarıb yazmağa başlamışdı. Axşamkı yığıncaqda bəyim təzə bir qəzəl oxumaq istəyirdi. Lakin nədənsə bu gün o, yaza bilmirdi. Tez-tez fikri dağılır, xəyal onu yazıdan ayırırdı. Bir qədər sonra, adətən yazı vaxtı onu narahat etməyən qaravaşı Gülzaman içəri girib uzaq bir kənddən tanımadağı iki gəncin bəyimə pənah gətirdiyini xəbər verdi. Bəyim qalxıb həyətə endi... Həyətdə bir oğlan, bir də bir qız durmuşdu.

Onlar dağ aşmış, dərə keçmiş, çaylar adlamışdılar. Uzun yolu iki gənc, iki insan gəlmişdi—onları bura böyük bir məhəbbət gətirmişdi. Aşpaz Əliqaranın həyətə çıxardığı kürsünün üstündə

oturmuş bəyim, bunu gənclərin üzündən, batıq ordlarından, bozarmış dodaqlarından, dərisi sıyrılmış əl-ayaqlarından, toz-torpaq basmış saç-bircəklərindən, cırcındıra dönmüş paltarlarından görürdü. Gülbuta halsızlıqla yerə çökmüş, dizlərini qucaqlayıb oturmuşdu. Səməndər onun arxasında əlindəki çomağa söykənib durmuş, başlarına gələni bəyimə nəql edirdi. Dəvəçinin namərdliyini, qamışlıqda keçirdikləri gecəni, kahalarda minbir həyəcan və qorxu dolu gündüzləri də unutmadı.

— Gəlin, adın nədi?

Qarapapaq adətincə Gülbutanın dinməyəcəyini bildiyindən, Səməndər sıxıla-sıxıla özü cavab verdi:

— Gülbuta...

Bəyim gözəllik qarşısındakı heyrət dəlu bir nəvazişlə, açıq bir qibtə ilə gülümsədi:

— Butan həqiqətən də güldür, gül butadır.

Eyni zamanda Qarabağ dəbincə kişinin öz qadınının adını çəkməsindən təəccübləndi: «Deyəsən bu oğlan üzdə həyalı görünür. Əslində ədəbdən-zaddan bixəbərdi...» Odur ki, birbaşa qızın özünə müraciət etdi: Özün niyə dinmirsən, qızım, Gülbuta, mən sənin anan yerində, qayınanan əvəziyəm.

Gülbuta yenə də dinmədi. O, gözlərinn dizlərinə dikib oturmuşdu. Əgər ətini doğrayıb kabab çəksələr də danışmayacaqdı. Xüsusilə indi! Bəyim fikirləşdi: «Bəlkə bu gözəl buta, gül buta laldır? Yoxsa lap belə utanır, yə’ni?» Nəhayət, Gülbutanın dinməməsinin bəyimə qarşı hörmətsizlik kimi yozulacağından qorxan Səməndər, yenə də dilləndi:

— Bəyim, başına dönum, baş qoşma, bizim Qarapapaq tayfasında gəlin danışmaz.

— Necə?—Bəyimin heyrəti artdı:—Heç danışmaz?

— Yüz də yaşasa... Və gənc qısa bir şəkildə tayfasına aid bu qəribə adəti bəyimə izah etdi.

İmarətdəki bütün nökər-naib onları dövrələmişdi. Gülbutanın Qarapapaq qızlarına məxsus geyimi öz əvvəlki təravətini itirmişdisə də, Qala gəlinlərində böyük maraq oyatmışdı. Hamı onun qoç buynuzu kimi burulub, dingənin hər iki tərəfindən qulaqları və gicgahları üstünə qaldırılmış oradan da gərdəninə sallanmış qara hörüklərinə, qırçın tumanı üstündən dizlərindən aşağı uzanan əntari-köynəyinə, kürdünü xatırladan qəribə biçimli yəlinə, boynuna saldığı qızıl-gümüş bəzəklərə, muncuqlara maraqla baxırdı. Qarabağ xanımlarının rəqqasə geyimlərini xatırladan zərif qadın geyimi yanında Gülbutanın bir qədər kürdvarı, ər geyimini xatırladan əlbisəsi qəribə təzad təşkil edprdi...

Nəhayət, Səməndər öz sadə tarixçəsinn bitirdi. Böyük bir eşqin ona təlqin etdiyi cəsarətlə əyildi, Gülbutanın dizləri üstünə qoyduğu əlini tutdu, ətrafını saranlardan utansa da özünü toplayıb, qızla birlikdə, qoltuqlu kürsüdə əyləşib onları dinləyən bəyimin ayaqları önündə diz çökdü. Bəyim əl yetirməyə macal tapmamış, sadə qəlbli bu iki gənc, bəlalı başlarını əyib alınlarını bəyimin ayaqlarına toxundurdular. Səməndər daxili hıçqırığın boğduğu səslə dedi:

— Sinə pənah gətirmişik, bəyim, əl bizim ətək sənin. Yuxarıda allah, aşağıda səni deyib bura gəlmişik. Bu uzun yolu ayaqlarımızın ətini yemişik, gözlərimizin yaşını içmişik. Adın dilimizdən düşməyib.

Bəyimin bu böyük ümid və məhəbbət qarşısında titrəyən dodaqları ixtiyarsız olaraq pıçıldadı:

Müşkildi min kənarə düşəm kuyi-yardən Düşvardır ki, əl çəkəm ol gül üzardən.

Bəyimin ürəyi övkələndi, bircə söz deyə bildi:

— Amandasınız...

...Bu gün gözlənilməz hadisələrlə dolu imiş. Bəyim gənclərlə söhbətini bitirməmiş həyətə bir yolçu, bir çağrılmamış qonaq da daxil oldu. Bu qoca birr kişi idi. O da uzun yol gəlmişdi. Onun da əlində uzun bir çomaq vardı. Üst-başı toz-torpaq içində idi; batmış

ordlarını tük basmış, dən düşmüş uzun qaşlarının altından bir cüt tanış göz qəribə maraq və həsrətlə bəyimə baxırdı. Bu gözlərdə nə qədər doğma, nə qədər mehriban bir ifadə vardı. Bəyim bütün hafizəsini köməyə çağırdı. O bu gözləri nə vaxt, harda görmüşdü? Bu bükülmüş bel, bu kamana dönmüş qamət, saqqal basmış sima, dərvişanə görkəm, ağarmış qaş və saçlar ona yad idi. Amma bu gözlər, bu gözlər...

Birdən bəyimə elə gəldi ki, xəyal onu xatirələrin tufanlı dalğalarının üstünə atıb çalxaladı, çox uzaq, unudulmaqda olan illərə çəkib apardı. Bu gözləri o zaman görmüşdü...

«Bu gözlər çox qəribə idi. Oiları mən ayrı vaxtlar dərk edə bilmir, sevmirdim də. Yalnız güləndə anlayırdım. Bilirsinizmi, güləndə onun gözləri elə aydın, elə işıqlı, elə anlaşıqlı olurdu ki... Sanki ürəyinə -bir pəncərə açılırdı... saf qəlbinin bütün riyasız fikirlərini, arzu və istəklərini bu gözlərdən oxumaq olurdu... Belə anlarda mən onu quçaqlayıb öpmək, bu gözlərə dodaqlarımla toxunmaq, onlardakı bu işıq şəlaləsini içmək, qəlbimi isitmək istəyirdim... O gülümsəyəndə gözləri nurla dolurdu. Mən adətən mavi gözləri o qədər də sevmirəm. Onlarda nə isə donmuş su, mavimtraq buz soyuqluğu duyur, təbəssümündən isinə, nurundan, atəşindəi qövrlənə bilmirəm. Onun kəzlərk isə başqa idi. Bu mavi gözlər adi

halda, o sakit duranda, danışanda, qəzəblənəndə mən onu sevmir, bəlkə də ona nifrət edirdim. Lakin bircə təbəssüm bəs idi ki, bütün fikirlərim alt-üst olsun. Bu da yalnız o gözlər gülümsəyəndə baş verirdi.

Mən onlara baxdıqca doymurdum, mən bu gözləri danma gülümsər görə bilmək üçün nələr etməzdim, nəyi qurban verməzdim?! Bu gözlər, gülümsər baxışlar mənim üzümə dikiləndə elə bil dünya mənim olurdu. Ürəyimi günəşin telləri isindirirdi. Qəlbim elə bir fərəhlə dolurdu ki, durub bütün aləmə bağırmaq istəyirdim: «Ay ellər, bircə bu gözlərə baxın, sizə də onlardakı sonsuz səadətdən, işıqdan nəsib olsui! Ürəyimə elə bir qüvvət axırdı ki, sanki dünyada hər şey edə bilərdim. Onun üçün bu görünən ağ cunalı dağlarımızı, bax, lap o yanan günəşin özünü də yerə köçürərdim. O gözlərdə parlayan işıqlar günəşin axan şüaları, onun qızılı telləri idi. Mən onları içirdim. Qanıq kimi! Lap bayaq, Qarapapaq qızı Gülbuta bircə, tək bircə dəfə başını qaldırıb, Səməndərə baxanda, onların nəzərləri bircə anlıq bir-birinə sancılanda mən həmin o vaxtkı səadətli baxışlarımızı xatırladım. Nə biləydim ki, mən o gənc qızlıq dövrünün günəş dolu, nur dolu baxışlarını bir də görəcəyəm...»

Bir az əvvəl başlanan qəzəlin ikinci beyti öz-özünə yaranırdı:

**Ya rəb, nolur ki, yar gələ mərgi-aşiqə,**

**Can qüssədən rəha ola, dil intizardən.**

Bəyim bu sözləri qəlbindən keçirdikcə həyəcanı artırdı. Ətrafdakılar bir şey anlamadan onlara baxır, bəyimin nə üçün birdən-birə solduğunu başa düşmurdulər. Qoca da gözlərini bəyimdən çəkə bilmədən düşünurdü: «Sən yenə də həminsən, Xurşidim, yenə də o zaman olduğu təkin, Bağrıqanın zirvəsi kimi

ucasan, əlçatmazsan. Amma sən də qocalmısan, bəyim. Zaman, uzun illərin əzabı sənin də üzündə amansız izini qoyub getmişdir. Sevimli saçlarına dən düşmüş, ala gözlərinin ətrafında xırda qırışlar əmələ gəlmişdir. Bəyim, sənin də o sevimli gözəl əllərin qurumuş, damarları üzə çıxmışdır... Amma yenə də həminsən, əlçatmazsan... Füzuli elə bil ki, mənim, bizim dərdlərimizi şe'rə düzmüşdür, bəyim, dimlə:

**Dadə gəldim ədl divaninə fəryadım eşit,**

**Sən ki adilsən, gör əfqanım nədəndir, çarə et!**

**Şərhi-halım sor, muradım ver, əlim tut, fikrim et!**

**Rəhm qıl, dövlətli sultanım, mürüvvət çağıdır.**

«Ayrılığa, hicrana çox dözdüm. Səadətinə mane olmaq istəmədim. Uzaq ellərdə xəzinəsini qeyb etmiş xəzinədar kimi, Leylasını itirmiş Məcnun kimi gəzdim, sərgərdan dolandım. Uğrunda Fərhad olub Bisütun çapa bilmədim. Amma sənin böyük məhəbbətini dərdli qəlbimdə gəzdirdim. Əziz xatirəni unuda bilmədim. Vətən torpağı və sənin məhəbbətin məni çəkdi. Ölmək üçün qapına gəldim, bəyim, indisə məni qovma! İzin ver, vaxtilə izin vermədiyin əlindən öpüm. İzin ver, vaxtilə qoymadığın dərgahında canımı qurban verim. Son nəfəsimdir, bəyim».

Qoca dərin düşüncələrin dadlı xəyalı ilə ətrafdakıları unudub, hələ də oturduğu yerdən onu seyr edən bəyimə yanaşdı. Dizi üstündə taqətsiz düşmüş əlini qaldırıb öpdü. Heç kəs bunda qeyri-adi bir hal görmədi... Bəyimin qapısına hər gün o qədər dilənçi gəlirdi ki...

Natəvan isə mütəmadi yaradırdı. Sözlər inci kimi sapa düzülüb dodaqlarından süzülürdü:

**Hicr atəşin arayə dəxi salma, ey rəqib!**

**Mümkün olurmu ayrıla pərvanə nardən?!**

Hər ikisi yanırdı, hər ikisi özünü bu atəşə atmağa hazır idi. Amma kimin pərvanə, kimin atəş olduğu bəlli deyildi. Yığılanlardan heç birisi otuz-qırx il əvvəl başlamış bu faciənin son səhnəsini dərk etmirdi.

Məclis arəstə idi. Bu gün bəyimin qəlbində iki hiss çarpışırdı. Bir tərəfdən ölən bir məhəbbəti dəfn edir, onun vəfasına, dözümünə baş əyərək, heyrət edərək torpaqlara gömürdü. Digər tərəfdən yeni yaranan gənc bir məhəbbətin qüdrətinə tapınaraq onu yaşatmaq, çiçəkləndirmək üçün iki gəncin toyunu tuturdu. Qonaqlar çox idi. Böyük qonaq otağında toplaşan kişilər əsasən «Məclisi-üns»ün üzvləri, o namə'lum qoca və bəyimin əqrəbasından ibarət idi. Süfrəyə müxtəlif şirin yeməklər, ovşaralar düzülmüşdü. Xeyrilərdəki buz parçalarının içində yaqut dənəsi təkin qızaran gülöyşə nar dənələri qəndillərdə yanan şamların otağa saçdığı gur işıq altında bərq vururdu. Bu narlı buz parçalarını almaq üçün Əliqara imarətin buzxanasına payızda gülöyşə nar dənələyib şirin su tökür və dondururdu. Sonra da narlı buz yalnız aşpaz Əliqaranın bildiyi bir qayda ilə xüsusi qəliblərlə parçalanıb qablara yığılır və qonaqlara təqdim olunurdu. Həmin bu nar dənəli buz parçaları haqqında Natəvanın rəfiqəsi şair Fatma xanım Kəminə qəzəllərinin birində demişdi:

**İnnab ləbin, cana, təşbih edib aşiqlər,**

**Nar dənəsidir guya, düşmüş buz arasında.**

Üzərinə darçınla qonaqların adı yazılmış firnilər, tərək və halvalar isə kəhrəba rəngi çalırdı. Sazəndə və nəvazəndənin sənətkarlıqla ifa etdiyn muğam və Füzuli qəzəli getdikcə ucalır, imarətin hasarını aşır, Şuşanın dağlarına səs salırdı...

Xanəndə «bayatı-şiraz» dəsgahını başlamışdı. O sanki Natəvanın qəlbindəkiləri duymuşdu. Üzzala keçəndə bəyimin bu beytini oxudu:

Xoş ol günlər ki, vəslində edərdim kami-dil hasil Olunca mübtəla hicrə, çıxaydı kaş can sənsiz.

...Qonşu otaqda gəlinlər-qızlar toplanmış, təzə gəlinə bəyimin hədiyyə verdiyi toy paltarlarını geyindirirdilər. Bəyim ara qapının astanasında durmuş, bəzəndikcə daha da gözəlləşən və səadətini nərmin köksündə gizləyə bilməyən gəlinə baxırdı. Onun gözlərindən fərəh və bəxtiyarlıq aşıb daşırdı. İncə dodaqlarında oynayan nurlu təbəssümü gizləyə bilmirdi.

...O da—bəyim özü də belə allı-güllü bir gəlin ola bilərdi. Olmuşdu da. Gülbutadan gözəl, Gülbutadan çox zəngin bir toy libası geymişdi. Amma nə fayda. gözlərində Gülbutanın baxışlarında parlayan şəfəq ki parlamamışdı. Gözlərinin birindən həsrət, birindən qəzəb yaşları axmışdı. Yanaqları sevincdən allanmamış, göz yaşından qızarmışdı. Dodaqları sevgili busəsi üçün titrəməmişdi, acığından əsmişdi. Zorla, bir siyasət xatirinə sevişmədiyi adama ərə verilən qız, necə sevinə bilərdi?.. Bu siyasət, günəşin tellərindən bol-bol içdiyi məhəbbətə od vurub onu yandırdı. O öz tüstüsündə boğuldu. Amma gəlinlik duvağı altında təpəsindən qalxan bu tüstünü görən olmadı. İndiki kimi... halbuki, o zamankı məhəbbət də elə indiki kimi güglü idi. Bəyimin və o mavi gözlü gəncin incə vucudunda bu qədər hərarətin

hardan toplanması heyrətamiz qədər böyükdü. Təbiət hələ aləm yaradılandan bəri sanki heç kəsə belə bir sevgi nəsib etməmişdi. Sanki bu məhəbbət bəşəriyyətin yarısına çatacaq qədər idi... Bu günortanın istisi, gecənin bıçaq kimi kəsici, şaxtalı oğlan çağı idi,—bu tufanlı xəzri idi... Lakin qoymadılar... Zalım əllər, neştərli dillər bu məhəbbəti beşiyində boğdular...

İndi o biri otaqda oturan qoca çox kecikmişdi. Hələ də məhəbbətilə yansa da, cəsarətlə bəyimnn qapısını döysə də çox gec idi. Bəyimin o məhəbbətlə yandığı günlər, unudulmaz gəncin eşqilə günəşin tellərindən hərarət əmdiyi günlər çoxdan keçmişdi. O əziz günlər, o ilk böyük məhəbbət amansız bir zalımın əlilə torpağa gömüldü; Şuşanıi əziz, doğma torpağına! İndi qəlbində uzun illər o gənclik səadətini, ilk eşqini gəzdirən qoca, həmin bu torpağda cismini də, eşqinin dalıica köməyə gətirmişdi. O, bəyimdən uzaqlarda elə bilməmişdi. Uşaqlıq illərinin əziz xatirələri Vətən torpağı ilə əlbir olub onu çəkib gətirmişdi.

Bəyim bu gün səhər başlanan qəzəlini bitirirdi:

**Rahi-vəfadə canü cahan verdi Natəvan,**

**Ta həşr olunca çəkməz əlin e'tibardən.**

«Məclisi-üns» yaranan yeni qəzəli «əhsən», «afərin», sədaları ilə alqışladı. Lakin o qəzəlin əsil mə’nasını bu gecə bir qoca anladı, bir də bəyim bildi.

Hadisələr bəyimi çox mütəəssir etmişdi... Yenidən gözlərində canlanan günəş dolu, nur dolu, məhəbbət dolu gənclik illərinin dadlı xəyalları ilə nakam nəticəsi, ilk oxunun daşa dəyməsi onu bərk həyəcanlandırmışdı. Odur ki, bəyim İrəvana qızı Xanbikənin nüfuzlu ər qohumlarına ismarış göndərmiş, «çalışın, Oxçuoğlunda

və Güllübulaqda barışıq edin, bir nəfərin də burnu qanamasın, başından tük əskik olmasın».

...Lakii gec idi. Ağarəsulun adamları, xüsusilə, qardaşı oğlu Əzizbala üç gün-üç gecə Gülbuta və Soməndəri a.xtarmış, tapmamış, qızmış bir qəzəblə Güllübulağa dönmüşdülər. Güllübulaqda camaatın qeyrəti sayəsiidə Səməndərin ata-anasına, bacısına toxuna bilmədiklərindən daha da qəzəblənəi Əzizbala və qohumları, Oxçuoğluna qayıdıb, xalqın sevimlisi, toylar, bayramlar yaraşığı qoca Şma nənəyə divan tutmuşdular. Camaat onların qarıya əl qaldıra biləcəklərini ağıllarına belə gətirmədiklərindən, əsas diqqətlərini Güllübulaqdakılara vermiş, Oxçuoğlunda tək qalan Şma nənəni unutmuşdular. Bu nəzarətsizlikdən istifadə edən namərd Əzizbala, köpüklu atından enib qoca qarını tatarı altına salmış, ölüncə döyüb getmişdi.

Qonşular gəlib çatanda Şma nənə qapı ağzında al qan içində can çəkişirmiş. Son nəfəsində «Təki onlar xoşbəxt olsun» deyib canını təslim etmişdi.

Xəbər bəyimi bərk kədərləndirdi. O, qarının faciəli ölümünü gənc sevgililərə xəbər verib, sevinclərini qüssəyə çevirmədi. Gülbuta və Səməndərin məhəbbət və dinclik içində gül kimi açılan, sevinc saçan üzlərinə baxdıqca düşünmüşdü: «Nənə öldü, nəvənin səadəti üçün qurban getdi. Həyatın da qanunu budur. Qocalan ölür, gənclik yaşayır. Onun da, mənim də arzu və səadətimiz bu gənclərdə təcəssüm edir. Qoy olsun! Bizə qismət olmayan günəşin nurlu işığını onlar içsin!»

## NƏĞMƏ

**Aşıq arxa dolandım,**

**İpək tək çarxa dolandım,**

**Qərib ölkə, yad ellər**

**Qorxa-qorxa dolandım.**

1895-ci ilin payızı yaxınlaşırdı. Amma ətraf dağlar, təpələr, hətta su sızan yarğanlar belə yamyaşıl yumşaq otlarla örtülmüşdü. Bahar kimi səma aydın, göy firuzəyi idi. Evlərin qabağında daş üstünə çökmuş qocalar günəşin son hərarəti ilə öz donmuş sümüklərini qızdırırdılar.

Balaca Rüstəm evlərindən imarətə gedən yolla aramaram addımlayırdı. Əvvəllərdə olduğu kimi atılaatıla getmirdi. Axı o, indi böyuk oğlan idi. Bir neçə gündən sonra atasının Tiflisdən alıb gətirdiyi məktəbli paltarını geyəcək, bəzəkli toqqasını qurşanacaq, başına parlaq günlüklü, qızılı alın nişanı olan şapka qoyacaq və yad bir şəhərdə oxumağa gedəcəkdi. Bütün bunlar gözəl və cazibəli idi. Lakin nə qədər də olsa Rüstəm hələ ana uşağı idi. O, sarışın başını sallayıb təmkinlə addımlasa da, ətrafındakı hər şeyi həsrətlə nəzərdən keçirirdi. Axı, indi o, bu əziz və doğma yerlərdən ayrılırdı. Bütün bu daş və kərpicdən tikilmiş binalar, doqqaz və hasarlar, barılar, onların dibində özlərini günə verən sahibsiz itlər belə doğma idi... O bu itlərlə nə qədər əylənmişdi; bu hasarlar, kollar arxasında nə qədər «gizlənpaç», «topaldıqaç», «gözbağlıca» oynamışdı. Bu uca dağların döşündən nə qədər yazahəsrət döşürmüş, yemlik,

qırxbuğum toplamış, moruq yığmışdı... Hər darvazanın dalında onun bir dostu, bir həmsöhbəti, bir oyun yoldaşı vardı. Qışda qar çox yağanda qartopu oynardılar. Balaca Rüstəm çəlimsiz görünsə də, atdığı qartopu həmişə hədəfə sərrast dəyərdi. Onu İsgəndər bəyin yanında görən qocalar zarafatla deyərdilər:

— Ay İsgəndər bəy, oğlun yaman yaxşı nişançıdı, qədimlərdə olsaydı, ondan ə’la xan nökəri çıxardı...

Adətə görə İsgəndər bəy nə böyüklərin yanında oğlu üçün fərəhini bildirər, nə da qocalara e’tiraz edərdi. Balaca Rüstəm yaxşı bilirdi ki, atası onun «atıcı-vurucu» olmasını istəmir, onun üsuli-cədid məktəbində oxumasını, realnini qurtarmasını, müəllim və ya həkim olmasını, əsil bilik sahibi, savadlı adam olub xalqına xeyir verməsinn arzulayır. Son iki ildə evdə bu barədə həmişə söhbət gedirdi. Uzun qış gecələrində evdə qonaq olmayanda, ya da atası şe’r məclisinə getməyəndə, Rüstəmin eşitdiyi ən şirin nağıllar, nəsihətlər məhz bu arzular idi, bu arzularla yazılmış maarifpərvər şe’rlər idi. Balaca Rüstəm şəhərlərdə oxuyacağına, yeni yerlər, təzə adamlar görəcəyinə nə qədər sevinirdisə də, anası Rə’na xanımın göz yaşlarını, xəfif hıçqırıqlarını gördükcə bir o qədər qəmlənirdi. Elə indinin özündə də, bəyimin yanına «xeyir-dua» üçün yola düşəndə Rə'na xanım nə günə düşdü... Gecə İsgəndər bəy «Məclisn-üns»ün yığıncağından qayıdanda bir söz deməmişdi, fikrini yalnız səhər bildirdi.

Dəstərxan hələ yığılmamışdı. İsgəndər bəy səhər çayını içib qurtaranda birdəi başını qaldırıb, qaysava tavasının dibində qalmış tək-bir kişmişləri dənləyən Rüstəmə baxdı, gülümsündü: «doğrudan, hələ lap uşaqdır» deyə düşündüsə də bir dəfə verdiyi qərardan dönməyən adamlar kimi qətiyyətlə səsləndi:

— Rüstəm, imarətə get, bəyimlə xudahafizləş, sənə xeyir-dua versin. Bir hovurdan yola düşürsən...

Həyəcanından iri qara gözlərini ərinin üzünə dikmiş Rə'na xanımın elə bil ki, ürəyi qırıldı: o, oğlunun gedəcəyi haqqında çox eşitmişdi, amma belə tez ciyərparasından ayrılacağına, bu hicranın həqiqət olacağına inana bilmirdi. Gəlinin ağ üzü allandı, alnının sol tərəfindən ayrılmış çətir sol qaşı üstünə düşdü, qələmi qaşları gərildi. Kirpiklərinin dibinə çəkdiyi sürmədən bir qədər badamı kimi görünən gözləri alacalandı, azca qalın, ətli dodaqları titrədi, dolğun bədənini yerdən qaldıra bilmək üçün qızıl bilərzikli totuq biləklərinə dayandı, ürkək səslə pıçıldadı:

— Nə tez, ay bəy!

İsgəndər bəy ana ilə oğulun arasında gedəcək söhbətdən və görüşüb ayrılmanın ağır mənzərəsindən mütəəssir olacağından çəkinib cəld qalxdı, başmaqlarını geyinib doqqaza çıxdı.

Rə'na xanım ərinin bir sözünü iki eləməzdi. Onsuz da qərarın dəyişməyəcəyini bildiyindən, artıq bir söz demədi; uşağın da könlünü qırmaq istəmədi. Kimxa tuman içərisində bir az da dolu görünən bədənini yırğalaya-yırğalaya sandıqdan Rüstəmin bayram paltarlarından bir təzəsini çıxardıb, geyinməsinə kömək etdi; e'tiraz edən oğluna dedi:

— Bu gün ayrı gündü, oğul, xanlığa adına layiq get, qoy bəyim sonə təmiz paltarda xeyir-dua versin, qur'an altından keçəcəksən, təmiz paltar gey...

Özünü toxtatmağa çalışmasına baxmayaraq, Rə'na xanım axır ayaqda özünü saxlaya bilmədi, incə, sinədən gələn zərif səsi ilə Qarabağ şikəstəsinə keçdi:

**Qarabağda talan var,**

**Zülfün üzə salan var,**

**Gedirsən, tez qayıt gəl**

**Gözü yolda qalan var.**

Hey, anan var, dərdin mənə, ağrın alım, ay bala... Qarabağ şikəstəsi nə qədər doğma, nə qədər kədərli, ana dilində nə qədər əziz idi...

Rüstəm kövrəldisə də özünü cəld eşiyə salıb, yola düzəldi. İndi, hər yaz başı İsa bulağı üstündə xanəndələrdən, toylarda, mağarlarda oxuyanlardan eşitdiyi Qarabağ şikəstəsi yenə də qulaqlarında səslənirdi... Məgər Şuşanın dağlarında, bu şikəstəni az eşitmişdi?!. Bəs nə üçün ananın dilindən eşidəndə bu köhnə, tanış nəğmə onun iliklərinə Şuşa dağlarının qışın oğlan çağındakı şaxtası kimi işlədi, qanını dondurdu, balaca ürəyini titrətdi...

...Rüstəm əvvəlcə imarətin həyətindəki gölçəyə tərəf getdi. Burda hər şey gündə gördüyü kimi idi. Gölçənin ətrafına əkilmiş salxım söyüdlər saçaqlarını suyun səthinə sərmişdi. Suda ördəklər üzür, gölçəyə baş vurub silkinirdilər. Onların bəzəkli başları gəlinlərin alnına çərtilmiş al-yaşıl çərtmə-kəlağayılar kimi bərq vururdu. Rüstəm əvvəllərdə də tez-tez bura gələr, ördəklərə tamaşa edər, cibində gətirdiyi çörək parçalarını suya atar, ördəkləri yemlərdi. O, saatlarla ördəklərin suya düşmüş çörək tikələrinin dalınca cummasına, baş vurub əldə etdikləri parçaları didişə-didişə, qağıldaşa-qağıldaşa bir-birinin yastı dimdiyindən qapmasına baxar, tamaşadan doymazdı. Çox vaxt dərs kitabını da burda oxuyardı. Belə vaxtlarda bə'zən bəyim ya pəncərədə, ya da eyvanda görünər, öz nəvazişkar səsi ilə onu çağırardı:

— Rüstəm, bala, ördəklərə baxmaqdan doymadın? Qurbanın olum, gəl bir səni öpüm.

Rüstəm, bəyimin onu görməsindən utanar, çəkinə-çəkinə imarətə tərəf yollanardı. Bəyim əvvəlcə onun alnından öpər,

sonra da yanındakı nimdərlərin üstündə oturdub, ləbləbi-kişmişə, qovrulmuş püstə və badama, şəkərli qurabiyəyə, narıngiyə, miyampura qonaq edərdi. Bu dadlı, məzəli xuşkabarı çox sevsə də, Rüstəm, bəyimin qulluğunda ədəblə oturub, əllərini dizləri üstünə qoyar-cütlər, həya ilə gözlərini yerə dikərdi. Bəyim həmişə Rüstəmin atasına deyərdi:

— İsgəndər, oğlun ədəbli, ağıllı baladı, görürəm ki, həmişə gözü yazıdadı, kitabdadı. Fikir vermişəm, göz qoymuşam, oxut oğlumu, qoy bilikli, xeyirli adam olsun...

Rüstəmə elə gəldi ki, indicə eyvandan, ya pəncərələrin birindən bəyim onu səsləyəcək. Səksəkəli kimi cəld imarətə tərəf baxdı. Bu ciddi gündə bəyimin onu ördəklərlə əylənən görməsini istəmirdi. İmarət pəncərələrində və eyvanda heç kəsi görməyib rahat nəfəs aldı. Cibindən çıxardığı son tikəni ördəklərə atıb, imarətə tərəf yollandı.

Əvvəl bnnaya girmədi. Dal həyətdə şişqarın mis samovara od salan nökər Əliqaraya tamaşa etdi, bir az da quş damının qabağında toyuq-cücə yemləyən Kəkliyə baxdı. Birdən dal eyvandan Fənanın tanış səsini eşitdi; o həmişəki kimi Rüstəmi zarafatla atasının adı ilə çağırdı:

— İskəndərzadə? Bala, həyətdə nə qayırırsan? Bəyim səni gözləyir.

Onun əynində qara çuxa, belində zərif tirmə qurşaq vardı. Başına darab papaq qoymuş, ayaqlarına dikdaban «sağrı» başmaq geymişdi. Başmağın şişburnu şatrı çarıq burnu kimi yuxarı qalxmışdı. Atasının gah Mirzə Rəhim, gah da Rəhim bəy adlandırdığı şair Fənanı Rüstəm yaxşı tanıyırdı. Onui imarətdə bir növ eşikağası vəzifəsi gördüyünü bilirdi.

Rüstəm, qaydaya görə, ədəblə Mirzə Rəhimə salam verib, bir söz danışmadan onun ardınca düşdü və bəyimin qəbul-qonaq

otağına yollandı. Mirzə Rəhim uşağın vəziyyətinin ciddiliyini bildiyindən bu dəfə həmişəki kimi ona sataşmadı, zarafat etmədi. Ya da harasa tələsdiyindən onu içəri ötürüb getdi. Bu qonaq otağı Rüstəmə tanış idi. Pəncərələrdən yüngül, yumşaq işıq buraxan əlvan ağır pərdələr, müxtəlif ipək, kimxa və tirmələrdən tikilmiş pərdəbaşlıqları, onların qızıl suyuna tutulmuş naxışlı gümüşdən olan qotazlıqları, yerdəki əlvan Qarabağ və Kaşan xalıları, divarlardakı rəsmlər, dəyirmi, xırda miz üzərindəki qrafin, bu qrafinin əlvan gül muncuqlardan bəyimin öz əli ilə tikilmiş üzlüyü, onun yanındakı məşhur «Gül dəftəri», üzərinə kilim çəkilmiş taxt və taxt üstündəki tirmə mütəkkələr... hamısı, hamısı balaca Rüstəmə tanış idi, doğma idi.

Bəyim hələ səhər yeməyini qurtarmamışdı. Əynində olduqca sadə, qırçın tuman, ağ zərif köynək vardı. Başına qara haşiyəli ağ kəlağayıdan dingə vurmuşdu. Tək-tək dən düşmüş bircəkləri dingənin altından çıxıb zərif qulaqlarından yanağına doğru qövsi şəkildə burulub durmuşdu. Sağ əlinin «güldəstə» barmağındakı firuzəqaş üzükdən başqa üstündə zinət yox idi. Rüstəmin tanıdığı Qarabağ xanımları sırğa, üzük, bilərzik, boğazaltı, sinəbənd, silsilə, kəmər, ətəklik taxmağı sevirdilər. Anası Rə’na xanım ən dərdli günlərində belə, cavahiratını üstündən—bilərziyini qolundan, kəmərini belindən açmazdı. Xanımın üstündə bu bəzəklərdən heç birisi yox idi.

Sadiq Gülzaman bəyimin qarşısında çay dəsgahını iri, içi haşiyəli mis məcməyiyə toplayıb qapının dalında müntəzir duran Əliqaraya öturdu:

— Keç, Rüstəm bəy, keç içəri, bəyim demişdi Rüstəm balam gələn kimi yanıma göndərin.

Bəyimin nəvazişkar səsi eşidildi;

— Gəl, qurbanın olum, Rüstəm, gəl, gəl, oğul.

Rüstəm Gülzamanın yaxına çəkdiyi alçaq yazı kətilinə toxunmamaq üçün aralı dayanmaq istəyirdisə də, bəyimin çağırışını eşidincə yaxınlaşıb diz çökdü. bəyim adətincə yenə də onun alnından öpdü.

Yazı mizinin üstündə bir neçə vərəq kağız və qələmdan vardı. Görünür bəyim yazmağa hazırlaşırdı. Rüstəm əyləşən kimi bəyim yenə də səsləndi:

— Gülzaman, gətir.

— Bu sahatda, dərdin mənə!

O çıxıb cəld də qayıtdı. Balaca gümüş məcməyidə tirmə və güləbətnilə işlənmiş qovluğun içində əl böyüklüyündə quran, bir parça çörək və bir piyalə su vardı. Bəyim çörəyi Rüstəmə uzatdı:

— Al, oğul, ne’mətdi, elimizin ne’mətidi, yadından çıxartma, oxu, dərslərinə yaxşı diqqət elə, faydalı adam olmağa çalış. Hansı elmi öyrənsən rəğbətlə öyrən! Yönün də bəri olsun, oğul! Gözü yolda anan-atan var...

Sonra bəyim durdu, Rüstəm də cəld yerindən qalxdı.

— Get, bala, qərib ellərdə bizi unutma, atana teztez kağız yaz...

Rüstəmin gözləri yaşardı, ona hardan gür’ət gəldiyini özü də bilmədən, bəyimin balaca əlini tutub öpdü. Bəyim sağ əli ilə onun kürəyini tumarladı. Sol əli ilə məcməyidən quranı götürüb yuxarı qaldırdı:

— Keç, oğlum, bu sənin ata-ananın arzusudur. Keçən il Üzeyir ilə Zülfuqarı da bu quranın altından keçirib yola salmışam. Hamınızın yolu uğurlu, zehniniz iti, yönünüz bəri olsun...

Rüstəm bəyimin müşayiəti ilə qapıdan çıxdı, pillələri enəndə bir də dönüb dala baxdı; bəyim Gülazmanın verdiyi balaca piyalədəki

suyu onun ardınca atırdı. Rüstəmə elə gəldi ki, qapı çərçivəsi içində durmuş bəyimin gözləri yaşla dolub, lap anası Rə’na xanımın gözləri kimi... Bu mehriban ana gözlərinin hər birində bircə damla yaş parlayırdı.

Rüstəm nə biləydi ki, bu son görüşdür?!.

Bəlkə bəyim duymuşdu! Elə ona görə də həmin bu qapıda, qapının mavi çərçivəsi arasında bir şəkil, ilahi bir şəkil kimi durmuşdu. Elə bil nur saçırdı.

Sonralar artıq cavan oğlan ikən, institutda oxuyanda, Moskvada Tretyakov qalereyasında, Peterburqda Ermitajda madonnaların əksini görəndə, Rüstəm daima bəyimlə son görüşünu xatırlar, nə üçünsə onu həmişə məhz mavi qapı çərçivəsi arasında, başında qara haşiyəli ağ kəlağayı olduğu halda yadına salar və madonna ilə müqayisə edərdi. Bəyim onun gənclik hafizəsində beləcə həkk olub qalmışdı.

İndi bu pillələri çıxdıqca o günkü gün yenə də xəyalında canlandı. Bir az əvvəl həyətdən keçəndə imarətin qarşısındakı tanış bağa, xiyabanlara baxdıqca heç bir şeyin dəyişmədiyini görmüşdü. Ördəklər (elə bil bu gün qoyub getmişdi) gölçəyə baş vurur, yem dalınca cumur, tapdıqları yemi bir-birinin yastı dimdiyindən qapırdılar. Salxım söyüdlər bir az da uzanmış saçaqlarını az qala ayna gölün səthinə yayırdı. Səma da eləcə aydın idi. Gül kolları da o günkü kimi çiçək açmış, gül gülü, bülbül bülbülü çağırırdı. Otaqlar da öz qədimi görkəmini dəyişməmişdi. Bütün bunlara baxmayaraq, elə bil ki, hər şeydə bir küskünlük, bir kimsəsizlik vardı. Çünki o, yox idi, bəyim yox idi. Hər yerdə onun yeri görünürdü.

Bir az əvvəl öz realni məktəb şagirdi geyimi ilə qürurlanıb, təmkiilə imarətə gedən yolu addımlayan Rüstəmin gözlərində hər şey öz vəziyyətini, gözəlliyini itirdi. O bura gəlməmişdən də bəyimin vəfat etdiyini bilirdi, lakin bu yoxluğun ona bu qədər

dərin tə’sir edəcəyini duşünməmişdi. O, cəld geri—evə qayıtdı. Coşqun ana məhəbbəti gözlərində çağlayan, sevincini yer-göy tutmayan Rə'na xanım, xofla Rüstəmin solmuş, kədərli simasına baxdı:

— Nə oldu sənə, dərdin mənə?

— Heç, ana!

— Bəs niyə rəngin üzündən uçub?

— İmarətə getmişdim, rəhmətlik bəyim...

Rə'na xanım anladı...

Cavan Rüstəm isə sarışın başını Tiflisdən gətirdiyi çamadanının üstünə əyib, nə isə axtarırdı. O, paltar və kitab-dəftərinin lap altından kənarı haşiyəli ağ dəsmala düyünlənmiş bir şey çıxardı, düyünçəni açdı, Rə'na xanımın təəccüblə baxdığı bu şey bir parça çörək idi... Bəyimin-yeganə və son yadigarı... Rüstəmin qulaqlarında bəyimin son sözləri səsləndiyi halda, bu bircə parça çörəyi yenidən qayğı ilə, qiymətli bir yadigar kimi yaylığa qoyub bağladı və düyünçəni Tiflisdən gətirdiyi çamadanına deyil, Peterburqa getmək üçün hazırladığı «mühəndis» çamadanına qoydu. Qəlbində isə bəyimin səsi eşidilirdi: «Get, oğlum, oxu, xalqına faydalı adam ol! Zehnin iti, yönün bəri olsun».

Bu sözlər artıq bir himn, bir nəğməyə çevrilmiş, doğma Qarabağın şikəstəsi, incə bayatısı, Rə’na xanımın ruhnəvaz mahnıları kimi qəlbində yer salmışdı.

1901-ci il idi. Peterburqun zahirdə gözəl teatrlar, operalar, qastrollar, batində isə daxili mübarizələr, dərnəklər, tə'tillər, tələbə nümayişləri ilə dolu qış günləri idi.

Mühəndislik oxuyan Rüstəm Peterburqun coşqun tələbə nümayişlərində yaxından iştirak etməsə də, bu hadisələrə biganə

deyildi. O, atəşin qəlbə malik olan gənc dostlarına rəğbət bəsləyirdisə də, hələ onlara qoşulub, ciddi bir iş görmür, vaxtını teatrlarda, operalarda, baletlərə tamaşalarda keçirir, Şalyapini dinləyir, Preobrajenskayanın, Krasavinanın dünya şöhrəti qazanmış rəqslərinə tamaşadan doymurdu. Mariinski teatrı bir çoxları kimi onun da oylağı idi. O burada ən yüksək, yalnız tələbə və yoxsullarıi yeri olan balkonda oturub tamaşa edirdi. Mariinski teatrından çıxdıqdan sonra uzun müddət Neva prospektində gəzir, Mars çölündə, sahilin daş hasarları, heykəlləri yanında uzun müddət dayanır, evə qayıtmır, eşidib-gördüklərini doğma Qarabağın musiqar aləmi ilə tutuşdurur, sevdiyi mahnıları xatirinə salırdı. Rə’na xanımın incə mahnıları Nevanın dalğalarındakı zümzüməli ahənglə qarışır, eşitdiyi musiqilərlə birlikdə yeni bir mahnı kimi səslənirdi. Belə gecələrdən birində o yenə də Neva prospekti ilə addımlayırkən, tələbə yoldaşlarından biri onu haxladı.

— Hardasan, dost? Səni axtarmaqdan yorulmuşam. Bir az əvvəl sizə getmişdim. Dalandardan öyrəndim ki, sizin binada pansionda qalan tələbələrin hamısının evində axtarış gedir. Əgər bir şeyin varsa, cəld evə əkil, nə qədər ələ keçməyib...

Rüstəm xatircəm idi, onun evnndə polisin şübhəsinə səbəb olacaq heç bir şey yox idi. Lakin buna baxmayaraq, cəld dostunun sözünü yarımçıq qoyub evə qaçdı.

O, evə çatanda dalandar Vanya dayı da onu həmin sözlərlə qarşıladı:

— Tez otağına qaç, oğul, hələ sənin mənzilinə çatmayıblar. Bir şeyin varsa dal pəncərədən ötür...

— Narahat olmayın, Vanya dayı, bir şeyim yoxdur.

O, pillələrlə yuxarı qalxanda polislər artıq onun mənzilinin qapısını açırdılar. Qorxudan və həyəcandan gözləri böyümüş Mariya Petrovna onu görüncə kəkələdi:

— Budur, cənab Rüstəmbəyov özü də gəldi...

İçəri girdilər. Rüstəmin sadə tələbə mənzilində mühəndisliyə aid dərs kitabları, mühazirə dəftərləri və paltarlarından başqa heç bir şey yox idi. Polislərdən biri paltar çamadanından yalnız bir düyünçə tapdı. Maraqla onu yazı masasının üstünə qoyub açdı. Rüstəm ixtiyarsız irəli bir addım atdı. O bu müqəddəs tikəyə, əziz xatirəyə heç kəsin toxunmasını istəmirdi. Lakin pois müvəkkili onu qabaqladı:

— Bu nədir, cənab Rüstəmbəyov?

— Çörək.

— Çerək?

— Bəli, bir parça quru çörək!

— Bunu niyə büküb saxlamısınız?

— Xatirədir...

— Çörəkdən də xatirə?..

Bu xatirə polisə şübhəli göründü. Onlar tələbə Rüstəmbəyovun mənzilindən səliqə ilə dəsmala düyünlənmiş bu bir parça quru çörəkdən başqa bir şey tapmadılar. Akta beləcə də yazdılar. Bir parça quru çörək! Beş-altı il ərzində tamamilə quruyub, rəngi qaralmış bu bir parça quru çörək bağlandığı «şübhəli» dəsmalla birlikdə polis idarəsinə aparıldı.

Son yadigarı apardılar. Amma onu verən böyük insanın, ana şairin sözləri, nəsihətləri bir and, bir himn, bir nəğmə kimi gənc

mühəndisin ürəyində qaldı: «Faydalı adam olmaq, yorulmadan xalqa xidmət etmək...»

O gündən elə bil Rüstəmin qəlbində kim isə oxuyurdu. Onun elə gözəl səsi vardı ki... Lap Rə'na xanımın səsi kimi. Öz ahəngdar nəğmələri ilə gəncin qəlbini titrədirdi. O hər dəfə müxtəlif mahnılar oxuyur, hər saatda bir ayrı nəğmə başlayırdı. Qəlbindəki bu müğənninin incə səsi çaşmır, bir not belə səhv etmir, xaric səslər çıxarmırdı... Onun nəğmələri Rüstəmin özündə də əks edir, daima qulaqlarında səslənən bu incə musiqiyə həmahəng olaraq, addımları da dəyişir, bir rəqqas, bir əsgər kimi ahəngdar yeriyirdi. Onu görənlər bu e'cazkar muğənnini görməsələr də, səsini eşitməsələr də, Rüstəmin üzündə nəğmənin in'ikasını duyurdular. Belə hallarda dostları:

— Bəxtəvər, heç qocalmırsan,—deyirdilər.

Doğrudan da gözəl Şuşanın füsunkar təbiətilə həmahəng səslənən bir müğənninin gah məhəbbət, gah ehtiras dolu mahnılarını eşidənlər xoşbəxtdirlər.

Bu nəğmə, bu səs Rə'na xanımın Qarabağ şikəstəsi, bəyimin nəsihətləri idi. Onu Rüstəmin qəlbindən heç kəs qoparıb çıxara bilmir, gənc mühəndisi öz doğma xalqına yorulmadan xidmət etməyə səsləyirdi.



## BU GÜN SƏNİN YAŞIDINI GÖRDÜM

**Araz aşanda mələr,**

**Kür qovuşanda mələr,**

**Analar balasından**

**Ayrı düşəndə mələr.**

Səməniyə gedən gəlinlər imarətin yanından keçəndə Gülzaman qapını açıb ümidlə Natəvana baxdı:

— Bəyim, səməniyə getməyəcəksən?

— Heç həvəsim yoxdu, Gülzaman, bizimkilərə de, qoy getsinlər, sən də get, bir azdan mənim də həvəsim olsa gələrəm.

Bəyim danışdıqca qapının qabağında dayanan Gülzaman, əlilə kimisə bayıra itələyir və arxasını qapıya söykəyib gizlətməyə çalışırdı. Bunu görən Natəvan sözünə ara verdi.

— O kimdir, Gülazaman?

— Başı batmışdır da... əl çəkmir ki...

Novruz şamı kimi ala-bəzək paltar geymiş balaca bir qız içəri soxulub, daima onu dadlı şeylərə qonaq edən-bəyimə tərəf cumdu. Anası onu tutub saxlamağa sə’y etdisə də bacarmadı.

—Dəymə, dəymə... Gəl bura, qızım,—deyə Natəvai balaca dəyirmi kürsü üstünə qoyulmuş vazdakı almaların birini götürüb qıza uzatdı:

— Nə yaman qaradı bu, ay Gülzaman.

— Gejə doğulub, ona görə, dərdin mənə.

Natəvan heyrətlə Gülzamanın üzünə baxdı:

— O nə sözdür?

— Boy! Bilmirsən, başına dönüm? Gündüz doğulanlar ağ olur, gejə doğulanlar qara dayna...—Balasının dada çatdığını, bəyimin «eynəsinin açıldığını», gülümsədiyini görən Gülzaman, bir də əvvəlki sualına qayıtdı:—Səməniyə getmirsən? Çıxarsan gözün, könlün açılar... Əziz gündə də evdə oturma, dərdin canıma! Xiffət eləyirsən, çıx bir ağırrığım-uğurruğum elə... gör nejə yüngülləşərsən, dərdini, qəmini dağların yeli, dərələrin seli aparar. Eynən açılar.

Nəhayət, şairə davam gətirə bilmədi. Gülzamanın nəğmə kimi, nağıl kimi söylənən son sözlərindən baharın ətirini duydu. Burun pərələri tərpəndi... O yerindən qalxdı:

— Yaxşı, gedin, mən də arxanızca gəlirəm.

Gülzaman sevincək qızı qapıb otaqdan çıxdı, şad xəbəri ev əhlinə yetirməyə tələsdi. Neçə gündən bəri heç kəs onu seyrə çıxmağa razı sala bilməmişdi, bu ancaq ona nəsib olmuşdu; odur ki, Gülzamanın ayağı yerə dəymirdi...

Seyrə çıxanlar çoxdan qayıtmışdı. Natəvan isə hələ də dağların, əlvan çəmənlərin seyrindən doymur, qayıda bilmirdi. Axar bulaqların səsindəki həzin nəğmələri, qaranquşların cəh-cəhini eşitdikcə «Ah, mən sizsiz necə yaşamışam»—deyə düşünürdü.

Şairəiin məftunluqla seyr etdiyi mənzərə qəribə deyil, çox adi, təəccüblü deyil, məhz gözəl idi..

Birdən onun qarşısına bir cavan gəlin çıxdı. Gəlin yaz dovğası üçün pencər yığmağa çıxmışdı. Onun yanında əlində göyərti tutmuş üç yaşlı, qəşəng geyinmiş qızcığaz vardı. Qız anasının tumanından tutub toppalaya-toppalaya gəlirdi.

Gəlin yaxınlaşdıqca başındakı yun şalın ucunu yaşmaq kimi yuxarı qaldırır, incə, qırmızı dodaqlarının, düz biçimli burnunun üstünə çəkirdi. Onlar üz-üzə durmuşdular.

Zərrinə qara gözlərini ayağının ucuna zilləmişdi, həyadan və al gəlinlik şalın şövqündən yanaqları lalə kimi qızarmışdı. Gəlin utandığından arxasınca çığıran uşağa məhəl qoymurdu.

— Hansı qayanın göy geyərçini, hansı dağın xınalı kəkliyisən, gəlin?— deyə şairə soruşdu.

— Bəyim tanımadın? Kəniziniz Gülabın nəvəsiyəm.

— Necə? Gülab nənənin? Sən Zərrinəsən?

— Bəli, bəyim, başına dönüm, Zərrinəyəm.

Bir anda şairənin nəzərində başqa bir yaz bayramı canlandı. Elə onda da gəlinlər, qızlar-səməni seyrinə çıxmışdılar. Sarılığı olanlar, rəngi solanlar, qışdan zəif çıxan xəstəhallılar zümrüd kimi

gömgöy təptəzə otu burub üstünə daş qoyur, «mənim sarılığım sənin, sənin tər-təzəliyin mənim» deyirdilər. Gənc qızlar evlərdə, nimçədə, nəlbəkidə göyərdilmiş səməniləri suya buraxır:

«Səməni, saxla mənn İldə göyərdərəm səni»— deyə oxuyur, sona kimi qaqqıldaşırdılar. Seyrə çıxan qızlar yaz yağışından sonra fəzanı bəzəyən qövsiqüzeh kimi, göyərən otlar, açan çiçəklər kimi təzə və əlvan idi.

Elə onda da beləcə bir gün idi. Gülab nənə nəvəsi Zərrinəni bəyimin qucağından alıb deyirdi:

— O, nəkarədi ağasına bacı olsun, süd verdin, can verdin bəxtəvərə. Mirabbas ağasının kənizidi, bəyim. Yoxsa südün gözünü tutar.

Natəvan gülümsəmiş:

— Dilin necə varır, Gülab nənə?—demişdi.—Bu əziz gündə qızcığaza qarğama!

Qarı gülmüşdü:

— At belində getsin onu, adına alxış gəldi demədim...

Sonra nəvəsinin qundağını Xan qızından alıb, öz gəlininə verirkən körpənin qırışmış üzünə baxıb demişdi:

— Mirabbas ağanla süd bacısı oldun, a bəxtəvər, bəyimin ayağından öpəsi yerdə, döşündən süd əmdin... Qız qızıla dönübdü, xəbəri yox oğlanların, dərdi çox oğlanların.

Natəvan qoca qarının oxşamalarına gülmüş «Sənciyəz yekəcə şairəsən, Gülab nənə, sinədəftərsən ki...»— demişdi.

O vaxtdan bəri nə qədər keçib. O balaca qızcığaz nazlı bir gəlin olub, cavan bir ana olub. Odur aralıda, göy çəmənlikdə oynayan uşaq da onun balasıdır.

«Bacı... bacı»—deyib çağırır. Körpə dili ilə deyilən bu «bacı» kəlməsi «ana», «ana» kimi səslənirdi. Qədim adətə görə külfətdə anadan yaşlı qadın olduqda, uşaq

öz anasını «bacı» deyə çağırır.

Gəlin dözə bilməyib həyasından qızara-qızara, oğrun-oğrun arxaya baxdı. Natəvan xəyaldan ayrıldı.

— Balanı incitmə, gedək,—deyə addımlarını yeyinlətdi, uşağa tərəf yönəldi. Gəlin də onun arxasınca yollandı, hər ikisi uşağa çatanda, Natəvan əyilib qızın başını tumarladı, qara arxalığının cibindən çıxardığı şirnini uşağa verdi. Qızın üzü güldü; o cəld şirnini qapıb ağzına təpişdirdi. Uşağın bu hərəkəti hər ikisini güldürdü. Onlar göy çəmənlikdə oturub qızçığazı araya aldılar. Şirnini sormaqda olan qız böyük bir diribaşlıqla Natəvanın suallarına cavab verirdi.

— Adın nədir, a kələfcə?

— Zəminə.

— Kimin qızısan?

— Nənəmin.

— Nənən kimdi?

— Nənəmdi də.

Gülüşdülər.

— Allah səni həmişə güldürsün, balam!—deyə çoxdan bəri gülməyi tərk etmiş Natəvan, dərindən köksünü ötürüb Zərrinəyə sarı döndü.

— Bir neçə ildir ki, Gülab qarı rəhmətə gedib, o vaxtdan bəri səndən də xəbərim olmayıb, qızım! Kimə veriblər səni?

Gəlin başını aşağı dikdi:

— Yanıq Kərimin oğluna, bəyim.

— Yaxşı, onun ki bir oğlu var idi, o da evliydi: iki arvadı vardı...

Zərrinə yavaşca cavab verdi:

— Helədi, bəyim, əsil arvadı öldü, bədəsil qaldı... Natəvan diksindi, elə bil ürəyindəki sağalmaz bir

yaranın közünü qopardılar:

—Qız, dayan, yoxsa günülüsən?

Gəlin daha da yavaş bir səslə dilləidi:

— Helədi, başına dönüm.

Şairə odlandı, həssas ürəyi ilə günülük dərdini gəlinin üzündən oxudu.

— Olmaya səni çox incidir, qızım?—deyə soruşdu.

— Onu görüm heç duz dadı bilməsin, bəyim, günümü göy əskiyə büküb, qorxumdan yerimirəm ki, izim düşər. Bəyim, eşitməmiş olmazsan, deyərlər:

**Ay günü, günün qara,**

**Eyləmisən günüm qara,**

**Canına düşşün qarayara!**

Amma yox, bəyim, canı yanmışa heç nə olmasın, milçək olsun divara yapışsın, it olsun qapıda hürsün. Yoxsa genə mən bəlaya düşərəm.

— Yanıq Kərimi çağırtdırıb hərbələrəm, qızım, dərd eləmə. Günülərinin uşağı var?

— Əsilin yoxdu, bədəsildən törəmə çoxdu.

— İpək elə xar oldu; eşşəyə çidar oldu? Bəs səni bu zavala kim caladı, ay bala?

— Yolu yumrulmuş Sağsağan yengə.

— O ölüm olmuş hələ sağdı?

— Ona nə olacaq, bəyim, ağzıynan yer qapır, amma bir əli imanında, bir əli tumanında, elə qaraçı seyidi kimi qapı-qapı gəzir. Ölüm də ondan qaçır. O qədər qız evi yıxıb ki.. onu qarğış da tutmur... Görüm o qədər yaşasın ki, toyuqlarnan hinə girsin...

Bu sözlər aram-aram deyilsə də gəlinin yaşlı ər və bədəsil günü ilə keçən dözülməz həyatını şairənin qarşısında səhifə-səhifə araladı. Tiflisdə gördüyü rus məktəbində oxuyan gənc qızları xatırladı: elə bu yaşda olardılar, onlar oxuyurlar, bu bədbəxt isə evdardır, günü yumruğu yeyir... Günü dərdi!.. İslam aləmindəki qadınların ən beyük bəlalarından biri olan bu dərd Natəvanı çoxdan düşündürürdü... O, bacardıqca belə fəlakətlərin qarşısını alırdı.

— Neçə yaşın var, Zərrinə?

— İyirmi ikidir, bəyim, yadından çıxıb? Mən yazıq ağam Mirabbasın günəbir yaşıdıyam axı...

Gəlinin sözləri böyük ananı titrətdi, tüstüsü təpəsindən çıxdı... O öz-özünə:

«İyirmi iki... demək o matəmli gündən dörd il keçib, dörd il... Dörd il... bu uzun illər, elə bil ki, tək bircə matəmli gün olub. Uzun, ağır, fasiləsiz bir gün». Ağlaşma, ehsan, nalə, ana sızıltısı ilə dolu olan beyük bir gün kimi keçib... dörd il... «Amma mən elə bilirəm ki, səni dünən itirmişəm, bala!..»—deyə düşündü, soyuqdan üşüyürmüş kimi qara şalına daha bərk büründu. Zərrinəni də, qızcığazı da unutdu, titrək dodaqları nə isə pıçıldadı, qalxdı, salamatlaşmadan gəlindən aralandı.

Zərrinə balasının əlindən tutdu, yaşıl xalının üstünə düşmüş tək bir lalə kimi onundalınca baxabaxa qaldı.

Böyük ana uzaqlaşdı. O nə üçün, hara getdiyini duymadan irəliləyirdi. Nazik barmaqları qara şalın saçaqlarını duyurdu, qələmi qaşları çatılmış, alnının incə qırışıqları dərinləşmiş, kədər buludu ala gözlərinə pərdə çəkmişdi. O bu gün dörd il bundan əvvəl itirdiyi balasının, 18 yaşlı Mirabbasının yaşıdını, onun süd bacılarından birini görmüş, qaysaqlanmaqa başlayan yarasının közü qopmuş, əvvəlkindən daha dərin bir ağrı ilə sızlamağa başlamışdı. diqqətlə dinləyən olsaydı, ananın dodaqlarından bu sözlərn eşidərdi:

«...Bu gün sənin yaşıdını gördüm, sinəmə çəkilmiş dağ dilə gəldi... Bu gün sənin yaşıdını, gördüm, qəlbimdə qəmli bir kaman həzin-həzin, qərib-qərib inlədi... Bu gün sənin yaşıdını gördüm... Onun da sənin kimi iyirmi iki yaşı var... Onun bir qızı da var, anana pərəstiş söyləyən dili də... İndi sən də sevərdin, sənin də balan olardı, deyilmi, quzum?

Bu gün sənin yaşıdını gördüm, qəlbimdə gözlə görünməz bir nəğməkar bayaqdan bəri bircə mahnını, həzin, incə bir laylanın tək bir misrasını oxuyur».

Sinə dağı onun narahat qəlbini təlatümə gətirir, dodaqları əsə-əsə şe’r deyirdi... Adəti idi,—kədər də, dərd də, səadət də, ona şe’r dedirtdirərdi... İndi də şe’r onu qanadlarına alıb aparırdı.

İmarətə necə və nə vaxt qayıtdığını özü də bilmədi. Anası evində novruz qonağı olan Xanbikə qabağına çıxdı. Ananın üzünə baxdıqda gənc şairənin ürəyi titrədi: «Görəsən yenə bu dodaqlar nə pıçıldayır, nə deyir?» deyə düşündü:

— Nə olub, ana can?

— Heç, Xanbikə, Gülzaman hanı?

Xanımın qapısında oturub mürgüləyən Gülzaman yuxulu-yuxulu qalxdı; dükçəsi əlindən yerə düşüb çözələndi.

Natəvan kimsənin üzünə baxmadan:

— Qələmdanımı ver!—dedi.

Şairənii səsindəki gizli kədər Gülzamanın nəzərindən yayınmadı. O, cəld əmri yerinə yetirməyə cumdu.

Natəvan otağına keçib oturdu, tirmə mütəkkələr, məxmər balışlar, zərli deşəklər od olub bədənini yandırırdı. Nargilə qəlyanın acı tüstüsü boğazını göynədirdi. Kağız və qələmdan əlində içəri girən Gülzaman, yavaşca xanımına yanaşdı. Rəhili və yazı lövhəsiii irəli çəkib, kağızları, əlvan naxışlı qiymətli qələmdanı üstünə qoydu. Qələmdanı açıb bir neçə qamış qələm çıxardı və ucunu kiçicik cib bıçağı ilə nəziltməyə başladı. Sonra da qələmdanın qabına mürəkkəb damızıb, ahəstə addımlarla otağı tərk etdi. Qapı Gülzamanın arxasınca örtülən kimi, imarətə dərin bir sükut çökdü. Şairə qələmi mürəkkəbə batırdı, sanki qatı sükutdan qorxub, onu pozmağa can atan qələmi işə saldı. Bu gün onun qoşduğu qəzəl qəlbində coşan hisslərin tərcümanı idi:

**Bahar əyyamıdır, açıldı güllər, ey cavan, sənsiz,**

**Təəccübdür nədən divanə olmaz Natəvan sənsiz?**

**Şəmadət eyləyir düşmən mənə hər dəm və hər saət,**

**Mərəz artar dəmadəm varə-varə hər zaman sənsiz.**

**Nə ümmidim vüsalə, nə fəraqə tabü taqət var,**

**Gözümdə tirəvü tar oldu, billah, bu cahan sənsiz.**

**Yetişməz başə, Abbas, ömrüm axır bir tamam olsun,**

**Keçir hər bir dəqiqə ildən artıq, əl'aman, sənsiz.**

**Bu gün eydi-şərif oldu, məgər sən bixəbərsənmi?**

**Güman etmə ki, işrət içrə əylənsin anan sənsiz.**

**Güli-ruyindən ayrı neylərəm mən gülüstan seyrin,**

**Edər bülbül kimi nalə bu zarü Natəvan sənsiz.**

Birdən qapı yavaşca açıldı. Kiçik gümüş padiosda, xırdaca fincan içərisində qəhvə gətirən Xanbikə içəri girib, şairənin yanında diz çökdü, anasının qəlbindəki təlatümləri, tufanları duyan gəlinin ürəyi sıxıldı.

— Can ana,—dedi,—bir fincan qəhvə içsənə...

— Qulaq as, Xanbikə, axı sən mənim ilk dinləyicimsən, qulaq as... gör anan nə yazıb...

...Qəzəl bitdikdə Natəvan kədərli gözlərini Xanbikənin nəmli kirpiklərinə zillədi:

— Qızım,—dedi,—ölümə çarə yoxdur, mən də o böyük ayrılığın gəlişini duyuram; vəsiyyətimi bilirsən, amma səndən bircə xahişim var... Yox... e’tiraz etmə, dinlə! Bax, qəbrimin yanında mütləq bənövşə əkdirərsən... ya özün əkərsən...—O, sözünü bitirə bilmədi. Xanbikənin ardınca içəri girmiş Gülzamanın hıçqırıqları onun sözünü kəsdi...

— Elə demə, bəyim, allah sənin birjə canına qıymasın, mənim ömrümdən kəsib ömrünə calasın.

Natəvan öz sevimli və sadiq kənizini ömründə belə qəmli görməmişdi...

1901-ci ilin baharı idi. Böyük ana və şairə 5 il idi ki. vəfat etmişdi. Bu bahar Xanbikə, ailə qayğılarından vaxt tapıb, Ağdama—anasının dəfn olunduğu imarət adlandırılan qəbiristana gəlmişdi. Onun balaca qızı, Natəvanın ilk qız nəvəsi Sənubər də anası ilə birlikdə gəlmiş, xoş bir xəyal, şirin bir yuxu kimi xatırladığı nənəsinin qəbrinin ətrafında əkmək üçün bənövşə toxumu gətirmişdi.

Əbədi sükuta dalanların son məskəni olan qəbiristan yamyaşıl bahar libası geymişdi. Ana və qız Natəvanın qəbrinə çatdıqda hər ikisi heyrətdən donub qaldılar. Böyük şairənin sadə qəbrinin ətrafında səliqə ilə çoxlu bənövşə əkmişdilər. Çiçəklərin ətri ətrafı basmışdı.

— Ana... Ana can...—deyə Sənubər səsləidi.—Bunları kim əkib, ana?!.

Xanbikənin gözlərində sədaqətli Gülzaman və Natəvanın dostları, onu sevən el-oba canlandı. Başını sallayıb dedi:

— Qızım, məgər onun vəsiyyətini tək biz eşitmişdik?!.

# KİTABIN İÇİNDƏKİLƏR

Səmiş

Dəniz... Ah, dəniz!..

Dünyaya insan gəlir

Cehizsiz qız

Vergi

Ağdam yolunda

Xan qızı bulağı

Qırxbuğum

Şairə

Mən günəşin tellərini...

Nəğmə

Bu gün sənin yaşıdını gördüm